Azərbaycan Tərcümə Mərkəzi

# Aydın Yol

www.aydinyol.az

17 iyul 2015-ci il № 27 (36) * Həftəlik ədəbi-ictimai qəzet * Qiymıəti 50 qəpik



**Etibar Babayevin atası haqqında xatirələri**

səhifə 11



Teymur Kərimli

**"Bizim millətdə özünü başqalarından üstün tutmaq kimi xüsusiyyətlər yoxdur"**

səhifə 12-13



**Mərakeş Krallığının səfiri Həsən Haminin hekayəsi**

səhifə 16

## 140 yaşlı Azərbaycan mətbuatı



# "Əkinçi"dən başlayan çətin və şərəfli yol

səhifə 4



**Vaqif Sadıqov və Kamran Ağayev "Atalar və oğullar" layihəsində**

səhifə 8

**Dinini və adını dəyişən aktyor - Ömər Şərif**



səhifə 23

## ANONS

*Kannda Azərbaycan Mədəniyyəti Günləri* səhifə 3

*Ramazan - dünya müsəlmanlarının müqəddəs bayramı* səhifə 5

*İmam Əlinin (ə) minacatı* səhifə 6

*Naxçıvan zərbxanasının Azərbaycanın tarixində yeri və əhəmiyyəti* səhifə 7

*"Ayaks" əməliyyatı* səhifə 10

*Xəlifəlik iddiasını gerçəkləşdirən sultan - I Səlim* səhifə 15

*Zənglərin tarixi və tarixçəsi* səhifə 18

*Rəşad Məcidin italyanca şeirlər kitabı Milanda təqdim olunub* səhifə 19

*Mikroblar, bakteriyalar və antibiotiklər nədir?* səhifə 20

*Lətif - milli kinomuzun ilk uşaq qəhrəmanı* səhifə 22

# Azərbaycan Prezidenti Ramazan bayramı münasibətilə xalqı təbrik edib

Təbrikdə deyilir.

Hörmətli həmvətənlər!

Mübarək Ramazan bayramı münasibətilə sizi ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm.

Müqəddəs kitabımız Qurani-Kərimin nazil olduğu mübarək Ramazan ayı insanları gözəl niyyətlər və xeyirxah əməllər naminə birliyə çağırır, onları əmin-amanlıq, qardaşlıq, mərhəmət, şəfqət və bərabərlik yoluna dəvət edir, əxlaqi saflığın, xeyirxah əməllərin təntənəsini nümayiş etdirir. İnsanların qəlbini və ruhunu ilahi hikmətlərlə nurlandıran bu bayram günlərində mömin vətəndaşlarımız din qarşısında vicdani borc və vəzifələrini ləyaqətlə yerinə yetirir, mənəvi zənginliyin, əxlaqi kamilliyin sevincini yaşayırlar.

Bu günlər ölkəmizin hər yerində xalqımızın əmin-amanlığı üçün dualar səslənir, şəhidlərimizin ölməz xatirəsi ehtiramla yad olunur. İnanıram ki, bu müqəddəs bayram günlərində sizin dua və diləkləriniz, saf niyyətiniz Tanrı dərgahında qəbul ediləcək, Uca Yaradan öz mərhəmətini sevimli xalqımızdan əsirgəməyəcəkdir.

Əziz bacı və qardaşlarım!

Bu müqəddəs bayramın dövlət səviyyəsində qeyd edilməsi bizim multikultural və tolerant prinsiplərə necə yüksək qiymət verməmizi nümayiş etdirir. Bu gün biz dünyaya bir daha qəlbimizdəki milli dəyərlərə sadiq olduğumuz qədər bəşəri dəyərləri də yaşatdığımızı bəyan edirik. Dini, milli rəngarəngliyimizi mənəvi bütövlüyümüzün zənginliyi kimi qəbul edirik. Elə buna görə də bu əziz gün münasibətilə hər bir vətəndaşımıza, ölkəmizin hüdudlarından kənarda yaşayan bütün soydaşlarımıza səmimi bayram təbriklərimi çatdırır, ailələrinizə firavanlıq və xoşbəxtlik, süfrələrinizə xeyir və bərəkət arzulayıram.

Ramazan bayramınız mübarək olsun!




# İlham Əliyev 5 saylı Bakı "ASAN xidmət" mərkəzinin açılışında iştirak edib

**Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin 5 saylı Bakı "ASAN xidmət" mərkəzinin açılışı olub.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı şəhəri, Nizami rayonu, Heydər Əliyev prospekti, 115 ünvanında yerləşən mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi.

Dövlətimizin başçısına məlumat verildi ki, ilk dəfə bu mərkəzdə "ASAN ECO oturacaq"lar quraşdırılıb. Bunların hər biri ASAN loqosu formasında olan günəş panelləri ilə təchiz olunub. Qurğuya yerləşdirilmiş modem vasitəsilə isə internetdən pulsuz yararlanmaq imkanı var.

5 saylı "ASAN xidmət" mərkəzinin ikimərtəbəli binasında ən yüksək standartlar tətbiq olunub.

Prezident İlham Əliyev yeni xidməti işə saldı.

Mərkəzdə müasir müstəqil Azərbaycanın banisi və qurucusu, ümummilli lider Heydər Əliyevin ölkəmizdə idmana qayğısını əks etdirən fotoguşə də yaradılıb.

Dövlət qurumlarının fəaliyyətində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi istiqamətində son illərdə əhəmiyyətli işlər görülüb, müvafiq hüquqi baza formalaşdırılıb. Əksər dövlət orqanlarında əhaliyə elektron xidmətlərin göstərilməsi təmin edilib. Bu xidmətlər bürokratik əngəlləri və korrupsiya hallarını aradan qaldırır. 2012-ci ilin iyul ayının 13-də Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin yaradılması ilə bu sahədə mühüm islahata imza atıldı. Həmin ilin dekabrında isə Bakıda pilot layihə olan 1 saylı "ASAN xidmət" mərkəzi fəaliyyətə başladı. Sonra paytaxtın bir neçə rayonunda da "ASAN xidmət" sakinlərin istifadəsinə verildi. Bu proses regionları da əhatə etdi. Hazırda ölkə üzrə 8 "ASAN xidmət" mərkəzi fəaliyyət göstərir. Onlardan 4-ü paytaxtda, 4-ü isə regional mərkəz olmaqla Sumqayıt, Gəncə, Sabirabad və Bərdədədir. İndi isə Bakı şəhər 5 saylı "ASAN" xidmət mərkəzi də fəaliyyətə hazırdır. Bu mərkəz paytaxtda qeydiyyatda olan sakinlərə xidmət göstərəcək.

Prezident İlham Əliyev mərkəzin birinci mərtəbəsində yeni layihələrə baxdı.

Bildirildi ki, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi beynəlxalq əlaqələrə də üstünlük verir. Artıq "ASAN xidmət" təcrübəsinin özünəməxsus hüquqi strukturu bir çox beynəlxalq tərəfdaşlar və ekspertlər tərəfindən yüksək qiymətləndirilir və bu təcrübə Azərbaycan modeli kimi xüsusi təqdim olunur. Azərbaycan brendi olan "ASAN xidmət" "Dövlət xidmətlərinin çatdırılmasının yaxşılaşdırılması" kateqoriyasında 2015-ci il dövlət xidmətləri sahəsində BMT Mükafatının birinci yer üzrə qalibi seçilib. Bu faktın özü bir daha təsdiqləyir ki, "ASAN xidmət"ə dünyada böyük maraq var. Təsadüfi deyil ki, bir sıra dövlətlərin rəsmiləri ölkəmizə gələrək "ASAN xidmət"lərin fəaliyyəti ilə yaxından tanış olurlar. Geniş beynəlxalq marağın nəticəsidir ki, 2014-cü ildən başlayaraq Dövlət Agentliyi və "ASAN xidmət" mərkəzlərinə beynəlxalq səviyyəli uyğunluq sertifikatları verilib.

Dövlətimizin başçısına Masallıda "ASAN həyat" kompleksinin tikintisi, həmçinin Qubada "ASAN həyat" kompleksinin konseptual həlli və 2016-cı ildə tikiləcək regional "ASAN xidmət" mərkəzləri barədə də ətraflı məlumat verildi. Qeyd edildi ki, bu mərkəzlərdə də ən yüksək standartlar tətbiq olunacaq.

Prezident İlham Əliyev "ASAN sorğu" robotunun fəaliyyəti ilə də tanış oldu. Bu robot Çağrı Mərkəzinin operatorları ilə canlı bağlantı yaradaraq, vətəndaşın sorğu və müraciətinin qəbul olunmasını təmin edir. Robotdan, həmçinin videokonfransların keçirilməsi və videodanışıqların aparılması zamanı da istifadə olunur.

Artıq "ASAN FM" layihəsi də hazırlanır və yaxın vaxtlarda fəaliyyətə başlayacaq. Radio dövlət xidmətləri sahəsində ixtisaslaşmış yeganə radio olacaq. Məqsəd daha geniş auditoriyaya çıxış, onların düzgün və operativ məlumatlandırılmasıdır.

Dövlətimizin başçısına "İdeya bankı" barədə də ətraflı məlumat verildi. Bu, vətəndaşları "ASAN xidmət" mərkəzlərinin və müxtəlif dövlət orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi və dövlət xidmətlərinin təqdim edilməsi prosesinə cəlb etmək və onların ideyalarından istifadə məqsədilə hazırlanmış internet portaldır. Vətəndaşlar bu portalda şəxsi kabinet yaratmaqla, müxtəlif dövlət orqanlarının fəaliyyətinə dair öz ideya və təkliflərini göndərə bilərlər. Toplanılan ideyalar qiymətləndirilir və qalib ideyaların reallaşdırılması istiqamətində tədbirlər həyata keçirilir. Bu günə qədər "İdeya bankı"na 1765-dən çox ideya daxil olub. Fərqlənən ideyalar müvafiq tədbirlər planına daxil edilib və bunlardan 194-ü artıq reallaşdırılıb.

Prezident İlham Əliyev istifadə edilən çap vərəqi üzərindəki yazıların silinərək yenidən istifadə olunmasını həyata keçirən printerə də baxdı. Bu printer istifadə edilən kağızların üzərindəki yazıları silərək yenidən çap etmə funksiyasına malikdir. Çap zamanı adi kağızdan istifadə olunur. Ekoloji cəhətdən daha sağlam və qənaətcil olan bu qurğu vasitəsilə bir çap vərəqindən 8 dəfə istifadə etmək mümkündür.

Onu da qeyd edək ki, 5 saylı "ASAN xidmət" mərkəzinin yerləşdiyi ərazidə 150 yerlik avtomobil dayanacağı da yaradılıb və buradakı yerüstü keçid piyadaların təhlükəsiz hərəkətini təmin edir.

**Qəzet Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində qeydiyyatdan keçib. Şəhadətnamə nömrəsi: 3899**
**Təsisçi: Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Tərcümə Mərkəzi**
**Baş redaktor: Yaşar Əliyev**
**İcraçı direktor: Bəhlul Seyfəddinoğlu**
**Redaksiya heyəti: Nəriman Əbdülrəhmanlı, Mövlud Abdullayev, Feyziyyə, Narıngül Əliyeva, Leyla Əliyeva, Sevinc Fədai, Rəbiqə Nazimqızı**
**Qəzet 2014-cü ilin 24 oktyabrından çıxır.**
**"Azərbaycan" nəşriyyatında çap olunub.**
**Tiraj: 1250. Sifariş: 2353**
**Ünvan: Bakı, Topçubaşov küçəsi, 74**
**Telefon: 595 16 05.**
**E-mail: aydinyol.az@gmail.com**

# "Ömür bitər, yol bitməz..."

**Yazıçı-jurnalist, Ombudsman Aparatının mətbuat xidmətinin rəhbəri Zemfira Məhərrəmli bu günlərdə "Ömür bitər, yol bitməz..." kitabı ilə oxucuların görüşünə gəlib.**

AzərTAc xəbər verir ki, tanınmış qələm sahibi, insan hüquqlarına, o cümlədən mənəvi problemlərə dair çoxsaylı yazıların müəllifi olan Z.Məhərrəmli bu kitabını Azərbaycan milli mətbuatının 140 illik yubileyinə həsr edib. Kitabın redaktoru AMEA-nın müxbir üzvü, əməkdar elm xadimi Nizami Cəfərov, ön sözün müəllifi isə Azərbaycan Mətbuat Şurasının sədri, əməkdar jurnalist Əflatun Amaşovdur.

"Jurnalistin yol qeydləri" silsiləsindən olan bu kitabda müəllifin publisistik yazıları toplanıb. Z. Məhərrəmli bu yazılarda dünyanın müxtəlif ölkələrinə səfərləri, qatıldığı mötəbər toplantılar, həmçinin ənənəvi media, onlayn jurnalistikanın, informasiya-kommunikasiya texnologiyalarının inkişafı, sosial şəbəkələrin yeni mediaya inteqrasiyası mövzularında iştirakçısı olduğu beynəlxalq konfranslar barədə təəssüratlarını oxucularla bölüşür.

Hazırda ölkəmizdə informasiya cəmiyyəti qurulmasının prioritet istiqamət olduğunun vurğulandığı kitabda dövlətimizin başçısı İlham Əliyevin yüksək diqqət və qayğısı sayəsində mətbuatın Azərbaycan cəmiyyətində aşkarlığın, sərbəst və fərqli düşüncənin tribunası kimi özünü təsdiq etdiyi, son illərdə informasiya texnologiyalarının cəmiyyət həyatındakı rolunun xeyli artdığı qeyd edilir, yeni media mühüm platforma kimi dəyərləndirilir.

Aydın Yol
N 27(36) 17.07.2015






# Kannda Azərbaycan Mədəniyyəti Günləri

## Mehriban Əliyeva "Azərbaycan xalçaları incəsənətdə" sərgisinin açılışında iştirak edib, Heydər Əliyev Fondu "Azərbaycan musiqi gecəsi" keçirib

**İyulun 15-də Kannda keçirilən Azərbaycan Mədəniyyəti Günləri çərçivəsində Festivallar sarayında "Azərbaycan xalçaları incəsənətdə" sərgisinin açılışı olub.**
**Açılış mərasimində Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və ailə üzvləri iştirak ediblər.**
**"Azərbaycan xalçaları incəsənətdə" sərgisindəki əsərlər ilk dəfə nümayiş olunması ilə seçilir. Heydər Əliyev Fondunun təşkilatçılığı ilə keçirilən sərgidə Azərbaycan xalça sənətinin tarixi, müasir dövrü, dünyada geniş yayılması barədə ziyarətçilərə ətraflı məlumat verilir.**
**Burada Azərbaycan rəssamları Lətif Kərimov, Vüqar Muradov, Butunay Haqverdiyev və Elçin Vəliyevin əsərləri - milli xalça eskizləri əsasında modern, pop-art xarakterli əsərlər, installyasiyalar təqdim edilir.**

Gənc rəssam Elçin Vəliyevin sərgidə 7 əsəri nümayiş olunur. Məhz "Azərbaycan xalçaları incəsənətdə" sərgisi üçün hazırlanan bu əsərlər öz orijinallığı ilə seçilir. Yağlı boya ilə işlənən və əsasını xalça motivləri təşkil edən bu əsərlər 3D effekti ilə ziyarətçilərdə canlı təəssürat yaradır. Bu, E.Vəliyevin ilk sərgisidir.

Sərgidə Xalq Rəssamı, görkəmli xalça ustası Lətif Kərimovun 1969-1970-ci illərdə yaratdığı xalça eskizləri nümayiş olunur. Təqdim olunan 15 əsər ilk dəfədir nümayiş etdirilir. Bunlar məhz Lətif Kərimovun özünün müəllifi olduğu ornamentlərin eskizləridir.

Ekspozisiyada, həmçinin tanınmış rəssam Butunay Haqverdiyevin xalça installyasiyası nümayiş olunur. İlk dəfə təqdim edilən bu əsər Azərbaycan xalça ornamentlərini canlandırır. Taxtadan hazırlanan installyasiya 3D effekti ilə seçilir. Əsər Lətif Kərimovun eskizləri ilə yanaşı təqdim olunmaqla, milli xalça sənətinin tarixi, inkişafı və modern rəssamlıqda tətbiqini nümayiş etdirir. Sərgidə, həmçinin XV-XVI əsrlərdə dünya rəssamlarının əsərlərində yer almış xalça motivlərinin əks olunduğu video installyasiya nümayiş olunur. Video installyasiya Azərbaycan xalça sənətinin nadirliyindən və dünyada məşhur olmasından, görkəmli rəssamların Azərbaycan milli xalça ornamentlərinə verdikləri dəyərdən bəhs edir.

Sərgidə tanınmış rəssam Vüqar Muradovun 7 əsəri nümayiş olunur. Rəssam bu əsərləri Kann sərgisi üçün hazırlayıb. Yağlı boya ilə portret və mənzərə janrlarında işlənmiş bu əsərlər milli xalça ornamentlərini özünəməxsus şəkildə təqdim edir.

Azərbaycan xalçaçılıq sənəti sahəsində dünyanın aparıcı ölkələrindən biridir. 2010-cu ildə Azərbaycanın ənənəvi xalçaçılıq sənəti UNESCO-nun Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrsin Reprezentativ Siyahısına salınıb. Azərbaycan xalçaları tarixən bütün dünyada çox məşhur olub. Ölkəmizdə xalçaçılığın tarixi də çox zəngindir. Azərbaycan xalçalarının dünya mədəniyyətinə və ümumdünya mədəni irsinə təsiri böyükdür. Bu gün Azərbaycan xalçaları dünyanın tanınmış muzey və sərgilərində nümayiş olunur. Azərbaycanın Gəncə, Qarabağ, Quba, Abşeron, Şirvan, Qazax və Təbriz xalçaçılıq məktəbləri də zəngin tarixi dəyərləri ilə seçilib.



Bu gün isə Azərbaycanda xalçaçılıq ənənələri qorunur, bu sahə özünün yeni inkişaf dövrünü yaşayır. Dövlətimizlə yanaşı, bu məsələdə Heydər Əliyev Fondu da mühüm işlər görür. 2011-ci ildə Heydər Əliyev Fondu tərəfindən Azərbaycan xalçaçılıq sənətindən bəhs edən "Azərbaycan xalçaları" kolleksiyasının nəşri, Azərbaycan xalçaçılıq sənətinin dünyada tanıdılması istiqamətində həyata keçirilən layihələr görülən işlərin tərkib hissəsidir.

"Azərbaycan xalçaları incəsənətdə" sərgisi iyulun 16-dan ictimaiyyət üçün açıq olacaq və ayın 31-dək davam edəcək.

Onu da deyək ki, uğurla davam edən Azərbaycan Mədəniyyəti Günləri çərçivəsində Kannda turistlərin ən çox olduğu məşhur Kruazett bulvarında həm də "Bakı-2015" birinci Avropa Oyunlarının simvolları olan Nar və Ceyran heykəlləri sərgilənir. Burada nümayiş olunan 8 heykəl Azərbaycanın və digər ölkələrin rəssamları tərəfindən müxtəlif ornamentlərlə bəzədilib. Bu əsərlər Kann sakinlərində və şəhərə gələn qonaqlarda çox böyük maraq doğurur.



***

Kannda keçirilən Azərbaycan Mədəniyyəti Günləri çərçivəsində "Azərbaycan musiqi gecəsi" təşkil olunub.

Heydər Əliyev Fondunun təşkilatçılığı ilə keçirilən musiqi gecəsində Fransanın tanınmış ictimai-siyasi xadimləri, Kann şəhərinin rəhbərliyi və digər nüfuzlu qonaqlar olublar.

Tədbirin iştirakçıları əvvəlcə "Bakı-2015" birinci Avropa Oyunları ilə bağlı fotosərgi ilə tanış oldular. Sərgidə birinci Avropa Oyunlarının açılış və bağlanış mərasimləri ilə yanaşı, Oyunlar zamanı müxtəlif idman yarışlarından ən maraqlı məqamlar ziyarətçilərin diqqətinə çatdırıldı. Qonaqlara Heydər Əliyev Fondunun Azərbaycanla bağlı nəşrləri də təqdim edildi.

Kannın Festivallar Sarayında keçirilən "Azərbaycan musiqi gecəsi"nin aparıcısı ölkəmiz, onun qədim və zəngin mədəniyyəti, incəsənəti və musiqisi barədə ətraflı məlumat verdi. Kann şəhər merinin müavini, Kann Festivallar Sarayının prezidenti xanım Ann Reks bugünkü tədbirin əhəmiyyətini vurğuladı.

"Azərbaycanı qəbul etmək Kann şəhəri üçün böyük şərəfdir", - deyən şəhər merinin müavini Azərbaycan mədəniyyətinin və incəsənətinin artıq üçüncü dəfədir ki, Kannda çox yüksək səviyyədə təqdim olunduğunu qeyd etdi. Ann Reks bildirdi ki, ölkəmiz Kannda çox yüksək səviyyəli mədəni tədbirlər təşkil edir. Bu da Kann şəhərinin sakinləri və buraya gələn qonaqlar tərəfindən yüksək maraqla qarşılanır.

Azərbaycanın Dostları Assosiasiyasının prezidenti Jan-Fransua Mansel ölkəmizə səfərini xatırlatdı, Azərbaycanın mühüm geostrateji məkanda yerləşməklə çox tolerant ölkə olduğunu dedi. Jan-Fransua Mansel Dağlıq Qarabağ münaqişəsi barədə də danışdı, Ermənistanın Azərbaycanın torpaqlarını işğal etdiyini söylədi. Heydər Əliyev Fondunun Fransada silsilə tədbirlər təşkil etdiyini vurğulayan Azərbaycanın Dostları Assosiasiyasının prezidenti bu il Gəncə şəhərində Fransa-Azərbaycan Regionlararası Əməkdaşlıq Forumunun birinci iclasının keçiriləcəyini bildirdi.

Sonra konsert proqramı başladı.

Konsertdə tanınmış caz ustası, pianoçu Emil Əfrasiyab və onun caz qrupu, eləcə də Azərbaycan incəsənət ustalarının iştirakı ilə etnocaz nümunələri təqdim olundu.

Heydər Əliyev Fondu Azərbaycanın qədim və zəngin mədəniyyətinin dünyada təbliği baxımından mühüm layihələr reallaşdırır. Bu məqsədlə müxtəlif ölkələrdə tədbirlər keçirilir, bu cür gecələr və konsert proqramları təşkil edilir. Fransa və onun regionlarında da mədəniyyətimizin və incəsənətimizin təbliği ilə bağlı mühüm işlər görən Heydər Əliyev Fondu yüz minlərlə turistin ziyarət etdiyi Kann şəhərində artıq üç ildir ki, Azərbaycan Mədəniyyəti Günlərini təşkil edir. Bu tədbirlər Fondun Azərbaycanın özünəməxsus mədəni dəyərlərinin dünyada təbliği üçün gördüyü işlərin bir hissəsidir.

"Azərbaycan musiqi gecəsi" bir-birindən maraqlı çıxışlarla müşayiət olundu və Festivallar Sarayına toplaşan hər bir insanın qəlbinə yol tapdı. Təqdim edilən ifalar alqışlarla qarşılandı.

Təşkil olunan gecə bir daha sübut etdi ki, Heydər Əliyev Fondunun Azərbaycan mədəniyyətinin təbliği ilə bağlı Kannda bu il həyata keçirdiyi tədbirlər çox uğurla baş tutdu.





❍ **"Mən istəyirəm ki, jurnalistlərlə bizim dostluğumuz daimi olsun. Bilin, mən jurnalistləri həmişə sevmişəm"**

**Heydər ƏLİYEV,
Ümummilli lider**

# 140 yaşlı Azərbaycan mətbuatı

# "Əkinçi"dən başlayan çətin və şərəfli yol

İyulun 22-də Azərbaycan milli mətbuatının yaranmasının 140 yaşı tamam olur. Bu, əslində, tək mətbuatın deyil, bütövlükdə Azərbaycan cəmiyyətinin bayramıdır. Təsadüfi deyil ki, ölkə Prezidenti İlham Əliyev mətbuatımızın 140 illik yubileyinin ümummilli səviyyədə qeyd olunması ilə bağlı xüsusi sərəncam imzalayıb. Sərəncamda göstərilir ki, Azərbaycan dövlətinin artan imkanları milli mətbuatımızın inkişafı yolunda çətinliklərin aradan qaldırılması, onun aktual problemlərinin həlli məqsədilə kompleks tədbirlərin həyata keçirilməsinə şərait yaradıb:

"Bu gün mətbuatın maddi-texniki bazasının möhkəmləndirilməsi, müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin stimullaşdırılması, dövlət orqanları ilə mətbuat arasında səmərəli əməkdaşlığın inkişafı, jurnalistlərin peşəkarlığının və məsuliyyətinin artmasına daha münbit şərait yaradılması, onların sosial müdafiəsinin gücləndirilməsi Azərbaycan dövləti və cəmiyyəti qarşısında duran mühüm vəzifələrdir". Prezident İlham Əliyevin imzaladığı bu sərəncamın özü Azərbaycanda mətbuata dövlət qayğısının daha bir parlaq təzahürü kimi dəyərləndirilməlidir.

Azərbaycanın ictimai həyatının ən mühüm hadisələrindən biri olan milli mətbuatın formalaşması XIX əsrin ortalarına təsadüf edir. Azərbaycan və eləcə də bütün Şərq aləmi üçün tamamilə yeni siyasi, mədəni və elmi ünsiyyət vasitəsi olan mətbuatın yaranması, əslində, ölkədə gedən mühüm ictimai-siyasi, iqtisadi və mədəni proseslərlə, o cümlədən, maarifçilik hərəkatının, dünyəvi teatrın və yeni tipli məktəbin təşəkkül tapması ilə sıx bağlıdır.

1832-ci ildə "Tiflis əxbarı" qəzeti və 1845-ci ildə "Zaqafqazski vestnik" qəzetinə "Qafqazın bu tərəfinin əxbarı" adlı azərbaycanca buraxılan əlavə milli mətbuatın yaradılması istiqamətində atılmış ilk addımlar olmuşdu. Rəsmi bülleten xarakteri daşıyan həmin nəşrlər, sözün əsl mənasında, hələ qəzet adlandırıla bilməzdi.

Milli mətbuatımızın bünövrəsi 1875-ci il, iyulun 22-də "Əkinçi" qəzetinin ilk sayının nəşri ilə qoyuldu. Bütün Qafqazda böyük əks-səda doğuran bu qəzetin naşiri də, redaktoru da, korrektoru da Azərbaycan milli maarifçilik hərəkatının banilərindən biri, təbiətşünas alim Həsən bəy Zərdabi idi. Qəzetin ərsəyə gəlməsində Mirzə Fətəli Axundov, Seyid Əzim Şirvani, Nəcəf bəy Vəzirov, Əsgər ağa Gorani və başqa ziyalıların böyük xidmətləri olub. Dövrünün görkəmli ədibləri olan bu şəxsiyyətlər "Əkinçi" qəzetinin səhifələrində öz maarifçi və demokratik ideyalarını təbliğ edərək, ictimai, siyasi və bədii fikrin inkişafına böyük təsir göstəriblər.

1877-ci ildə "Əkinçi" qəzeti bağlandıqdan sonra müxtəlif səylər göstərildiyinə baxmayaraq, ölkəmizdə bir müddət azərbaycanca mətbu orqan çıxmayıb. Ölkədə cərəyan edən ictimai proseslər və cari məsələlər yerli rusdilli mətbuatda öz əksini tapırdı. Bakıda rus dilində çıxan ilk qəzet isə birinci nömrəsi 1871-ci ilin mart ayında işıq üzü görən "Bakinski listok" olub. 1876-cı ildə ikinci rusdilli qəzet "Bakinskiye izvestiya" nəşrə başlayıb. Rusdilli qəzetlər içərisində daha uzunömürlü olmuş "Kaspi"nin 1897-ci ildən etibarən naşirliyini Hacı Zeynalabdin Tağıyev öz üzərinə götürmüş və təxminən həmin dövrdən onun redaktoru Əlimərdan bəy Topçubaşov, sonralar isə Əlibəy Hüseynzadə olmuşdu. Rusdilli qəzetlər Azərbaycan səhifəsi yaratmaq təşəbbüsü göstərsələr də, buna nail ola bilməyiblər.

1879-cu ildə Hacı Səid Əfəndi Ünsizadə Tiflisdə "Ziyayi-Qafqaziyyə" qəzetini çıxarmağa nail olub.

Qəzetin cəmi 104 nömrəsi çıxdıqdan sonra 1880-ci ildə çapını dayandırıb. 1883-1891-ci illərdə Tiflisdə "Əkinçi" üslubunu davam etdirən "Kəşkül" qəzeti və jurnalı çıxarıb.

XX əsrdə isə Azərbaycan dilində çıxan ilk qəzet Məmmədağa Şaxtaxtinskinin 1903-cü ildə Tiflisdə buraxdığı ictimai-siyasi, iqtisadi, elmi, ədəbi "Şərqi-rus" qəzeti olub. Qəzetin Azərbaycanda ictimai fikir tarixinin inkişafında xüsusi yeri olub. Qəzetdə dünyəvi elmlər, Ana dili, qadın azadlığı ilə bağlı mütərəqqi fikirlər öz əksini tapırdı. "Şərqi-rus" qəzeti Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Abbas Səhhət, Ömər Faiq Nemanzadə, Hüseyn Cavid, Məmməd Səid Ordubadi, Əliqulu Qəmküsar, Əli Nəzmi kimi böyük maarifçiləri öz ətrafında birləşdirə bilmişdi.

Artıq "Şərqi-rus" qəzeti ətrafında formalaşmış yaradıcı heyət Azərbaycanda mətbuatın inkişafının yeni mərhələsinin başlanması üçün zəmin yaratdı.

Cəlil Məmmədquluzadənin təşəbbüsü, redaktorluğu və naşirliyi ilə 1906-cı il, aprelin 7-də Tiflisdə həftəlik illüstrasiyalı ilk Azərbaycan satirik jurnalı - "Molla Nəsrəddin" işıq üzü gördü. "Molla Nəsrəddin" jurnalı 1906-1918–ci illərdə Tiflisdə, 1921-ci ildə Təbrizdə, 1922-1931-ci illərdə Bakıda nəşr edilib, 748 nömrəsi (340-ı Tiflisdə, 8-i Təbrizdə, 400-ü Bakıda) çıxıb.

Mütərəqqi ideyalar carçısı olan "Molla Nəsrəddin" müstəmləkəçilik siyasətini, geriliyi, mövhumatı amansız satira atəşinə tutur, Azərbaycan dilinin saflığı uğrunda ardıcıl mübarizə aparırdı. Bütün təqib və təzyiqlərə baxmayaraq, "Molla Nəsrəddin"in haqq səsi çox keçmədən Qafqazın hüdudlarını aşıb Rusiyada, türk aləmində, bütün Yaxın və Orta Şərqdə eşidildi. Jurnalın Mərkəzi Asiyada, Krımda, İrəvan, Kazan, Ufa, Həştərxan, Orenburq, Təbriz, Tehran, Ərzurum, İstanbul, Qahirə, Bombey, Kəlkəttə və sair şəhərlərdə çoxlu oxucusu var idi.

Bu dövr Azərbaycanda uşaq və valideynlər üçün "Dəbistan", "Rəhbər", "Məktəb" kimi jurnalların buraxılması ilə də əlamətdar idi. Azərbaycan ziyalılarının fəal iştirakı ilə nəşr olunan "Həyat", "Füyuzat", "Təzə həyat", "Şəlalə", "Açıq söz", "Dirilik" kimi qəzet və jurnalların da mətbuatımızın inkişafında böyük rolu olub. Əsrin əvvəllərində Azərbaycanda çıxan dövri mətbuat orqanları, sözsüz ki, milli oyanış, milli özünüdərk proseslərinin aparıcı vasitələrindən biri olmuşdu. Azərbaycanın 1918-ci il, mayın 28-də öz müstəqilliyini qazanmasında milli mətbuatın da mühüm rolu olmuşdu.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə ümummilli platformadan çıxış edən "Azərbaycan" qəzetinin dahi Üzeyir bəy Hacıbəyov tərəfindən nəşr edilməsi ictimai-siyasi proseslərin milli mədəniyyətin inkişafı ilə nə qədər bağlı olduğunun ən bariz nümunəsidir. Əslində, Cümhuriyyət dövrü mətbuatının fəaliyyəti Həsən bəy Zərdabi ideyalarının, "Əkinçi" prinsiplərinin həyata keçirilməsinin yeni və çox mühüm mərhələsi idi. Təəssüf ki, bu mərhələnin ömrü az oldu.

XX əsrin 70 ildən artıq dövrü sovet mətbuatının fəaliyyət göstərdiyi illərə təsadüf edir. Bu dövrün də xüsusi yeri var. Məhz bu illərdə qəzet və jurnalların şəbəkəsi genişlənib, mətbuat kütləvi informasiya vasitələrinin yeni növləri hesabına zənginləşib, jurnalistikanın çeşidli növləri meydana çıxıb. Mətbuat daha çox partiyalı, sinfi olsa da, vətənpərvər jurnalistlərimiz öz qələmlərini daim xalqın xidmətində işlədib və bu yolda bəzən təqiblərə məruz qalıblar.

İndi Azərbaycanda istənilən şəxs özünə mətbuat orqanı yarada bilər. Bunun üçün yetərincə əlverişli mühit olduğundan, qəzet və jurnalların sayı durmadan artır. Bu gün Azərbaycanda hər kəsin imkanı var ki, onu düşündürən, narahat edən məsələlər barədə mülahizələrini mətbuata çıxarsın.



Azərbaycanda sağlam və peşəkar mətbuatın formalaşmasında xalqımızın Ümummilli lideri Heydər Əliyevin əvəzsiz xidmətləri olub. Bəli, Ulu öndər hələ dövlət təhlükəsizliyi orqanlarında çalışdığı illərdə, xüsusən də, Azərbaycan KP Mərkəzi Komitəsinin I katibi olarkən, mətbuatla sıx təmas onun iş prinsipinin başlıca istiqamətlərindən biri olub. Bu, ondan irəli gəlirdi ki, Heydər Əliyev hər zaman çox güclü təbliğat və təşviqat maşını olan mətbuatın insanları səfərbər etmək, onları təşkilatlandırmaq imkanlarını çox gözəl bilirdi.

Heydər Əliyev sovet dövründə olduğu kimi, müstəqil Azərbaycan dövlətinin Prezidenti olduğu illərdə də mətbuatımızın inkişafı naminə çox böyük işlər görüb. Ölkədə mətbuatla bağlı mükəmməl qanunvericilik bazasının yaradılması, həm yazılı, həm də elektron medianın maddi-texniki bazasının möhkəmləndirilməsi, jurnalist kadrlarının sosial müdafiəsinin gücləndirilməsi, mətbuatın lisenziyasızlaşdırılmasının və senzuranın ləğvi, bir sıra mətbuat orqanlarının dövlətə olan borclarının ləğvi, ayrı-ayrı qəzet və jurnalların çapının dövlət hesabına maliyyələşdirilməsi, bu və ya digər formada qanun pozuntusuna yol vermiş neçə-neçə media mənsubunun cinayət məsuliyyətindən azad olunması - bütün bunlar Ulu öndərin Azərbaycan mətbuatına qayğı və diqqətinin bariz nümunəsidir.

Heydər Əliyev idarəçilik məktəbinin və siyasi kursunun layiqli davamçısı olan Prezident İlham Əliyevin hakimiyyəti dövründə Azərbaycanda mətbuata dövlət qayğısının miqyası daha da genişlənib.

1998-ci ilin avqust ayının 6-da Prezident Heydər Əliyevin imzaladığı xüsusi Sərəncamla Azərbaycanda mətbuat üzərindən senzura götürüldü. Həmçinin 1999-cu ildə "Kütləvi İnformasiya Vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununun, digər hüquqi-normativ aktların qəbulu həyata keçirildi.

Prezident İlham Əliyevin 31 iyul, 2008-ci il tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında Kütləvi İnformasiya Vasitələrinin inkişafına Dövlət Dəstəyi Konsepsiyası" kimi mühüm bir sənəd təsdiq olundu. Konsepsiyaya uyğun olaraq, 22 may, 2009-cu ildə Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu yaradıldı.

Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra bir çox millimənəvi dəyərlərə qayıdış mətbuat sahəsində də özünü göstərdi. Bu gün ölkəmizdə yüzlərlə mətbuat orqanı - qəzet və jurnal fəaliyyət göstərir. Milli mətbuatımız illər keçdikcə daha da büllurlaşacaq, saflaşacaq. Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı ilə "Əkinçi" qəzetinin nəşrə başladığı gün - 22 iyul Milli mətbuat və jurnalistika günü kimi qeyd olunur.

Hazırda ölkədə 4500-ə yaxın mətbuat orqanı Ədliyyə Nazirliyində qeydiyyatdan keçib, 8 ümumrespublika yayımçısı, 1 peyk yayımçısı, 14 regional yayımçı televiziya yayımı, 13 şirkət kabel şəbəkəli televiziya yayımı, 13 şirkət isə radio yayımı ilə məşğuldur. Bu isə o deməkdir ki, Azərbaycan, televiziya və radio yayımçılarının əhalinin ümumi sayına nisbətində də dünyanın bir çox ölkələrindən öndədir.

Bu gün müstəqil Azərbaycan dövləti hüquqi-demokratik dövlət quruculuğu yolu ilə daha parlaq gələcəyə doğru inamla addımlayır. Azərbaycan mediası bu inkişafın ön sıralarında qərar tutmaqdadır.

**Hazırladı: NƏRİMAN**

**Bu gün Azərbaycanda Ramazan bayramı qeyd olunur. Məlum olduğu kimi islam dininin müqəddəs bayramları arasında orucluq mühüm yer tutur. Təsadüfi deyil ki, Ramazan ayını "11 ayın sultanı" adlandırırlar, çünki bu ayın gecələrindən birində müqəddəs kitabımız olan Qurani-Kərim nazil olub. Həmin gecə "qədir" və ya "əhya" gecəsi adlanır. Bayramın tarixi müsəlman təqvimi ilə hicrinin 2-ci ilindən (miladi 623-cü il) başlanır. Oruc Ramazan ayında tutulduğu üçün ona "Ramazan orucu" da deyirlər. İslamda ilin ayları arasında Ramazan ayı ən şəfaqətli və müqəddəs ay hesab edilir.**




# RAMAZAN – dünya müsəlmanlarının müqəddəs bayramı

Qədr gecəsi ilə bağlı müxtəlif rəvayətlər dolaşmaqdadır. Bu gecənin dəqiq hansı günə təsadüf etməsi bəlli deyil. Amma ümumi fikir belədir ki, qədr gecəsi Ramazan ayının son on gecəsindən biridir, həm də tək günün gecəsidir. İslamşünasların fikrincə, bu gecə Ramazan ayının 19, 21, 23, 25, 27-si gecələrindən biridir. Qurani-Kərimdə "Qədr surəsi" var. Bu surədə qədr gecəsi haqda belə yazılır: "Biz bu gecə həqiqətən qüdrət, əzəmət hədiyyə etmişik, bu gecə min aylardan da qüdrətlidir, mələklər aşağı enərək, Allahın əmrini gözləyirlər, bu gecə şəfəqin doğmasına qədər aləmdir, sübhdür".

Orucluq Ramazan ayında təzə ay çıxandan başlanır və 29-30 gün davam edir. Qurani-Kərimdə yazılır: "Sübh açılınca, ağ sap qara sapdan fərqlənməyincəyə qədər yeyib-için, sonra gecəyə kimi orucunuzu tamamlayın".

Qeyd: Müsəlmanlar ən mühüm ibadətlərini, o cümlədən orucu və həcci, Fitr və Qurban bayramlarını hicri-qəməri (Ay) təqviminə əsasən yerinə yetirirlər. Ayın isə Günəşə və Yerə nisbətən vəziyyətindən asılı olaraq müxtəlif səfhələri (ayın görünən xarici tərəflərindən hər biri) olur. Bu səfhələrdən biri də hilaldır, yəni təzə aydır. Qurani-Kərimdə deyilir: "(Ya Məhəmməd!) Səndən hilallar barədə soruşurlar. De: Bunlar insanlar və həcc üçün vaxt ölçüləridir".

Orucluq dövründə adam dünya ləzzətindən çəkinir, gündəlik fəaliyyətini davam etdirsə də, özünü Allaha ibadətə həsr edir, nəfsini təmiz saxlayır və bu vaxt şeytan onun qəlbinə yol tapa bilmir. Peyğəmbərimiz (s.ə.s.) buyurur ki, Ramazan ayı gələndə cənnətin qapıları açılar, cəhənnəmin qapıları bağlanar, şeytanlar da zəncirdə olar. Döyüşdə və ya əsirlikdə olduğuna görə oruc tutmayanlar sonra münasib bir vaxtda onun əvəzini (qəzasını) tutmalı və ya fidyə verməlidirlər.

Orucu qəsdən pozanlar isə onun əvəzini tutmaqla yanaşı, tövbə etməli və kəffarəsini ödəməlidirlər. Kəffarə isə 60 gün oruc tutmaq, yaxud 60 yoxsulu yedirtməkdir. 60 günlük kəffarə orucuna bir günlük qəza orucu da əlavə olunur. Orucluğun başa çatdığı gün fitr bayramı adlanır. Həmin gün bütün müsəlmanlar bir-birlərini təbrik edir, vəfat edənlərin qəbirlərini ziyarət edir, ruhlarına dualar oxuyurlar. Bayram günü hər kəs öz himayəsində olanlar üçün təqribən 3 kq buğda, yaxud xurma və ya kişmiş miqdarında kasıblar üçün fitrə zəkatı verməlidir. Orucluq insanlara öz iradələrini, dözümlülüyünü yoxlamaq imkanı verir, onları paklığa, xeyirxahlığa dəvət edir. "Qabusnamə"nin müəllifi Keykavus ibn İsgəndər oğluna nəsihət edərək yazır: "Ey oğul... bil və agah ol ki, Allah-Təalanın sənin ac və ya toxluğuna ehtiyacı yoxdur. Oruc Allah tərəfindən sənin var-dövlətinə və özünə vurulan möhürdən ibarətdir. Bu möhür mal və bədənin yalnız bir hissəsinə deyil, bəlkə, bütün üzvlərinə vurulur: əl-ayağa, gözə, dilə, qulağa, qarına. Ey oğul, bil və agah ol: orucluğun ən böyük məqsədi ondadır ki, sən gündüz yemədiyini ehtiyacı olanlara verəsən ki, zəhmətinin faydasını görmüş olasan, bu zəhmət ona görə lazımdır ki, onun xeyri ehtiyacı olana çatsın".

Ramazan bayramı İslam dinində mövcud olan ən böyük iki bayramdan biri, bəlkə də birincisidir. Bu bayram Ramazan ayının sona çatması münasibətilə Şəvval ayının birində qeyd edilir və dini mənbələrdə "Fitr bayramı" kimi də xatırlanır. Bayram günü İslam şəriətinə görə oruc tutmaq haramdır. Ramazan bayramına keçən gecə fitrə pulunu ayırıb həmin axşam, ya bayram namazına qədər, ya da gün ərzində öz təyinatı üzrə çatdırmaq lazımdır. Bayram namazına qədər fitrə pulunu çatdırmaq daha savab əməl hesab olunur.

Bayram günü səhər tezdən qüsl alınır, hava işıqlaşandan sonra isə bayram namazı qılınır. Bu namaz eynilə Qurban bayramında qılınan namaz kimidir. Bayram namazının məsciddə camaatla qılınması bəzi məzhəblərdə vacib, bəzisində isə müstəhəbdir. Amma bayram namazının imkan daxilində məsciddə camaatla qılınması tövsiyə olunur.

Bayram günü insanın ətirlənib təzə paltar geyinməsi, qohum-qonşularını təbrik etməsi, doğmalarına baş çəkməsi savabdır. Həmin gün qəbirləri ziyarət etmək, onları səliqə-sahmana salmaq, ölənlərin ruhlarına rəhmət diləmək, Fatihə, İxlas və Yasin surələrini oxumaq və ya oxutdurmaq ənənəyə çevrilmişdir.

Ramazan bayramına keçən gecəni ibadətdə keçirmək tövsiyə olunur. Həmin gecə də Qədr gecələri kimi oyaq qalıb çoxlu namaz qılmaq, dua, Allahı zikr etmək, "Qurani-Kərimi" oxumaq və s. kimi ibadətlərlə məşğul olmaq böyük savabdır. Çünki bu gecə də müqəddəs gecə hesab olunur.

Ramazan bayramı oruc tutub-tutmamasından asılı olmayaraq hər bir müsəlmanın bayramıdır. Bütün dünya müsəlmanları bu bayramı qeyd edirlər. Bəzi müsəlman ölkələrində bu bayram rəsmi şəkildə təntənəli surətdə keçirilir. Bu bayramı başqa bayramlardan fərqləndirən bir xüsusiyyət də bir ay boyunca gündüzlər ac-susuz qalıb, axşamlar ibadət edən və bu ibadətlərin çətinliklərinə dözən, Qədr gecələrində səhərə qədər oyaq qalıb ibadət edən müsəlmanların bu ayın tələblərindən irəli gələn məsuliyyətin başa çatmasından dolayı hiss etdikləri bir rahatlıq və arxayınlıq duyğusudur. Ramazan bayramının əsas üstünlüklərindən biri də bir ay boyunca insanın etdiyi əməlləri müqabilində mükafatlandırılacağına inamı və bu işin öhdəsindən gəldiyi üçün keçirdiyi sevinc hissidir.

Ramazan bayramı müsəlmanların birliyi və həmrəyliyi baxımından da önəmlidir. Bu bayramda müsəlmanlar bir-birini Ramazan ayını müvəffəqiyyətlə başa vurduqları üçün təbrik edirlər. Bu bayram münasibəti ilə nəinki sıravi müsəlmanlar, hətta dövlət başçıları da bir-birilərini təbrik edirlər. Bəzi müsəlman ölkələrinin dövlət başçıları digər müsəlman ölkələrindəki bayram tədbirlərinə qatılır və bir-birinə qarşı yüksək həmrəylik nümayiş etdirirlər.

Ramazan bayramının başqa bayramlardan bir fərqli xüsusiyyəti də onun milli deyil, ümumbəşəri əhəmiyyətə malik olmasıdır. Bu da bir ay boyunca pis əməllərdən çəkinərək oruc tutub ibadət edən hər bir müsəlmanın əməllərinin boşa getməməsi və mükafatlandırılması üçün Ramazan bayramının şərtlərindən biri kimi, tamamilə yoxsul həyatı yaşamayan hər bir kəsin müəyyən məbləğdə ac-yalavaclar (fəqirlər) üçün sədəqə ayırmasının vacibliyi əmrinə səmimi qəlbdən itaət etməsində özünü göstərir. Bu sədəqəyə də fitrə deyilir. Bu fitrə sədəqəsinin ayrılması və lazımi ünvana çatdırılması o qədər vacibdir ki, bu şərti yerinə yetirməyən müsəlmanın bir ay boyunca tutduğu oruc sual altına düşmüş olur.

Kasıblara sədəqə verilməsini İslam dini bu bayramda vacib saydığı kimi, adi günlərdə də bu təcrübədən yararlanmağı, kasıbların halına acıyaraq Allahın sənə vermiş olduğu ruzidən başqalarına da pay ayırmağı böyük savab və bundan başqa insaniyyət baxımından da xeyirli və ağıllı əməl kimi hər kəsə tövsiyə edir. Statistik məlumata görə, hər saat dünyada yüzlərlə adam aclıqdan həlak olur. Bu baxımdan İslam dininin, orucluğun, Qurban və Ramazan bayramlarının nəinki müsəlmanlar, bütün dünyadakı ac-yalavaclara yardım baxımından nə qədər böyük əhəmiyyət daşıdığı inkaredilməzdir.

Orucluq bayramı ölkəmizdə Milli Məclisin qəbul etdiyi 1992-ci il 27 oktyabr tarixli "Azərbaycan Respublikasının bayramları haqqında" Qanununa əsasən dövlət səviyyəsində qeyd olunmağa başladı. Amma bu, müharibə dövründə verilən və daha çox kağız üzərində qalan qərar idi. Mübarək Ramazan ayının qeyd olunması Ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı dövründə ənənəvi xarakter aldı. Dövlət başçısının iftar süfrəsində iştirakı ənənəsi Ulu öndərdən miras qalıb.

Maraqlı bir məqamı da qeyd edək ki, bu il Ramazan Bayramı Azərbaycanda keçirilən ilk Avropa Oyunları dövrünə təsadüf etdi. Bu həm də minlərlə əcnəbi qonağa ölkəmizdə bu müqəddəs bayramın qeyd olunmasını canlı şəkildə izləməyə imkan verdi. Qafqaz Müsəlmanları İdarəsinin I Avropa Oyunları ilə bağlı verdiyi fətvada deyilirdi: "Bu il orucluq I Avropa Oyunlarının gərgin yarışlar dönəminə təsadüf edir. Vətəni sevmək də imandandır, rəqabət meydanında güclü olmaq, vətənin şərəfini qoruyaraq bayrağını yüksəklərə qaldırmaq da iman göstəricisidir. I Avropa Oyunları qurur, şərəf və vicdan məsələsidir. Bu, eyni zamanda həm Azərbaycanın bütün dünyada tanınması, həm də İslamın yüksəlişi deməkdir. Bizim bayrağımızda İslamın rəmzi var. Orda Azərbaycan bayrağı qalxır, bu isə İslamın yüksəlməsi və ucalması deməkdir".

Ramazan Bayramında QMİ-nin belə fətva verməsinin özü Azərbaycanda dini və dünyəvi dəyərlərin dinc və yanaşı yaşamasının, Azərbaycan xalqının tolerantlığının və ölkəmizin mulikultural potensialının göstəricidir.

Ramazan bayramının ölkəmizdə dövlət səviyyəsində bayram kimi qeyd olunması həm də din-dövlət münasibətlərinin çox gözəl təzahürüdür. Azərbaycan Prezidenti İlham Əliyevin bildirdiyi kimi, bu, din-dövlət münasibətlərinin sağlam təməl üzərində formalaşmasının və inkişaf etməsinin bariz nümunəsidir. Azərbaycan bu baxımdan tolerantlıq anlamında bir model kimi bütün dünyaya nümunə ola bilər.



# Ramazan ayı haqqında

Ramazan Qəməri aylardan doqquzuncusunun adıdır. Bu ay müsəlmanların oruc tutmaqla mükəlləf olduqları, dinimizcə uca və müqəddəs qəbul edilən bir aydır. Ramazan, ərəbcədir. Bu mübarək aya Ramazan adının verilməsindəki hikmət belə ifadə olunub:

❶ Yaz sonunda, payız mövsümünün əvvəlində yağıb yer üzünü tozdan təmizləyən yağış mənasında "ramda" sözündən alınmışdır.
Bu yağışın yer üzünü təmizlədiyi kimi, Ramazan ayı da möminləri günahlardan təmizləyər. Necə ki bir hədis-i şərifdə Peyğəmbər Əfəndimiz (s.ə.s): "Kim inanaraq və alacağı savabı Allahdan gözləyərək Ramazan orucunu tutarsa, keçmiş günahları bağışlanar" (Buxari, Savm, VI) buyurub.

❷ Günəşin şiddətli hərarətindən daşların yanıb qızması mənasında olan "ramad" sözündən alınıb. Belə bir yerdə gedənin ayaqları yanar, zəhmət və məşəqqət çəkər. Bunun kimi oruc tutan kimsə də aclıq və susuzluğun hərarətinə dözər, məşəqqət çəkər, içi yanar. İsti torpaq orada gedənlərin ayaqlarını yandırdığı kimi, Ramazan da möminlərin günahlarını yandırar, yox edər.

Ramazan ayına "on bir ayın sultanı" deyilmişdir. Bu ayın xüsusiyyətlərini belə sıralaya bilərik:

❶ Qurani-Kərimdə adı açıq olaraq keçən tək ay Ramazan ayıdır.

❷ Qurani-Kərim bu ay içərisində endirilmişdir. Uca Rəbbimiz: "Ramazan ayı elə bir aydır ki, insanlara doğru yolu göstərən, hidayəti və haqqı batildən ayırmağı açıqlayan Quran, bu ayda endirildi" (əl-Bəqərə, 2/185) buyurmuşdur.

❸ Qurani-Kərimdə, "min aydan daha xeyirli" olduğu ifadə olunan Qədr gecəsi bu ay içərisindədir.

❹ Dinimizin beş təməlindən biri olan oruc ibadəti bu ayda üzərimizə fərz qılınmışdır. Qurani-Kərimdə; "Sizdən kim bu aya çatsa oruc tutsun" (əl-Bəqərə, 2/185) buyurular. Ramazan ayı girincə şərtlərini daşıyan kəslərə oruc fərz olar. Ramazan ayının girməsi iki vəziyyətdən biriylə sabit olar:
a) Ramazan ayparasının görülməsiylə (Ru'yet-i Aypara),
b) Aypara hər hansı bir səbəbdən ötəri görülə bilməzsə, Şaban ayı otuza tamamlanaraq Ramazan orucuna başlanar. Peyğəmbər (s.ə.s) bu mövzuda belə buyurmuşdur: "Ramazan ayının ayparasını görüncə oruc tutun (Şəvval ayının) ayparasını görüncə iftar edin, oruc tutmağı buraxın. Əgər göy üzü bağlıdırsa Şaban ayının günlərini otuza tamamlayın" (Buxari, Savm, 5,11)

❺ Fitrə sədəqəsi vermək bu aya məxsus bir ibadətdir

❻ Təravih namazı da bu aya məxsus ibadətlərimizdəndir. Əbu Hüreyrə (r.a)dan belə rəvayət edilmişdir: "Rəsulullah (s.a.s)ın Ramazan haqqında belə buyurduğunu eşitdim: Kim inanaraq və savabını ümid edərək Allah razılığı üçün təravih namazı etsə, keçmiş günahları bağışlanar" (Buxari, təravih, I)

❼ İtikafa girmək: Ramazan ayının son on günündə itikafa girmək sünnədir. Peyğəmbər (s.ə.s) Ramazanın son on günündə daha çox ibadət və taətdə olardı. Hz. Aişə anamızdan belə rəvayət edilmişdir: "Rəsulullah (s.ə.s) Ramazan ayının son on günü girincə əlini, ətəyini toplar, gecəni canlandırar və ev xalqını oyandırardı" (Buxari, Qədr, V) Yenə Hz. Aişədən (r.ə.) belə rəvayət edilmişdir: "Peyğəmbər (s.ə.s) Ramazanın son on günündə vəfatına qədər itikafa girdi".

❽ Ramazan ayında Qurani-Kərimi oxumaq, xeyir əməllər etməklə bağlı İbn Abbasdan (r.ə.) belə rəvayət edilmişdir: "Rəsulullah (s.ə.s) insanların ən comərdi idi.

Onun bu comərdliyi Ramazan ayı girib də özüylə Cəbrayıl (ə.s.) qarşılaşdığı zaman daha da artardı. Cəbrayıl (ə.s.) Ramazan ayı çıxana qədər hər gecə Rəsulullah (s.ə.s) ilə görüşür, Rəsulullah (s.ə.s) Quranı oxuyardı. Rəsulullah (s.ə.s) Cəbrayıl (ə.s) ilə görüşdüyündə insanlara rəhmət gətirən küləkdən daha comərd, daha faydalı olardı" (Buxari, Savm, 7).

Cabir b. Abdullah Rəsulullah (s.a.s)ın belə buyurduğunu rəvayət etmişdir: "Ümmətimə Ramazan ayında beş şey verilmişdir ki, bunlar məndən əvvəlki heç bir peyğəmbərə verilməmişdir":

❶ Ramazan ayının ilk gecəsi olunca Allah Təala ümmətimə (rəhmət baxışıyla) baxar. Allah hər kimə (rəhmət baxışıyla) baxsa ona əbədi olaraq əzab etməz.

❷ Gecə olduğu zaman ağızlarının qoxusu Allah qatında müşk qoxusundan daha gözəldir.

❸ Mələklər hər gün və gecə onlara istiğfar edərlər, Allahdan bağışlanmalarını diləyərlər.

❹ Allah Təala Cənnətinə əmr edib; "Qullarım üçün hazırlanıb bəzən. Onların dünya məşəqqətlərindən xilas olub, mənim yurduma və lütfkarlığıma istirahət üçün gəlmələri yaxınlaşdı" buyurar. Ubade b. əs-Samit (r.a)dan: Rəsulullah (s.ə.s) Ramazan ayının yeni girdiyi bir gün belə buyurdu: "Sizə bərəkət ayı Ramazan gəldi. Bu ayda Allah sizi əhatə edib rəhmətini endirər. Günahları bağışlayıb, duaları qəbul edər".

Allah oruc dualarınızı qəbul etsin!

**Cavid MUSAYEV**



# İmam Əlinin (ə) minacatı

**Bəşər üçün dünyada ən çətin məsələlərdən biri xaliqi ilə layiqli ünsiyyət qurmaqdır. Təbii ki, nöqsanlara bürünmüş məxluqun Mükəmməl və Ali varlıqla münasibət qura bilməməsi onun digər nöqsanlarından biridir. Peyğəmbər (s) həzrətləri və Əhli-beyt (ə) izzət və əzəmət sahibi, Ulu Tanrı ilə necə münasibət qurmağı, Allah-Təalanın hüzurunda ədəbə necə riayət etməyi və Onunla necə danışıb və nə istəməyi öz sözləri, duaları və davranışları ilə müsəlmanlara öyrətmişlər. Hz. Mühəmməd (s) və digər məsumlardan (ə) nəql olmuş çox sayda dua və minacatların mahiyyəti tamamilə bu məsələnin göstəricisidir. Çox dəyərli "Kumeyl", "Məkarim-ul-əxlaq", "Əbu Həmzə Sümali", "Cövşən Kəbir", "Cameə Kəbirə" və sair duaların sırasında Həzrət Əlinin (ə) Kufə məscidində oxuduğu minacatı Allah-Təalanın uca məqamını tanıtmaqla yanaşı, insana bəndəlik tərzini öyrədir. Hz. Əmirəl-möminin İmam Əlinin (ə) dili ilə öz Rəbbi və Sahibi ilə danışmağı arzulayan hörmətli oxuculara bu minacatın Azərbaycan dilində tərcüməsini təqdim edirik.**

- Ey mənim mövlam və vəlim! Sənsən ruzi verən, mən isə ruzi uman, bəs, ruzi umana ruzi verəndən başqa kim rəhm edər?!
- Ey mənim mövlam və vəlim! Sənsən səxavətli, mən isə əsirgəyən (simic), bəs, əsirgəyənə səxavətlidən başqa kim rəhm edər?!
- Ey mənim mövlam və vəlim! Sənsən dada yetən, mən isə dara düşən, bəs, dara düşənə dada yetəndən başqa kim rəhm edər?!

Bağışlayan və mehriban Allahın adı ilə!

- İlahi, mən "yalnız sağlam qəlblə Allahın hüzuruna gələn kimsədən (möminlərdən) başqa, mal-dövlət və övladın heç kimə fayda vermədiyi gün" – Səndən aman diləyirəm!
- İlahi, mən "zalımların əllərini çeynəyərək- "Kaş ki, Peyğəmbərə qoşulub doğru yol tutardım!- dediyi gün" – Səndən aman diləyirəm!
- İlahi, mən "günahkarların simalarından tanınacağı, alınları və ayaqlarından tutulub yaxalanacağı gün" – Səndən aman diləyirəm!
- İlahi, mən "atanın oğluna, oğulun da ataya heç bir şeylə kara gələ bilməyəcəyi və Allahın vədinin (qiyamətin) hökmən olacağı gün" – Səndən aman diləyirəm!
- İlahi, mən "zalımlara üzrxahlıqları heç bir fayda verməyəcəyi, onların lənətlənəcəyi və axirət yurdunun pis əzabına düçar olacağı gün" – Səndən aman diləyirəm!
- İlahi, mən "heç kəs başqasının karına gələ bilməyəcəyi və hökmün ancaq Allaha məxsus olacağı gün" – Səndən aman diləyirəm!
- İlahi, mən "hər kəsin öz qardaşından, anasından, atasından, zövcəsindən və oğullarından qaçacağı və hərənin öz hayında olacağı gün" – Səndən aman diləyirəm!
- İlahi, mən "əzabın şiddətindən günahkar bəndənin öz oğullarını, zövcəsini və qardaşını, ona sığınacaq verən qohum-əqrəbasını və yer üzündə olanların hamısını fəda etməyə razı olub, (Allahın əzabından) qurtulmaq istədiyi və xeyr (bunun mümkün olmadığı), artıq (Cəhənnəmin) alovlandığı, başların dərisini sıyırıb ayırdığı gün" – Səndən aman diləyirəm!
- Ey mənim mövlam və vəlim! Sənsən ağa, mən isə qul, bəs, qula ağadan başqa kim rəhm edər?!
- Ey mənim mövlam və vəlim! Sənsən sahib, mən isə nökər, bəs, nökərə sahibdən başqa kim rəhm edər?!
- Ey mənim mövlam və vəlim! Sənsən izzətli, mən isə zəlil, bəs, zəlilə izzətlidən başqa kim rəhm edər?!
- Ey mənim mövlam və vəlim! Sənsən xaliq, mən isə məxluq, bəs, məxluqa xaliqdən başqa kim rəhm edər?!
- Ey mənim mövlam və vəlim! Sənsən əzəmətli, mən isə aciz, bəs, acizə əzəmətlidən başqa kim rəhm edər?!
- Ey mənim mövlam və vəlim! Sənsən qüdrətli, mən isə zəif, bəs, zəifə qüdrətlidən başqa kim rəhm edər?!
- Ey mənim mövlam və vəlim! Sənsən varlı, mən isə yoxsul, bəs, yoxsula varlıdan başqa kim rəhm edər?!
- Ey mənim mövlam və vəlim! Sənsən əta edən (əliaçıq), mən isə əlaçan (dilənçi), bəs, əlaçana əta edəndən başqa kim rəhm edər?!
- Ey mənim mövlam və vəlim! Sənsən diri, mən isə ölü, bəs, ölüyə diridən başqa kim rəhm edər?!
- Ey mənim mövlam və vəlim! Sənsən əbədi, mən isə fani, bəs, faniyə əbədidən başqa kim rəhm edər?!
- Ey mənim mövlam və vəlim! Sənsən daimi, mən isə məhv olan, bəs, məhv olana daimidən başqa kim rəhm edər?!
- Ey mənim mövlam və vəlim! Sənsən böyük, mən isə kiçik, bəs, kiçiyə böyükdən başqa kim rəhm edər?!
- Ey mənim mövlam və vəlim! Sənsən hidayət edən, mən isə yolunu azmış, bəs, yolunu azmışa hidayət edəndən başqa kim rəhm edər?!
- Ey mənim mövlam və vəlim! Sənsən mərhəmətli, mən isə sığınan, bəs, sığınana mərhəmətlidən başqa kim rəhm edər?!
- Ey mənim mövlam və vəlim! Sənsən soltan, mən isə bəlalarla imtahan olunan, bəs, bəlalarla imtahan olunana soltandan başqa kim rəhm edər?!
- Ey mənim mövlam və vəlim! Sənsən bələdçi, mən isə sərgərdan, bəs, sərgərdana bələdçidən başqa kim rəhm edər?!
- Ey mənim mövlam və vəlim! Sənsən bağışlayan, mən isə günahkar, bəs, günahkara bağışlayandan başqa kim rəhm edər?!
- Ey mənim mövlam və vəlim! Sənsən qalib, mən isə məğlub, bəs, məğluba qalibdən başqa kim rəhm edər?!
- Ey mənim mövlam və vəlim! Sənsən rəbb, mən isə bəndə, bəs, bəndəyə rəbbdən başqa kim rəhm edər?!
- Ey mənim mövlam və vəlim! Sənsən möhtəşəm, mən isə zəlil, bəs, zəlilə möhtəşəmdən başqa kim rəhm edər?!
- Ey mənim mövlam və vəlim! Rəhmətinlə mənə mərhəmət et, bəxşiş, kərəm və fəzlinlə mənə güzəştə get!
- Ey bəxşiş, ehsan, nemət və bərəkət sahibi, Səni öz rəhmətinə and verirəm, ey rəhmlilərin ən rəhmlisi!

Aydın YOL
N 27(36) 17.07.2015


# Naxçıvan zərbxanasının Azərbaycanın tarixində yeri və əhəmiyyəti

**Azərbaycanın ən qədim şəhərlərindən olan Naxçıvanda fəaliyyət göstərən zərbxana öz “məhsullarını” dünya pul sistemində və sikkə işində hələ erkən orta əsrlərdən tanıdıb. Belə ki, Sasanilər dövründə üzərində “Nax” və yaxud “Naxç” yer adları pəhləvi əlifbası ilə göstərilən gümüş draxmalar XIX əsrin I yarısından etibarən dünya numizmatika elmində qəbul edilmişdi. Bu sikkələr imperiyanın bir çox ərazilərində tamhüquqlu, yəni mərkəzləşmiş dövlət tərəfindən zərbinə və dövriyyəsinə icazə verilən, ikonoqrafik və metroloji baxımdan qəbul edilən standartlara tam uyğun olan draxmalardır. Dünya alimlərinin Sasani sikkələri ilə bağlı apardıqları təxminən 200 illik araşdırmalarda bu günə qədər də müəyyən mübahisələr doğuran məsələlər var. Bu sıradan bəzi “alimlər” “Nax” və “Naxç” adlı zərbxananın, ümumiyyətlə, Naxçıvana aid olmadığını iddia edirlər. Amma bu iddianın heç bir elmi əsası yoxdur. Hətta bu yer adının Şərq ölkələrində digər analogiyası olmadığını bilərək, toponimin harada yerləşdiyini belə göstərmirlər.**

Naxçıvan zərbxanasının ilk gümüş sikkələrinin Sasani hökmdarı I Xosrov tərəfindən (531-579) hakimiyyətinin 1-ci, 4-cü illərində, II Xosrov (590-628) tərəfindən hakimiyyətinin 9-cu və 27-ci illərində zərb edilməsi haqqında ilk məlumatlar Y.A.Paxomov tərəfindən çap edilib. Bu sikkələr müasir Ermənistanın Leninakan şəhərində keçən əsrin ortalarında bir dəfinənin tərkibində aşkar edilib. Alimin araşdırmalarına əsasən, həmin dəfinədə olan sikkələrin 4,8%-i məhz Naxçıvanda zərb edilib. Maraqlıdır ki, Y.A.Paxomov dəfinənin əsas kütləsinin Cənubi Qafqazda deyil, başqa yerlərdən gətirilərək yığıldığını və bu proses zamanı ehtimal ki, Naxçıvan zərbxanasının yerli məhsullarının da onlara əlavə edildiyini qeyd edir. Naxçıvan zərbxanasının, demək olar ki, VI əsrdən başlayaraq XIX əsrin birinci yarısına qədər kiçik fasilələrlə fəaliyyət göstərməsi haqqında dünya numizmatik elmi ədəbiyyatında kifayət qədər geniş məlumat var. Bu baxımdan xüsusi olaraq Rusiya alimlərinin XIX-XX əsrin əvvəllərində apardıqları Azərbaycan arxeologiyası ilə bağlı araşdırmaları qeyd etmək lazımdır. Rusiyada Şərq numizmatikasının əsasını qoyan görkəmli alim-numizmatlardan A.Markov öz əsərlərində Naxçıvanda zərb edilən və dünyanın bir çox yerlərində aşkar edilən sikkələr haqqında geniş təhlil verməsə də, onun qısa məlumatları bu gün Azərbaycan numizmatikası, eləcə də dövlətçiliyi tarixinin öyrənilməsi üçün kifayət qədər əvəzedilməz dəyərə malikdir. Bu zərbxananın eramızın I minilliyinə aid olan nümunələri, alimlərin fikrincə, dünya pul sistemində həmin dövrün sikkələrindən heç nə ilə fərqlənmir. Bu isə bir daha Naxçıvanın ən qədim zamanlardan geosiyasi və geostrateji baxımdan çox vacib bir məkan olması, dövlətçiliyimiz tarixində mühüm yer tutması, tarixin ayrı-ayrı dönəmlərində, siyasi hadisələrin gedişində Azərbaycan işğal edildikdə məhz ilk növbədə Naxçıvanın tanınması, ona önəm verilməsi pul zərbi işində də öz əksini tapıb. Nəzərə alaq ki, dünyanın siyasi və iqtisadi tarixində ticarət yolları və onların istiqamətləri həmişə geosiyasətdə və geostrategiyada, mədəniyyətlərin assimilyasiyasında və yayılmasında əsas yer tutur. Naxçıvanın yerləşdiyi ərazi həmişə digər xalqların, xüsusilə, işğalçıların diqqət mərkəzində olub.

Numizmatik baxımdan, hər hansı bir ölkənin işğalı prosesinin başlanması və sona çatması məsələsində sikkə zərbi işi həmişə birinci yerdə durub. Görünür, bu səbəbdəndir ki, dünyanın ən qədim imperiyalarından biri olan Sasanilər də Azərbaycanı işğal edərkən və bu işğalı sona yetirərkən orada dövlətçiliyin ilk atributunu, yəni sikkə zərbi hüququnu digər Azərbaycan şəhərlərindən əvvəl Naxçıvana vermişdilər. Müqayisə üçün qeyd etmək olar ki, Baqavandan (Bakı), Partavdan (Bərdə) və digər Azərbaycan şəhərlərindən bir neçə il əvvəl, Sasani hökmdarı I Xosrov pul zərbi işini məhz Naxçıvanda başlamışdı.



Ümumiyyətlə, numizmatik təhlillər nəticəsində Naxçıvanda zərb edilən ayrı-ayrı dövrlərə aid sikkələr bəzi vaxtlarda çox maraqlı və təkraredilməz faktlar üzə çıxarır. Bu qəbildən İran alimi S.C.Təbatəbai “İslam sikkələri” adlı əsərində Naxçıvan şəhərinin zərbxanasının XIV əsrə aid çox maraqlı sikkəsi haqqında məlumat verib. Burada Naxçıvanda Məhəmməd Xudabəndə Olcaytu İlxaninin adından zərb edilmiş bir qrup mis və gümüş sikkələr haqqında elmi təsvirdə Naxçıvanın adı “Naxvana” kimi oxunub. “Naxvana” etimoloji tərcümədə nax tayfalarının yaşadığı məkan kimi qəbul edilir.

Digər bir fakt budur ki, həmin sikkələrin üzərində rəsmi dövlət dininin şiəlik olduğunu göstərən “müsəlman” kəlməsi ilə bərabər, 12 İmamın adı zərb edilib. Müəllifin fikrinə görə, Azərbaycanda Səfəvilərdən öncə məhz Olcaytu sultan qısa müddətdə şiəliyi dövlət dini səviyyəsinə qaldırmaq üçün cəhd göstərib və bunu sübut edən az miqdarda sikkələr Azərbaycan ərazisində - Naxçıvanda zərb edilərək, dövriyyəyə buraxılıb. Bu fakt öz-özlüyündə Hülakilər dövründə hansısa dini-siyasi səbəblərdən, ehtimal ki, sufi təriqətinin Ərdəbildən digər ölkələrə yayılmasının təsiri altında məhz Naxçıvanda bu cür “cəsarətli və inqilabi” addım atılıb. Olcaytu sultanın hakimiyyəti illərində Naxçıvan paytaxt statusu daşımırdı.

Buna baxmayaraq, Azərbaycanın Hülakilər dövründə ikinci mədəni və iqtisadi mərkəzi olan Naxçıvanda bu sikkələrin zərb edilməsi həqiqətən buranın bütün imperiya üçün çox vacib bir yer olmasını sübut edir. Digər maraqlı faktlardan biri də budur ki, S.C.Təbatəbainin əsərində Naxçıvanda ayrı-ayrı illərdə elmə adı o qədər də məlum olmayan və hələ də hakimiyyətdə olmuş hökmdar kimi qəbul edilməyən Elxanilərdən Əhməd Təkudarın adından hicri 671, 673-cü illərdə Naxçıvanda zərb edilmiş iki ədəd gümüş dirhəm haqqında məlumat var. Göstərdiyimiz hər iki numizmatik fakt ayrı-ayrı zamanlarda böyük imperiyaların hakim dairələrinin Naxçıvana xüsusi yer vermələri, Azərbaycan məsələsi ortada olanda bir çox mütərəqqi addımlar, bəzi hallarda qeyri-adi islahatlar üçün buranı seçmələri bir daha sübut edir ki, Naxçıvan Azərbaycanın ən önəmli yerlərindən biri olub.

Əmir Teymurun həm Azərbaycana bütövlükdə, həm də Naxçıvana (o cümlədən, Əlincə qalasına) nə qədər önəm verməsi tarixdən məlumdur. O, işğalları zamanı və Teymurilər imperiyasını yaradarkən heç yerdə 14 il müharibə aparmayıb. İstisna yalnız Naxçıvan ərazisidir. Bu barədə, yəni Əlincə qalasını Əmir Teymurun 14 il müddətində mühasirədə saxlaması və sonda boş bir əraziyə kinayəli şəkildə daxil olması, bununla da onun qələbəsinin “Pirrin qələbəsi” qədər məğlubiyyətə bərabər olması faktları hökmdarın öz tarixçiləri tərəfindən qeyd edilmişdi. Buna baxmayaraq, Əmir Teymurun davamlı olaraq Naxçıvanın adından zərb etdirdiyi gümüş təngə və mirilərdən bütün imperiyada istifadə edilib.

Naxçıvan zərbxanasının ən məhsuldar və intensiv iş prosesi Atabəylər-Eldəgizlər dövrünə təsadüf edir. Belə ki, XI-XIII əsrin əvvəllərində bütöv Azərbaycan ərazisində dövriyyədə iki böyük dövlətin sikkələrindən istifadə edilib. Bunlardan, faiz nisbəti ilə götürdükdə, birinci yerdə Atabəylər-Eldəgizlər, ikinci yerdə Şirvanşahlar dövlətinin bilon-kredit dirhəmləri durur. Hər iki dövlətin sikkələri Səlcuqlar imperiyasında Qafqazda, Orta Asiyada, Anadoluda zaman-zaman dövriyyədə olub. Atabəylər-Eldəgizlər dövlətinin hakimiyyəti zamanı kredit dirhəmlər, əsasən, Naxçıvanda zərb edilib. Metroloji baxımdan eyni dövrdə işlənən Atabəylər dövlətinin sikkələri nisbətən mükəmməl olaraq, demək olar ki, ya dördkünc, ya da dairəvi formada olurdular. Şirvanşahların eyni tərkibli bilon sikkələri tamamilə fərqlidir. Belə ki, bu sikkələr bir-birini təkrar etməyən formalarda olaraq, standart çəki nisbətinə məruz qalmayıblar. Buna baxmayaraq, hər iki dövlət arasında iqtisadi münasibətlərdə belə sikkələrdən kifayət qədər istifadə edilib. Bu faktı həm tarixi Şirvanşahlar dövləti ərazisindən aşkar edilən, Atabəylərin adından zərb edilən sikkələr, həm də əksinə, Atabəylər dövlətinin ərazisindən aşkar edilən sikkələr sübut edir.

Naxçıvan zərbxanasının sonuncu sikkələri xanlıq dövründə buraxılıb. Digər xanlıqların mis fuluslarından köklü şəkildə fərqlənməyən bu cür pul nominallarından daha çox elə Naxçıvanın daxili bazarlarında istifadə edilib. Numizmatik materiallara əsasən, Naxçıvanın və onun zərbxanasının Azərbaycanın dövlətçilik tarixində özünəməxsus yeri var. Bu zərbxana tariximizin bütün sınaqlarından çıxıb, intensiv olaraq çalışıb və demək olar ki, ölkəmizin ən vacib, gərgin vaxtlarında xalqın dəyər vahidlərinə olan ehtiyaclarını ödəyib.

**Qənirə PİRQULİYEVA**
**İçərişəhər Dövlət Tarix-Memarlıq Qoruq İdarəsinin əməkdaşı**



# I Avropa Oyunlarının xoşbəxt anları fotolarda

**❍ "Kiçik QalArt" qalereyasında birinci Avropa Oyunlarına həsr olunmuş "Bakı-2015: Xoşbəxt anlar" adlı fotosərgi açılıb.**

AzərTAc xəbər verir ki, sərgi "Arts Council Azerbaijan" ("Azərbaycan İncəsənət Konsulluğu") və birinci Avropa Oyunlarının rəsmi tərəfdaşı olan "Azərbaycan Coca-Cola Bottlers" şirkətinin təşəbbüsü və Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə təşkil edilib.

Açılış mərasimində çıxış edən "Arts Council Azerbaijan"ın rəhbəri Dadaş Məmmədov və "Coca-Cola" şirkətinin nümayəndəsi Qabil Əhmədov sərgi barədə məlumat veriblər.

Bildirilib ki, sərgidə iyunun 16-dan 30-dək keçirilmiş fotomüsabiqədə seçilmiş fotolar nümayiş olunur. Bu fotolar oyunlar zamanı yaşanan ən xoşbəxt anları və emosiyaları, o cümlədən insanların Oyunlar zamanı keçirdikləri sevinc anlarını, "Coca-Cola" brendindən istifadə, "Coca-Cola"nı içərkən sevinc və şadlığı, idmançıların və azarkeşlərin sevincini, qələbə anlarını və müxtəlif hissləri əks etdirir.

Tədbirdə, həmçinin fotomüsabiqənin qalibləri mükafatlandırılıb. Birinci yeri "Qürurverici hisslər" fotosuna görə Rüstəm İsmayılov qazanıb. Fotoda paralimpiyaçı cüdoçu, "Bakı-2015"in qızıl medalçısı İlham Zəkiyevin ölkəmizin başçısı ilə qələbə sevincini bölüşdüyü an əks olunub. İkinci yerə birinci Avropa Oyunlarında yunan-Roma güləşi üzrə çempion Rəsul Çunayevin qələbə qazandıqdan sonra Prezident İlham Əliyevə əsgər salamı verdiyi məqamın təsvir olunduğu "Tapşırıq yerinə yetirildi" adlı fotoya görə Bakı Media Mərkəzinin əməkdaşı Vüqar İbadov layiq görülüb. Üçüncü yer isə 2 nəfər - "Əhsən qızlar" fotosuna görə Bəkir Dəlləkov və "Bakı 2015" fotosuna görə Mirsadıq Hüseynov layiq görülüblər. Qaliblərə diplomlar və xatirə hədiyyələr təqdim edilib.

Müsabiqədə seçilmiş 50-ə yaxın fotonun nümayiş olunduğu sərgi iyulun 22-dək davam edəcək.



# Vaqif Sadıqov: "Nəzərə almaq lazımdır ki, futbol həyatı çox qısadır"

**Atalar və oğullar mövzusu bəşər övladının yaranışından mövcud olub. Bu məsələ məişətdən tutmuş elmin, sənətin müxtəlif sahələrində də zaman-zaman bəzən yumşaq, bəzən isə çox sərt formada ifadə olunan fikir ayrılıqları, yaxud oxşarlıqları şəklində təzahür edib.**

**Elə biz də rubrikamızda bu məsələlərə toxunmağa, yaşlı və gənc nəsli təmsil edən sənət adamlarını sözün yaxşı mənasında üz-üzə qoymağa, onların müxtəlif hadisələrə yanaşmalarını aydınlaşdırmağa və bu yanaşmaları sizlərə təqdim etməyə çalışacağıq.**

**"Atalar-oğullar" rubrikasının budəfəki qonaqları futbolçular Vaqif Sadıqov və Kamran Ağayevdir.**

**Vaqif Sadıqov 1959-cu ildə anadan olub. Futbolçu karyerasının ən yaxşı illərini "Neftçi"də keçirən Sadıqov 1981-87, 1989-cu illərdə "ağ-qaralar"ın şərəfini qoruyub. Keçmiş yarımmüdafiəçi bu komandanın heyətində SSRİ çempionatının güclülər dəstəsində 92 (2 qol), birinci liqada 23 oyun keçirib. Məşqçiliyə elə bu komandada başlayıb və işi uğurlu alınıb. "Neftçi" 1994 və 1995-ci illərdə məhz onun rəhbərliyi altında ardıcıl iki dəfə ölkə kubokunu qazanıb. Sadıqov 34 yaşında buna nail olmaqla, futbol tariximizdə rekorda imza atıb. "Neftçi" avrokuboklarda məhz onun rəhbərliyi altında debüt edib. Klublarımızdan avrokuboklarda ilk xalını qazanan məhz Sadıqovun "Neftçi"si olub.**

**Məşqçilik karyerasının əsas hissəsi milli komanda ilə bağlı olan Sadıqov demək olar bütün yığmalarda çalışıb. O, milli komandamızın üç dəfə baş məşqçisi olmaqla, rekorda imza atıb.**

**Dörd ay öncə milli komandamızda məşqçi postunda Elxan Abdullayevi əvəzləyən Sadıqov bu müddətdə almaniyalı baş məşqçi Berti Foqtsun köməkçisi olub. O, hazırda AFFA-nın Məşqçilər Komitəsinin rəhbəridir.**

**- Ötən illərlə müqayisədə bu gün Azərbaycan futbolunun durumunu necə qiymətləndirirsiniz?**

**Vaqif Sadıqov:** Ölkəmizdə futbolun inkişafı üçün lazım olan bütün şərait yaradılıb. İnfrastruktur dəyişir, stadionlar tikilir, uşaq futboluna diqqət ayılır. Futbolla bağlı onillik dövlət proqramının qəbul olunması da dövlətimizin futbola göstərdiyi qayğının nəticəsidir. Hazırda AFFA da bu istiqamətdə bir çox layihələr həyata keçirir. Bütün bunlar tezliklə Azərbaycan futbolunun Avropada öz sözünü deyə bilməsi üçün edilir. İnkişaf göz qabağındadır, bunu pafos naminə demirəm. Təsəvvür edin, əvvəllər təlim-məşq toplanışı ildə cəmi bir dəfə keçirilirdisə, bu gün aşağı yaş qrupundan başlamış, milli komandaya qədər ayda bir neçə dəfə planlı şəkildə bir araya gəlib, məşq toplanışına yığışırlar. Ayrı-ayrı tanınmış mütəxəssislər klublara və milliyə cəlb olunur. Bundan başqa, AFFA tərəfindən həyata keçirilən layihədə - klublara əcnəbi idman direktorları təyin edilir. Yəni ayrı-ayrı futbol məktəblərinin nümayəndələrini dəvət etməklə futbolumuzu zənginləşdirməyə çalışırıq. Məsələn, "Neftçi" klubunda idman direktoru hollandiyalı mütəxəssisdir. Yəni o, uşaq futbolundan tutmuş, hər şeyə cavahdehdir, vəzifəsi sistemi bərpa etmək və formalaşdırmaqdır. Klublarımıza Almaniya, Türkiyə, Hollandiya, Ukrayna və başqa ölkələrdən mütəxəssislər cəlb olunub. Yəni, futbolumuzu yüksək səviyyəyə qaldırmaq üçün işlər görülür. Hesab edirəm ki, bu işlərə dəstək vermək lazımdır və bunlar tezliklə öz bəhrəsini verəcək - futbolumuz tələb olunan səviyyəyə qalxacaq və onun uğurları hər birimizi sevindirəcək.

**Kamran Ağayev:** Biz bu işin içərisindəyik, bu işlə məşğuluq. Öyrənə-öyrənə gəlirik. Məsələn, məndən soruşanda heç vaxt deməmişəm ki, 20 ildir futbola əmək sərf etmişəm, sadəcə, deyirəm ki, 20 ildir idmanla məşğulam. Yəni biz öz işimizi görürük, öhdəmizə düşəni edirik və çalışırıq ki, futbolumuz daha yaxşı səviyyədə olsun.

**- Futbolçularımızın fiziki və psixoloji hazırlığı barədə nə deyə bilərsiniz?**

**V.S.:** Bütün bunlar bir-birinə bağlı məsələlərdir. Bundan əvvəl milli komandada çalışan insan kimi deyirdim ki, futbolçularımızın fiziki hazırlığı zəifdir, altmış dəqiqədən sonra yorulurlar. Hesab edirəm ki, bu gün belə söyləmək olmaz. Bayaq təlim-məşq toplanışlarının sayının artmasından danışdım. Bu da istər-istəməz fiziki hazırlığa müsbət təsir göstərir. Təbii ki, fiziki hazırlıq yüksək səviyyəyə qalxdıqca, nəticə də yaxşılaşır. Psixoloji durum da ona uyğun şəkildə yüksəlir. Heç uzağa getməyək, bu yaxınlarda milli komanda ilə birgə Norveç səfərində idim. Orada bizim komanda çox inamlı təsir bağışladı, oyunda hesab bərabər oldu. Futbolçuların əksəriyyətini tanıyıram, onlarla fərdi söhbətlərimdə deyirlər ki, Robert Prosineçkinin gəlişi müsbət nəticələr verir, o, bizə psixoloji cəhətdən çox inamlı oynamağa yardım edir, nə rəqibdən, nə də əcnəbi meydançada oynamaqdan çəkinirik, öz oyunumuzu göstərməyə çalışırıq. Yəni hesab edirəm ki, bu gün milli komandanın baş məşqçisi futbolçulara yaxşı mənada psixoloji hazırlıq keçir. Hərdən indiki vaxtı öz fəaliyyət dövrümlə müqayisə edirəm, görürəm ki, o zaman bizim futbolçular psixoloji cəhətdən rəqibdən çəkinirdilər. O vaxt biz Avropada müstəqil bir ölkə kimi ilk addımlarımızı atırdıq. Bu gün isə tamamilə yeni bir nəsil formalaşır. Aşağı yaş qruplarından başlayaraq bütün komandalarda məşqçilər futbolçuların özünəinamının qeydinə qalırlar, onları uğur qazana biləcəklərinə inandırırlar. Bu uğuru qazanmaq üçün onlara rəhbərlik tərəfindən də bütün lazımi şərait yaradılır. Bunu biz hiss edirik. Bu gün Avropada seçilən bir neçə komanda var, onlardan biri də İspaniya yığmasıdır. Amma təxminən bir ay öncə Qazaxıstanın Prezident Kubokunun oyunlarında iştirak edən yığmamız finala vəsiqə qazandı və güclü ispan yığması ilə görüşdü. Əsas vaxt heç-heçə bitdi, biz yalnız oyundan sonrakı 11 metrlik zərbələrdə məğlub olduq. Söhbət ən kiçik yaş qrupundan gedir. Bu da onu göstərir ki, bu gün bizim futbolçular ispanlardan da, digər ölkələrin yığmalarından da çəkinmirlər. Bu oyunçuları biz planlı şəkildə hazırlayıb fiziki, texniki, taktiki və psixoloji cəhətdən o səviyyəyə çatdırmalıyıq ki, onlar birinci yığmaya gələndə əsl futbolçu kimi formalaşsınlar.

**K.A.:** Düşünürəm ki, insanın ilk növbədə öz hazırlığı və ən başlıcası, xarakteri olmalıdır. Belə götürəndə həyatın özü də bir idmandır. İnsan öz işində məsuliyyətli olmalıdır və özünü hazırlamalıdır. Hər kəs özünü həyata hazırlayır, səhv etmək istəmir, bu da elə bir şeydir. O ki qaldı ümumiləşdirməyə, bu, fərdi məsələdir, hərənin bir xarakteri var və hər kəs öz adından danışa bilər. Amma düşünürəm ki, futbolçularımız öz üzərlərində çalışırlar.

**- Futbolda azarkeş dəstəyi mühüm məqamdır. Bizim azarkeşlərin səviyyəsi sizi qane edirmi?**

**V.S.:** Yenə də çox uzağa getmək lazım deyil, "Qarabağ"ımızın Avropa liqasında hər çıxışı zamanı Tofiq Bəhramov adına stadion ağzına qədər dolu olur. Hamımız "Qarabağ"a dəstək veririk. Bu onu göstərir ki, bizim azarkeş futbolu sevir və həmişə yanımızdadır. Düzdür, qeyd etməliyəm ki, milli çempionatlarda azarkeş azlığı oyunların gedişinə təsirsiz ötüşmür. Amma millimiz də Avropa çempionatında çıxış edəndə azarkeşlər həmişə futbolçularımıza dəstək olurlar. İnanıram ki, bundan sonra da belə olacaq.



**Kamran Ağayev 1986-cı ildə anadan olub.**
**Müxtəlif klublarda - "Şəfa", "Turan" və "Xəzər Lənkəran" klublarında oynayıb.**
**Karyerasında uğurlara 2006-cı ildə "Xəzər-Lənkəran" komandasında çalışdıqdan sonra imza atıb. Komanda elə həmin mövsümün Azərbaycan çempionluğu və kubokunu qazanıb.**
**2008-ci ildə bu qələbələrin davamı olaraq "Xəzər-Lənkəran" komandası yenidən Azərbaycan kubokunun sahibi olub. Bundan başqa, komanda Kamran Ağayevin də oynadığı heyətlə 2008-ci ildə MDB və Baltikyanı ölkələrin futbol üzrə 16-cı beynəlxalq turnirinin qalibi olub.**
**K.Ağayev 17, 19 və 21 yaşlılardan ibarət yığma komandalara vaxtaşırı olaraq dəvət alıb və meydana kapitan kimi çıxıb.**
**2008-ci ilin ən yaxşı futbolçusu seçilib.**
**2015-ci ilin fevralında Türkiyə 1-ci Liqa təmsilçisi Kayserispor FK-ya 2,5 illik transfer olub.**
**Hazırda da milli komandamızın qapıçısıdır.**

# Kamran Ağayev: "Belə götürəndə, həyatın özü də bir idmandır"

**K.A:** Biz istəyirik ki, azarkeş stadiona gəlsin, oyuna baxsın. Amma hərdən elə məqamlarla rastlaşırıq ki... Çalışıram belə hallara normal yanaşam.

**- Futbolçu üçün hansı daha qürurvericidir: yerli, milli, yoxsa əcnəbi komandada oynamaq?**

**V.S.:** Futbolçu bunların hamısında oynamalıdır, amma əlbəttə ki, ən şərəflisi milli komandada oynamaqdır. Milli komandaya dəvət almaq üçün isə futbolçu özünü klubda yaxşı göstərməlidir. Yaxşı oyun nümayiş etdirən futbolçu mütləq milli komandaya dəvət alır. Yəni burada istər-istəməz zəncirvari bağlılıq var. Məsələn, bunu da çox istərdik ki, hər bir futbolçumuz legioner həyatı yaşasın, ayrı-ayrı ölkələrdə çıxış edib Azərbaycanı təbliğ etsin.

**K.A.:** Heç bir futbolçu "millidə oynamıram" söhbətini edə bilməz. Əgər bir ölkənin suyunu içib çörəyini yemisənsə, orada oynamaq da sənin üçün qürurverici olmalıdır. Əlbəttə, xaricdə yaxşı nəticə göstərmək özü də Vətənin adını ucalara qaldırmaqdır. Amma nə yerli klubda, nə millidə, nə də əcnəbi komandada oynamaq asandır. Yəni hamısı çətin və şərəflidir.

**- Necə hesab edirsiniz, bu gün Azərbaycan futbolunun problemi nədir? Bizə bu sahədə inkişaf etməyə və arzuolunan uğuru qazanmağa nə mane olur?**

**V.S.:** Vaxt vardı məşq etməyə yer tapa bilmirdik. Bəzən iki-üç nəfər bir otaqda qalmalı olurduq. Maddi durum ürəkaçan deyildi. Hazırda futbolçular üçün gözəl stadionlar var, təlim-məşq bazaları tikilir, futbolçuların nəinki pulla bağlı problemləri yoxdur, hətta bəzən onların maddi vəziyyətləri artıqlaması ilə təmin olunur. Hərdən düşünürəm ki, bəlkə də, əvvəlcə heç bir şəraiti olmayan futbolçu bugünkü vəziyyətə düşəndə özünü itirir, müvəqqəti uğurdan başgicəllənməsi yaranır, yeni situasiyaya hazır olmur. Ümumiyyətlə, biz tez-tez cızığımızdan çıxırıq və düşünürük ki, dünya bizimdir. Nəzərə almaq lazımdır ki, futbol həyatı çox qısadır. Mən həmişə futbolçulardan bir şeyi istəmişəm: bu qısa zaman ərzində böyük şəxsiyyətə çevrilməyə çalışın. Tarixi, böyük şəxsiyyətlər yazır, tarix yazmağı bacarın. Yalnız bundan sonra deyə bilərsiniz ki, siz bütün bunlara layiqsiniz. Əks halda, siz heç düzgün futbol həyatı da yaşamayacaqsınız. Yəni hər şey özümüzdən asılıdır. Elə problem də özümüzdədir. Təkrar edirəm ki, bu gün futbolçu üçün də, məşqçi üçün də hər bir şərait yaradılıb. Hansısa problemlər varsa, günahı özümüzdə axtarmalıyıq.

**K.A.:** Çox şey deyə bilərəm, amma mən hazırda meydandayam, bu barədə danışmasam, daha yaxşıdır. Bizə nə tapşırırlar, onu da edirik.

**- Futbola azarkeş kimi baxa, oyundan adi tamaşaçının aldığı zövqü ala bilirsinizmi? Yoxsa peşəkarlıq, futbolun içində olmaq sizə mane olur?**

**V.S.:** Əlbəttə, indi istəsəm də, oyuna azarkeş kimi baxa bilmərəm. Mənim peşəm budur və istər-istəməz ayrı gözlə baxıram. Amma əlbəttə ki, o azarkeşlik hissiyyatından da nəsə qalıb. Uşaqkən bizim bir komandamız vardı – "Neftçi". Nəinki oyunlarını, məşqlərini də izləyirdim. Haçansa onların yerində olmağı arzulayırdım. Allaha şükür, bu arzum da həyata keçdi, futbolçu kimi "Neftçi"də formalaşdım və elə məşqçi kimi də orada uğurlar əldə elədim. Əlbəttə, indi də futbola o uşağın gözləriylə baxmaq istərdim. Amma Norveçlə oyun zamanı hərdən peşəkarlığı unudub, futbolçularımıza uşaqlığımdakı dəli həvəslə azarkeşlik edirdim. Görünür, azarkeşlərin arasında olanda biz peşəmizi də, peşəkarlığımızı da yaddan çıxarırıq. Yəni o hissiyyat tam itməyib, var.

**K.A.:** Fərqli məsələdir. Məsələn, bir valideynin oğlu futbol oynayırsa, onun həmin oyuna baxanda keçirdiyi həyəcan tamam fərqli olur. Amma futbola teatr tamaşası kimi baxan azarkeşlər də var. Məsələn, almanlar adətən futbola həftə sonları istirahət kimi baxırlar, elə bil teatra gedirlər. Bizdə vəziyyət fərqlidir. Birinin ürəyi tutur, o birinin şəkəri qalxır. Allaha şükür, biz də elə futbol oynayırıq ki... Məsələn, mən heç vaxt rəqiblərimin oyununa baxmıram. Xarakterim belədir, səbəbini demək istəmirəm. Amma başqa komandaların oyununu izləyəndə də buna məktəb kimi baxıram, nəsə öyrənməyə çalışıram.

**- Hansı klublara azarkeşlik edirsiniz?**

**V.S.:** Yəqin ki, bütün azərbaycanlı azarkeşlərin qəlbində istər-istəməz bir "Neftçi" sevdası var. Amma bu, faktdır ki, hazırda böyük uğurlara imza atan və bizim hər birimizi tanıtdıran "Qarabağ" klubudur. Digər tərəfdən, Avroliqada iştirak edən bütün klublarımıza dəstək oluruq və azarkeşlik edirik. Dünya səviyyəsində götürsək, məsələn, mən məşqçi kimi İtaliya futbol məktəbinin üzərində formalaşmışam. Amma son illər ispan futbolu bütün fikirlərimizi alt-üst etdi. Bu gün elə bir azarkeş tapılmaz ki, "Barselona"nın oyununu sevməsin. Hətta məşqçilərlə öz aramızda söhbətlər zamanı da etiraf edirik - hamımız bu gün Barselona kimi oynamaq istərdik. Son vaxtlar "Barselona"nın, "Bavariya"nın, alman və ispan milli komandalarının oyunundan həzz alıram.

**K.A.:** Öz oynadığım klublara azarkeşlik edirəm. Xüsusi azarkeşlik etdiyim klub yoxdur.

**- Bir məsələyə də münasibətinizi bilmək maraqlı olardı. Futbolla bağlı lotoreya oyunları geniş yayılıb. Bəzən oyunun nəticələrinin alınıb-satılması məsələsi ilə bağlı qalmaqallar da ortaya çıxır. Sizcə, bu, azarkeşin futbola olan marağına təsir göstərirmi?**

**V.S.:** İstər-istəməz təsir edir. Həmişə demişəm ki, futbol idman növüdür və burada idman prinsiplərini qoruyub saxlamaq çox vacibdir. Əgər bu prinsiplər gözlənilmirsə və əvvəlcədən danışılmış nəticə olursa, bu, artıq idman deyil. Hazırda dünyada belə hallara qarşı mübarizə aparılır. Hesab edirəm ki, bu, bütün dünyada futbolun inkişafına böyük zərbə ola bilər.

**K.A.:** Nəinki futbola münasibətə, o, pul itirən və qazanan adamların həyatına da ziyan gətirir. Dinimiz də belə halı haram buyurub. Vallah, düzü, bu məsələlərdən başım çıxmır, heç maraqlanmaq da istəmirəm.

**Rəbiqə NAZİMQIZI**



# "Bakı-2015"in könüllülərinə təşəkkürnamələr təqdim olunub

**Bakı-2015 I Avropa Oyunlarının könüllülərinə prezident İlham Əliyev və Bakı-2015 I Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva tərəfindən imzalanmış təşəkkürnamələrin təqdimatı olub.**

APA-nın xəbərinə görə, ilk 50 könüllü gəncə təşəkkürnamələr gənclər və idman naziri Azad Rəhimovla təhsil naziri Mikayıl Cabbarov tərəfindən təqdim olunub.

A. Rəhimov bildirib ki, Bakı-2015 I Avropa Oyunları zamanı ölkədə könüllülər mədəniyyəti yaranıb: "Biz Azərbaycanı Avropa və dünyanın tarixinə yazdıq. Bu prosesdə minlərlə könüllü iştirak etdi. Lakin bu gün burada 50 gənc iştirak edir. Düşünürəm ki, siz burada minlərlə könüllü ordusunu təmsil edirsiniz. Prezident İlham Əliyev və Bakı 2015 I Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban xanım Əliyeva sizin əməyinizi yüksək qiymətləndirdilər Sizə təqdim olunacaq təşəkkürnamələrdə Azərbaycanın iki əziz insanının imzası var. Bu sizin əməyinizə verilən ən böyük qiymətdir. Biz bu işləri sizsiz bacara bilməzdik. Sizin köməyinizlə bu işləri həyata keçirdik".

A. Rəhimov qeyd edib ki, gələcəkdə ölkədə keçiriləcək beynəlxalq idman yarışlarında da könüllülərin xidmətindən istifadə oluna bilər: "Azərbaycanda Formula-1, İslam Həmrəylik Oyunları, Dünya Şahmat Olimpiadası və 2020-ci ildə keçiriləcək Avropa futbol çempionatında sizin xidmətlərinizdən istifadə edə bilərik. Sizinlə əlaqələrimizi kəsməməliyik".

Təhsil naziri M. Cabbarov isə Bakı-2015 I Avropa Oyunlarının Azərbaycana böyük miras qoyduğunu deyib: "Düşünürəm ki, I Avropa Oyunlarının Azərbaycana qoyduğu ən böyük miras insan kapitalıdır. Bu prosesdə iştirak edən 17 mindən çox könüllünün 14 mini təhsil müəssisələrini təmsil edirdi. Bu, qürurverici haldır. Təhsil Nazirliyi olaraq bu işə gələcəkdə də töhfə verməyə hazırıq".

Tədbirdə könüllülər haqda hazırlanmış video-çarx nümayiş olunub.

# "Ayaks" əməliyyatı

**Amerika Mərkəzi Kəşfiyyat idarəsinin agenti Donald Uilberin "İranın baş naziri Mosəddeqin devrilməsi" adlı məruzəsi çox səmimi girişlə başlayırdı: "1952-ci ilin axırlarında bəlli oldu ki, İranda Mosəddeq hökuməti neft məsələsində maraqlı tərəf olan Qərb dövlətləriylə anlaşmaya gələ bilmir; iqtisadiyyatın maliyyələşməsini təhlükəli defisit həddinə çatdırır; baş nazir postunda qalmasını süni şəkildə uzatmaqla İran konstitusiyasını pozur; şəxsi hakimiyyətini möhkəmlətmək yolunda populist addımlar atır; emosiyalara əsaslanan məsuliyyətsiz siyasət yürüdür; şahın hakimiyyətini sarsıdır; İran ordusundakı gərginliyi təhlükəli həddə çatdırır və kommunist partiyası olan Hezbe-Tude ilə sıx əlaqələr saxlayır. Sadalananlar İranın "Dəmir pərdə"nin o üzünə keçməyə hazırlaşdığına real işarədir. Əgər bu baş versə, Sovetlər Birliyi soyuq müharibədə növbəti qələbəsini bayram edəcək, Qərb isə Yaxın Şərqdə ciddi məğlubiyyətə uğrayacaq. Vəziyyəti düzəltmək üçün yeganə imkan bu sənəddə şərh edilən məxfi əməliyyatın həyata keçirilməsi idi".**

Bu məruzə 1954-cü ilin mart ayında hazırlanmışdı, amma geniş ictimaiyyət ondan 1969-cu ildə xəbər tutdu – Uilber parlaq diversantdan maraqlı yazıçıya çevriləndən sonra.

Bəs necə olmuşdu ki, İranda demokratik yolla seçilmiş hakimiyyətin devrilməsində Birləşmiş Ştatların rolunu faş edən bir sənədin nəşrinə və yayılmasına icazə verilmişdi?

Bunun səbəbi çox sadədir. Qırx üç il qabaq insanlar hələ yalnız öz həqiqətlərinə inanır, dünyadakı hadisələri öz dəyərləri prizmasından qiymətləndirirdilər...

Bu gün isə vəziyyət başqadır. Bu gün bizim üçün aydındır ki, Uilberin məruzəsində "emosiyalara əsaslanan məsuliyyətsiz siyasət" adlandırılan şey əslində sadəlövh şahı 20-ci əsrin əvvəllərində borc öhdəlikləri içində boğmağa, onun yaxın əsabələrini, məmur ətrafını rüşvətlə susdurmağa nail olan ingilis casuslarının və sələmçilərinin zülmündən İran xalqının bezməsi və öz sərvətlərinə özünün sahib çıxması kimi təbii istəkdən başqa bir şey deyildi. Amma o vaxtlar Mosəddeq hökumətinin ölkənin yeraltı sərvətlərini ədalətlə bölmək istəyi Donald Uilberin həmvətənlərində elə bir qıcıq oyatmışdı ki, onlar daim əllərində bayraq etdikləri "Demokratik dünya" ideyalarını unudub İranda demokratik yolla hakimiyyətə gələn vətənpərvər qüvvələri devirməyə qərar vermişdilər...

Donald Uilberin məruzəsi özünün detektiv süjetindən çox, Amerika və İngiltərənin başçılıq etdiyi Qərbin davranışında yeni dəst-xəttin təzahürü kimi maraqlıdır. Sonrakı 50 ildə dünyadakı bütün dövlət çevrilişlərində məhz bu dəst-xətt aydın seziləcək. ABŞ və Böyük Britaniya kəşfiyyatları İrandakı uğurlarından o qədər vəcdə gəlmişdilər ki, cəmi bir-neçə ay sonra eyni planı Qvatemalada həyata keçirmiş və "Ayaks" əməliyyatını bütün gələcək çevrilişlər üçün nəzəri baza kimi qəbul etmişdilər.

## Mosəddeq kim idi?

Mohəmməd Mosəddeq 1882-ci ildə Tehranda, Qacar nəslindən olan şahzadə ilə İranın maliyyə nazirinin ailəsində dünyaya göz açmışdı. Siyasətə 24 yaşında olarkən gəlmiş, İranda Məşrutə hərəkatının iştirakçısı olmuşdu. 1919-cu ildə İsveçrədə universitet təhsili almışdı. Elə həmin il Böyük Britaniyaya neft konsessiyaları verilməsi əleyhinə çıxışlara başlamışdı. Sonralar maliyyə naziri olmuş, İran Məclisinin deputatı seçilmişdi.

1949-cu ildə Mosəddeq Milli Cəbhə partiyasını yaradır. 1951-ci ilin 15 martında İranda bütün neft mədənlərinin milliləşdirilməsi haqda qanunun qəbul edilməsi onun aktivliyi sayəsində mümkün olur, həmin il, aprelin 28-də isə Məclisdə səs çoxluğuyla ölkənin baş naziri seçilir. 1953-cü il, avqust ayının 19-da, təxminən ikiillik dramatik mübarizədən sonra hakimiyyətdən gedir...

## "Ayaks" əməliyyatı ərəfəsində baş verənlər

Birləşmiş Ştatların sabiq prezidenti Riçard Nikson özünün "Həqiqi müharibə" kitabında belə yazır: "İkinci Dünya müharibəsinin bitməyinə az qalmış, Stalin Fars körfəzinə iddialarını ortaya qoyan ilk addımını atdı. Müharibə illərində Şimali İran torpaqlarını zəbt etmiş Sovetlər Birliyi müharibədən sonra qoşunlarını çıxarmaq fikrində deyildi, orada öz nəzarətində olan iki təzə dövlət yaratmışdı - "Azərbaycan Muxtar Respublikası" və "Kürdüstan Xalq Respublikası". Bundan başqa, Sovet İttifaqı Şimali İranın neft yataqlarının birgə istismarı barədə razılığa gəlmişdilər və yaradılacaq birgə şirkətin 51 faizi ruslara məxsus olacaqdı".

İran ərazisində bu iki milli dövlət həqiqətən 1945-ci ildə yaradılmışdı. Onları hətta Tehran hökuməti də tanımışdı – 1946-cı ilin 13 iyununda.

Amma İngiltərənin baş naziri Çörçillin məşhur "Fulton çıxışı"yla eyni zamanda, yəni 1946-cı il, aprelin 4-də İranın baş naziri Qəvvam-üs-Səltənə ölkənin şimalındakı neft yataqlarının SSRİ ilə birgə mənimsənilməsi barədə müqaviləyə Moskvada imza atmışdı.

Maraqlı vəziyyət yaranmışdı. Əgər Tehran hökuməti həm təzə dövlətlərin yaranmasını, həm də neft yataqlarında birgə işi qəbul edirdisə, onda niyə SSRİ-nin İranla yaxınlaşmaq cəhdi baş tutmadı? Buna mane olan hansı qüvvələr idi? Sovetlər Birliyi kiminlə kəllə-kəlləyə gəlmişdi?

Cavab bəllidir: 1954-cü ildən dünyaya "Britiş Petroleum" adı altında tanınan "İngilis-İran neft şirkəti" ilə...

Sonrakı hadisələr ildırım sürətiylə cərəyan etdi. 1946-cı ilin payızında İranın Britaniya nəzarətində olan cənubunda təzə yaranmış respublikalarla Tehran hökumətinin başladığı müqavilənin ləğvini tələb edən, əsas etibariylə lur və ərəblərdən ibarət köçəri tayfalar üsyan etdi və nəticədə "zəhmətkeş köçəri tayfalarının tələbiylə" Məhəmməd Rza Pəhləvi dekabr ayında hər iki qurumun ərazisinə qoşun yeritdi.

Təbii ki, bu yalnız Sovet qoşunlarının nüvə silahıyla şantaj edilərək ölkədən çıxmasından sonra mümkün oldu.

Bundan az sonra, yəni 1947-ci ilin 6 oktyabrında İran Birləşmiş Ştatlarla ordu quruculuğunda göstərəcəyi kömək barədə müqavilə imzaladı.Elə həmin ay, İran parlamenti Qəvvam-üs-Səltənənin SSRİ ilə ölkənin neft sektorunda ingilis monopoliyasına mane olan müqaviləsini təsdiq etmədi.

## Mosəddeqin hakimiyyətə gəlməsi

1948-ci ildə ölkədə İngilis-İran neft şirkətinə qarşı aktiv hərəkat başladı. Bu şirkət hələ 1933-cü ildə İranın neft sərvətləri üzərində nəzarətini daha 60 il uzatmağa müvəffəq olan qanun qəbul etdirmişdi.

1949-cu ilin 4 fevralında İran uğursuz şahına sui-qəsd cəhdi oldu. Məhz bundan sonra Amerika hərbi məsləhətçilərinin təhrikiylə ölkədə irtica dalğası baş qaldırdı, kütləvi həbslər oldu, mütərəqqi qəzetlər yasaqlandı.

Lakin sonrakı iki il ərzində vəziyyət bir az da gərginləşdi, ölkəni mitinq, nümayiş dalğası bürüdü. Çıxışların əsas şüarı ingilislərlə 1933-cü il müqaviləsinin ləğvi, İngilis-İran neft şirkətinə məxsus bütün müəssisələrin milliləşdirilməsi, demokratik təşkilatların və mətbuatın fəaliyyətinə şərait yaradılması idi. Neft sənayesinin milliləşdirilməsi uğrunda hərəkata 68 yaşlı siyasətçi Məhəmməd Mosəddeq rəhbərlik edirdi.

Onun yaratdığı Mili Cəbhə, əsasən, ölkənin milli burjuaziyasının mənafeyini müdafiə edirdi, amma bu təşkilatın sıralarında həm də sağlam xarici siyasət yürüdülməsini arzulayan demokratik qüvvələr birləşirdi.

Mosəddeq hərəkatın ilk günündən elan etdi ki, sonuncu parlamet seçkilərində onun tərəfdarları qanunsuzluğa məruz qalıblar. Məhz bu bəyanat onu bir əzabkeş kimi xalqa sevdirdi və Mosəddeqin siyasətə təkrar dönüşü bir hadisəyə çevrildi.

Mübarizə getdikcə qızışırdı. Axırda İranın Milli Məclisi neft sənayesinin milliləşdirilməsi haqda qanun qəbul etdi. Onun dalınca da Mosəddeqin başçılığı altında hökumət formalaşdırıldı. Təzə nazirlərdən ibarət kabinetin birinci vəzifəsi Məclisin çıxardığı qanunun icrası oldu.

Mosəddeq ingilislərin mövqeyini sarsıtmaq üçün xarici siyasət sahəsində amerikalılarla əlaqə yaratdı. Okeanın o tayında bu meyilləri əvvəlcə alqışladılar, amma sonra, hərəkatın aşkar antiimperialist xarakterindən qorxuya düşərək, Böyük Britaniya ilə danışıqlara gedərək İranın neftin milliləşdirilməsi istiqamətində atdığı addımlara mane olmağa başladılar.

Buna baxmayaraq, Mosəddeq öz xəttini davam etdirərək bütün mədən və zavodlardakı ingilisləri ölkədən çıxardı. Buna cavab olaraq, İngiltərə İrana iqtisadi boykot elan etdi. Baş nazir də bu boykotun müqabilində SSRİ, Macarıstan və Polşa ilə ticarət müqaviləsi bağlamağa məcbur oldu.

1952-ci ildə Qərb dövlətlərinin Mosəddeq hökumətinə etdiyi təzyiqlər onun öz postundan bir aylıq kənarlaşdırılmasına gətirib çıxardı. Lakin xalq kütlələrinin küçələrə çıxması nəticəsində, 1952-ci ilin 22 oktyabrında İran Böyük Britaniya ilə bütün əlaqələrini kəsib yadelliləri ölkədən çıxardı.

## "Ayaks" əməliyyatı

Əməliyyatın ilkin konturları 1953-cü ilin aprelində, bütün detallar isə iyun ayında bəlli oldu. Həmin plan cəmi bir-neçə gün ərzində ABŞ və İngiltərə parlamentində təsdiq olundu və onun həyata keçirilməsi üçün tədbirlərə start verildi.

Əməliyyata başçılıq keçmiş Amerika prezidenti Teodor Ruzveltin nəvəsi, Mərkəzi Kəşfiyyat İdarəsinin zabiti "Kim" ləqəbli Kermit Ruzveltə tapşırıldı. Onun ilk addımı İrana Ceyms Lokric adı altında gələrək Britaniyanın orda olan agenturasıyla tanışlıq oldu. Bunun dalınca isə müxtəlif siyasətçilərin, qəzet naşirlərinin, dini xadimlərin ələ alınması prosesi başlandı. Qeyd etmək lazımdır ki, "Ayaks" əməliyyatının gedişində korrupsiyaya böyük önəm verilirdi. Bu məqsədlə Kimə bir milyon dollar vəsait ayrılmışdı.

Hökumətin yüksək dairələriylə əlaqə yaratmasına məhz Tehrandakı Türkiyə səfirliyi yardım göstərdi...

"Ayaks"a hazırlıq üç mərhələdən ibarət idi: müttəfiqlərin Mosəddeqin yerinə hazırladığı general Fəzlollah Zahedinin instruktajı; çevrilişə Məhəmməd Rza şah tərəfindən xeyir-dua verilməsi və ictimai fikrin lazımi ahəngə köklənməsi.

*Sonu gələn sayımızda*



Aydın YOL
N 27(36) 17.07.2015



**Adil müəllim haqqında bizimlə söhbətləşməyə oğlu, tanınmış telejurnalist Etibar Babayev məmnuniyyətlə razılıq verdi. ATV kanalının Bədii Şurasına sədr təyin olunan Etibar müəllimin müsahibəyə necə çətinliklə vaxt ayırdığını anlayırdım. İş otağında telefon zənglərinin ardı-arası kəsilmirdi.**



**Şair, tərcüməçi, dramaturq Babayev Adil Qafar oğlu 1925-ci il, yanvarın 27-də Naxçıvan şəhərində anadan olub. 1938-ci ildə orta məktəbin yeddinci sinfini bitirərərək, təhsilini Tiflisdə, M.F.Axundov adına Azərbaycan orta məktəbində davam etdirib. "Şərq qapısı" qəzeti redaksiyasında əvvəl korrektor, sonra ədəbiyyat və incəsənət şöbəsinin müdiri kimi çalışıb. 1943-cü ildə Tiflisdə A.S.Puşkin adına İkiillik Müəllimlər İnstitutunun ədəbiyyat fakültəsinə daxil olub, eyni zamanda "Sovet Gürcüstanı" qəzeti redaksiyasında ədəbiyyat şöbəsinə rəhbərlik edib. Ədəbi yaradıcılığa 1939-cu ildən başlayan Adil Babayevin ilk şeirləri Tiflisdə çıxan "Gənc nəsil" məcmuəsində və "Sovet Gürcüstanı" qəzetində dərc olunub. 1945-ci ildə Bakıya köçəndən sonra "Kommunist" qəzetində ədəbi işçi, tərcüməçi, "İnqilab və mədəniyyət" jurnalında poeziya şöbəsinin müdiri vəzifələrində çalışıb. Daha sonra Azərbaycan Dövlət Nəşriyyatında bədii ədəbiyyat şöbəsinin redaktoru işləyib. 1956-1958-ci illərdə Adil Babayev ədəbiyyatşünaslıq, dramaturgiya və kino sənəti problemlərinə dair çoxlu məqalələr yazaraq, milli teatrın inkişafına kömək edib. Azərbaycan Dövlət Akademik Dram Teatrının ədəbi hissə müdiri, "Ədəbiyyat və incəsənət" qəzeti redaksiyasında tənqid şöbəsinin müdiri, məsul katib və baş redaktorun müavini vəzifələrində işləyib. 1971-ci ilin avqust ayından ömrünün son gününədək Azərbaycan Yazıçılar İttifaqında bədii tərcümə üzrə məsləhətçi olub. Dünya ədəbiyyatından tərcümə etdiyi pyeslər tamaşaya qoyulub. Uzun sürən ağır xəstəlikdən sonra 1977-ci il, avqustun 19-da Bakıda dünyasını dəyişib.**




# Ata olsam da, ata istərəm



- Hər kəsin bir insanlıq borcu var. "İnsanlıq" dediyimiz keyfiyyəti kimdəsə görəndə, adamın ürəyi açılır. Deyirik, dünya dağılır, mənəviyyat ölür. Kriminal xronikanın mətbuatda geniş yayılmasının etik normalara zidd olması bir yana, bu, psixoloji amillərə də təsirsiz ötüşmür. Amma sizin bir şairi yad etmək, onun ömür yoluna işıq salmaqla bugünkü oxucuda müəyyən təəssürat yaratmaq məqsədilə etdiyiniz zənginiz məndə bir minnətdarlıq hissi yaratdı. Həm atamın yad olunacağına, həm də mənəviyyat barədə söhbət edəcəyimizə görə şad oldum.

Çoxları övladına atasının adını verir. Elə mən də oğlumun adını Adil qoymuşam. Amma bu sevinc atama nəsib olmamışdı, mənə atasının adını qoya bilməmişdi. Çünki atasını repressiya illərində "xalq düşməni" kimi güllələmişdilər. Mən anadan olanda atam hələ də "xalq düşməni"nin oğlu hesab edilirdi. Babam güllələnəndə atam altıaylıq körpə idi, üzünü görməmiş, ata nəvazişini duymamışdı. Mənə ünvanlanan ilk şeirindən bəzi misraları yada salmaq istərdim:

***Oğlum, görməmişəm hələ üzünü,***
***Bilmirəm qarasan, yoxsa ki, ağsan,***
***Ancaq qəlbimdəki saf duyğuları,***
***Bilirəm, yenidən canladacaqsan.***

Çox çətin dövr idi. Kim "yuxarılar"ın qəzəbinə tuş gəlirdisə, səsvermə hüququ əlindən alınırdı, bu da həmin adam üçün son dərəcə təhqiramiz hesab olunurdu. Valideynlər tutulanda, övladları dövlətin himayəsinə götürülüb uşaq evlərinə göndərilirdi, hətta adları, soyadları belə, dəyişdirilirdi ki, hansı ailəyə mənsub olduqları bilinməsin. Bunları ona görə deyirəm ki, o çətin dövrdə "xalq düşməni" damğası vurulmuş birinin övladı, ailə üzvü olanların aqibəti barədə gənc oxucularda təsəvvür yaransın.1956-cı ildə babama bəraət verdilər. Nənəm həmin gündən sonra otuz il də yaşadı. Amma həyat yoldaşına görə kəsilən təqaüdü ölənə qədər almadı. Deyirdi ki, ərimin qanpulunu alıb xərcləyə bilmərəm.

Mən atamın həm də yaxın dostu idim. Mənimlə tez-tez söhbətləşirdi. O illərin ağrı-acısından, məhrumiyyətlərindən, yaman gündə sevincini, kədərini kimlərlə bölüşdüyündən, necə oxuduğundan danışırdı. Deyirdi ki, repressiya təqiblərindən yaxa qurtarmaq üçün anası onu Tiflisə apararaq böyük qardaşının, yəni atamın dayısının himayəsinə sığınır. Atam orada orta məktəbi bitirməsindən, ilk şeirlərinin Gürcüstanda dövri mətbuatda çap olunmasından, sonralar Bakıya göndərdiyi şeirlərin xeyirxah insanların köməyi ilə "Ədəbiyyat" və "Kommunist" qəzetlərində dərc edilməsindən minnətdarlıq hissi ilə söz açırdı. 1945-ci ildə "Çinar" şeiri "Kommunist" qəzetində çap olunur. O zaman qəzetə xalq yazıçımız Əli Vəliyev rəhbərlik edirdi. Bu, elə-belə məsələ deyildi, şəxsiyyətə pərəstiş dövründə "xalq düşməni"nin oğlunun şeiri partiyanın mətbu orqanında çap olunmuşdu. Səməd Vurğun həmin ərəfədə səhhətində problem olduğundan, xəstəxanada yatırmış. Elə oradaca qəzetdə bu şeiri oxuyub Əli Vəliyevə zəng edib, müəllifin kim olduğu ilə maraqlanır. Əli Vəliyev onun Gürcüstanda yaşayan iyirmi yaşlı bir gənc olduğunu söyləyəndə, Səməd Vurğun təəccüblənir. O, hesab edirmiş ki, şeiri artıq müəyyən həyat təcrübəsi olan, yaşlı bir insan yazıb. Şeir ömrünü vətəndən uzaqlarda keçirməyə məcbur olan bir qocanın doğma elinə qayıdandan sonra gənclərlə söhbətindən bəhs edir:

*Daddımsa dünyanın hər nemətini*
*Dilbər guşələrdə ötdüsə ömrüm,*
*Dünyanın ən böyük səadətini*
*Bu boylu çinarın altında gördüm.*

Şeirdə vətənpərvərlik duyğularının yüksək poetik ifadəsi Səməd Vurğunun diqqətini çəkmişdi. O, Əli Vəliyevə deyir ki, istəyirəm bu şeirə cavab yazım, qəzetdə çap olunsun. Əli müəllim bu fikri dəstəklədiyini bildirir. Beləliklə, Səməd Vurğunun "Mənim arzum" adlı şeiri əvvəlcə "Kommunist" qəzetində, iki gün sonra isə rus dilinə tərcümə edilərək, "Bakinskiy raboçiy" qəzetində çap olunur. Qəzetdə yuxarıdakı dörd misra epiqraf kimi verilir. Səməd Vurğunun Adil Babayevə ithaf olunan şeiri belə başlayır:

*Şair! Nə incədir rübabın sənin!*
*Uçurdu qəlbimi çaldığın bu saz,*
*Vətən torpağında bitən gülşənin*
*Yarpağı saralıb, çiçəyi solmaz.*

1956-cı ildə babama tam bəraət verdilər. Amma 1945-ci ildə Səməd Vurğunun bu şeiri, mənim zənnimcə, zamanı on il qabaqlayan poetik bəraət idi.

1946-cı ildə Bəxtiyar Vahabzadə ilə atamı eyni gündə Yazıçılar İttifaqına üzv qəbul elədilər. Əli Vəliyev onu "Kommunist" qəzetinə işə götürmüşdü. Atam həmişə Əli Vəliyevin, Səməd Vurğunun xeyirxahlığından, onun həyatındakı rolundan dərin minnətdarlıq hissi ilə danışardı.

**Repressiya qurbanı olmuş babasının hansı adla həbs edildiyini bilmək istəyim mövzudan azca kənara çıxmağımıza səbəb oldu. Öyrəndim ki, Adil müəllimin atası Qafar Babayev 1925-ci ildə Naxçıvanın Xalq Komissarlarından biri imiş. Azərbaycan Xalq Cümhuriyyəti dövründə yaranmış orduda xidmət edən gənc zabit, Sovet hakimiyyətinin ilk illərində Naxçıvanda Xalq Komissarı vəzifəsinə təyin edilmişdi:**

- Bildiyimiz kimi, həmin dövrdə siyasi durum olduqca gərgin və dəyişkən idi. Bir tərəfdən yeni dövlət yaranmışdı, digər tərəfdənsə qıtlıq, aclıq baş alıb gedirdi. Ayrı-ayrı bölgələrdə hakimiyyətə qarşı narazılıq artırdı. Xalq Komissarları Sovetinin sədri Rıkov Azərbaycana gələndə Naxçıvan dəmir yolu vağzalında qatardan düşmədən, öz vaqonundaca Azərbaycanın tərkibində yeni Muxtariyyət alan Naxçıvanın rəhbərləri ilə görüşür. Onların mövcud çətinliklərdən, sərhədyanı bölgədəki ciddi problemlərdən danışması xoşuna gəlmir. Nəticədə, komissarların doqquzu da bir gecədə həbs edilərək Bakıya göndərilir. Bir neçə gün sonra, məhkəmə qurulmadan, "üçlüyün" qərarı ilə onlar Nargin adasında güllələnirlər.

Beləliklə, repressiya daha bir ailənin ocağını söndürür və bunun xofu uzun illər ailəni təqib edir. Məktəb illərində Adili pioner sıralarına qəbul etmirlər, o, uşaq yaşlarından müəllimlərinin, sinif yoldaşlarının ayrı-seçkiliyi ilə qarşılaşır.

**Etibar müəllim deyir ki, atasının çəkdiyi bütün iztirablar şeirlərində özünü göstərirdi:**

***Bu nahaq deyildir, çünki bir zaman***
***Mən də sənin kimi tifil olanda***
***Yanan gur çırağı söndürdü bir əl,***
***Mehriban atamın xanimanında.***

Etibar müəllim deyir, atası həyatının çox hissəsini gündəliklərinə yazıb. Gündəliklərin bir neçəsini oxumaq üçün ofisində saxlasa da, hələ çap olunması haqqında düşünmür. Deyir, yəqin ki, onları da Adil müəllimin digər əlyazmaları kimi, Nizami adına Ədəbiyyat Muzeyinə təhvil verəcək:

- Atamın ən böyük sərvəti ətrafındə yaxşı insanların, gözəl dostlarının olması idi. İsmayıl Şıxlı, Seyfəddin Dağlı, Nəbi Xəzri, Bəxtiyar Vahabzadə, Məsud Vəliyev, Ənvər Əlibəyli, Hüseyn Abbaszadə, Qabil İmamverdiyev, Əliağa Kürçaylı, Böyükağa Qasımzadə, Qasım Qasımzadə dünyadan köçsələr də, onların övladları ilə bizim indi də dostluğumuz davam edir. İndi belə dostluqlara çox nadir hallarda rast gəlmək olur. Dedi-qoduya, qalmaqala yer verilmirdi. Əvvəllər tez-tez yığışıb yeni əsərlərini müzakirə edirdilər. Bir-birilərinə qarşı çox diqqətli, nəzakətli idilər. Şüvəlanda yazıçıların istirahət evi vardı. Yay aylarında hamı ora yığışardı. Mən o illəri indi də xoş xatirə kimi xatırlayıram. Balaca mənzilimizdə atamın yazı makinasının tık-tık səsi bacımla mənim qulağımızda şirin lay-lay kimi səslənirdi. Səhər makinanın səsinə oyanırdıq, axşam yatanda onun səsi ilə yuxuya dalırdıq. Atam olduqca zəhmətkeş idi.

Etibar müəllim atasının çap olunmamış bir neçə roman və povest müəllifi olduğunu da bildirdi. Həmin əsərlər haqqında tanınmış ədəbiyyatşünasların çox yaxşı rəy yazdıqlarına baxmayaraq, nədənsə Adil müəllim, bir neçə hekayə istisna olmaqla, nəsr əsərlərini çap etdirməyib. Görünür, bu, Adil müəllimin özünə qarşı tələbkar olmasından irəli gəlirdi.

*Onsuz min əzaba, min dərdə dözdük.*
*Min yerdə pisliyə çəkildi adım*
*Namərdlər yanında şad görünsəm də,*
*Mərdlərin yanında yanıb ağladım.*
*Sən indi uşaqsan, yaşa dolanda*
*Bilərsən, böyükdür qəlbimdəki qəm*
*Məni qınamasın dostlar, tanışlar*
*Ata olsam da, ata istərəm.*

**FEYZİYYƏ**

# "Uşaqlara qoyulan sərmayə batmır, artıqlamasıyla qayıdır"

## "Aydın yol" qəzetinin suallarını xalq rəssamı Arif Hüseynov cavablandırır

**– Arif müəllim, müsahibələrinizin birində deyirsiniz ki, "Sovetski"də böyüdüyümdən ya kriminal aləmə qoşulmalıydım, ya da rəssam olmalıydım. Maraqlıdır, niyə həkim, mühəndis, müəllim yox, məhz rəssam?**

– O vaxt bütün orta məktəblərdə, pioner evlərində dərnəklər vardı. Mən də həmin vaxtdan şəkillərə baxıb üzünü köçürürdüm, dərsliklərdəki yazıçıların portretlərini çəkirdim. Yaxşı əl qabiliyyətimə görə artıq məktəbdə tanınırdım. Məktəbimiz üçün divar qəzetləri hazırlayırdım, şəkillər çəkirdim. Məktəbdə bir dostum vardı. Mənə dedi ki, sən düz eləmirsən, rəssamlığın da bir texnikası var. Onunla bir yerdə dərnəyə getməyə başladıq. Dərnəyin direktoru mənə 10 dəqiqəyə Füzulinin portretini çəkməyi tapşırdı. Çəkdim, baxdı, xoşuna gəldi. Beləcə, o dərnəyə qoşuldum. Bax məni "Sovetski" mühitindən o dərnək ayırdı. Artıq məni oralarda da "rəssam" deyib çağırırdılar.

30 il "Sovetski"də yaşamışam. Ordan çox sənət adamı çıxıb. Rəhmətlik aktyor Yaşar Nuri, rəssam-heykəltəraş Xanlar Əhmədov... O dövrdə biz tərəflərdə sənətkarlığa meyil vardı, rəssamlar çox idi. Mən də bu yoldan keçdim. Rəssamlıq təhsili aldım. 1968-ci ildə "Göyərçin" jurnalına dəvət etdilər. Bundan sonra yaradıcılığa başladım, ilk rəsmlərim "Göyərçin" jurnalında yayımlanmağa başladı. Elə o vaxtdan uşaq kitablarına, nağıllara rəsm çəkirəm. Həmçinin dünya klassiklərinin kitablarına illüstrasiyalar çəkirəm, tərtibat verirəm. Dəzgah qrafikasında çalışıram, portetlər çəkirəm. Dəzgah qrafikası müstəqildir, kitab tərtibatı isə şair və yazıçılardan asılıdır.

Bu günə kimi yüzdən artıq kitab tərtib etmişəm. Onların arasında ən əsas iş Sabirin "Hophopnamə"sidir. Onun üzərində, demək olar ki, 1980-ci ildən bəri işləyirəm. O nəşrin dəyəri çox böyükdür. Çünki mən Əzim Əzimzadə məktəbinin təsirindən çıxmışam. Daha əvvəl Əzim Əzimzadə və Nəcəfqulu da "Hophopnamə" üçün rəsmlər çəkiblər. Hesab edirəm ki, hər dövrün rəssamı Sabiri başqa yanaşma ilə oxumalıdır. Əzim Əzimzadə özü bir klassikdir, o, Sabiri başqa cür oxuyub. Mənə elə gəlir ki, Sabir artıq məişət fəlsəfəsindən çıxıb. Ona görə də, mən onu tamam başqa aspektdən çəkmişəm.

**– Sabirin yaradıcılığına fərqli yanaşma deyəndə nəyi nəzərdə tutursunuz və bu yanaşma necə qəbul olundu?**

– Bu yanaşma 80-ci illərdə yaxşı qəbul olunmurdu, amma indi çox yaxşı qəbul olunur. Yəni mən Sabirin yaradıcılığına məişətdən kənara çıxaraq bir qədər də geniş fəlsəfəylə baxmışam. Hadisələrə başqa gözlə baxmışam. Sabir əsərdə millətin yaralı yerlərinə toxunub, mən də həmin problemləri kinematoqrafiya üslubunda fraqment şəklində göstərmişəm. Həmin rəsmlərdən ibarət sərgilər də oldu.

Əsas odur ki, sənin əsərlərin bir vətəndaş kimi cəmiyyətə təsir göstərsin, faydası olsun. Onda özümü xoşbəxt hiss edərəm. Əgər bir əsərin bircə nəfərə təsiri olubsa, deməli, o əsər öz işini görüb. Yoxsa rəsmlər emalatxana üçün çəkilmir ki... Elektron vasitələr kitabı sıxışdırsalar da, kitab yenə də böyük məktəbdir, mədəniyyətdir. İnsan kitabla danışır, sətiraltı sözləri eşidir.

Bundan başqa, uşaqlar üçün həm məzmunca, həm də tərtibat baxımdan yaxşı kitablar buraxılmalıdır. Mən 40 ildən çoxdur həm virtual, həm də praktik olaraq uşaqlarla işləyirəm.

**– Uşaqlıqdan sizin rəng duyumunuza, peşə seçiminizə böyüdüyünüz mühitin, ailənizin, yaşadıqlarınızın necə təsiri olub?**

– Üç yaşımda atam rəhmətə gedib. Məni anam böyüdüb. O, özü təhsilsiz olsa da, istəyib ki, bacımla mən savadlı olaq, təhsil alaq. Fəhlə işləyirdi, amma savadlı adamların çoxundan savadlı idi, həyat təcrübəsi böyük idi. Atamdan mənə nə ev qalıb, nə də var-dövlət. Bir əlyazması qalıb. Həmin əlyazmada qeyd üçün balaca bir kağız vardı. Orda Füzulinin, Vahidin qəzəlləri, bir də şəkil vardı. Əllə çəkilmiş, primitiv bir şəkil idi. Amma deməli, o kod atamdan gəlirmiş, onda da nəsə varmış. Bu da bir yazıdır. Başlanğıc atamdan başlayırmış, qalan hər şey – "Sovetski" küçəsi, dərnəklər bir yoldur.

**– Bəs kompozisiya, bütövləşdirmə hissini sizdə formalaşdıran nələr olub?**

– Ümumiyyətlə, rəssamın işi tək rəsm çəkmək deyil. Bir az qabiliyyəti, səbiri, müşahidə bacarığı olan rəsm çəkə bilər. Ancaq rəssam olmaq tamam başqa şeydir. Çəkmək bir alətdir. Rəssamlıq üçün fikir, fəlsəfə olmalıdır. Fikrini ifadə etmək üçün bu alətdən – çəkməkdən istifadə edirsən. O da elə çəkilməlidir ki, fikrə düz gəlsin, keyfiyyəti aşağı olmasın, bir-birinə uyğun olmasın. Mənim uşaqlıqdan ədəbiyyata böyük marağım olub, yazıçılarla görüşmüşəm, danışmışam. Həm Azərbaycan, həm də dünya yazıçılarının əsərləri ilə tanış olmuşam. Kitab qrafikləri ümumiyyətlə, savadlı olurlar. Çünki onlar kitabı oxuyurlar, oxumasalar həmin kitaba tərtibat verə bilməzlər. Eyni zamanda, kitab müəllifinin dünyasını, ruhunu bilmək lazımdır. Bilmək lazımdır ki, müəllif bu əsərlə oxucuya nə demək istəyib. Ədəbiyyat insanın dünyagörüşünə çox təsir edir. Mən yazıçıların həyatını oxumaqla özüm üçün bir nöqtə, dayanacaq tapmışam. Rəssam bu nöqtədən inkişaf edir.

Sərgidə rəssamın işinə baxanda onun dünyagörüşü, peşəkarlığı, bacarığı, savadı görünür. Kitabı başa düşmək üçün gərək axıra qədər oxuyasan. Ancaq vizual sənət insana tez çatır. Əgər onun kodunu bilirsənsə, qiymətləndirə biləcəksən. Savadsız, intellektsiz rəssamın savadı insana heç nə vermir, təsir etmir. Onun çəkdiyi ibtidai bir şey olur. Texniki cəhətdən əl çəkə bilər, amma onun sonrası gəlməyəcək, dərinliyə getməyəcək. Bu mənada rəssamlıq da savad istəyir. Rəssamın ölkə tarixindən, incəsənət tarixindən xəbəri olmalıdır.

**– Hansısa kitaba illüstrasiya çəkmək üçün həmin əsəri bir dəfə oxumaq kifayət edir, yoxsa dəfələrlə qayıtmalı olursunuz?**

– Yox, kifayət etmir. Mən "illüstrasiya" sözünü qəbul etmirəm. Məsələn, yazılır ki, Məmməd meşəyə gedib alma dərdi. Bunu çəkmək çox bəsit bir şeydir. Sən gərək biləsən ki, Məmməd meşəyə niyə gedib, o, nə fikirləşirmiş. Ən əsası, onu yazan nə fikirləşirmiş. Mən, ümumiyyətlə, təkcə illüstrasiya eləmirəm. Məsələn, Rəsul Rzanın "Vaxt var ikən" şeirinə illüstrasiya çəkmək üçün onun bütün şeirlərini oxudum. Elə olur ki, bir şeirə bir illüstrasiya çəkirəm, elə də olur ki, on şeirə ümumi bir illüstrasiya çəkmişəm. Əsas, əsərin məğzini çatdırmaqdır. Bu, rəssamın, qabiliyyətindən, fantaziyasından, bir də ona verilən vergidən asılıdır. Deyirlər, rəssamlar Allaha yaxın olur. Ümumiyyətlə, yaradıcı adamlar bir pillə yüksəkdə olurlar. O əsərlər ki, təsir gücünə malikdir, onlar qalır, onlar yaşayır.

**– Bu mənada, siz hansı əsərlərinizi bu sıraya aid edərdiniz?**

– Onillərdir ki, insanlar Əzimzadənin təsirindən ayrıla bilmir. Ancaq mən istərdim ki, ayrılıb digər işləri görsünlər. "Nağıllar" bu mənada təsir gücünə malikdir. Hərçənd ki, o, ingilis dilində tərtib edilib, ancaq istərdim ki, Azərbaycan dilində də hazırlansın, bizim uşaqlarımız da o səviyyədə kitab oxusunlar. Məncə, nağılları bir uşaq vaxtda oxuyarlar, bir də qoca yaşda. Çünki nağılların hər yaşda öz təsiri var, tamam ayrı mətləbləri dərk edirsən. Mən 30 Azərbaycan nağılına illüstrasiya çəkmişəm. İndi oxuyanda görürəm ki, orda xəyanət var, dostluq var, sevgi var. Görünən hissəsi nağıldır, ancaq görünməyən hissəsində fəlsəfə var.

Hərdən olur ki, bir şeir oxuyuram, o, mənə yola çıxmaq üçün kiçik bir ip ucu verir. Ancaq sonra mən ona əlavələr edirəm, bəlkə, heç o fikirlər şairin ağlında olmayıb.

"Hophopnamə" də bu sıraya aiddir. O, iyirmi ilin məhsuludur. Bu yaxınlarda Məhsəti Gəncəvinin yubileyi münasibəti ilə onun qırxa yaxın rübaisinə rəsm çəkdim. Bununla onun rübailəri də oxunmuş olur ki, bu da bir maarifçilikdir.



Mən Cəlil Məmmədquluzadə, Sabir, Üzeyir Hacıbəyovun əsərləri ilə çox işləmişəm, onların portretlərini çəkmişəm. Bu üç şəxsin cəmiyyətin formalaşmasında böyük rolu olub. Onların təsiri ilə yetişən ziyalılar da çoxdur. Onlar cəmiyyəti hazırlayıblar, düşüncələrini dəyişiblər. Ona görə də şəxsi yaradıcılığımda bu böyük insanların əsərlərinə həmişə müraciət edirəm.

Çalışmalıyıq ki, maarifçilik istiqamətində kitablar nəşr etdirilsin, özü də nəfis təribatda. Sırf kitab çıxarmaqla cəmiyyət maariflənməz. Kitabların tərtibatına xüsusi fikir vermək lazımdır. Uşaq kitablarına internetdən bir dovşan şəkli tapıb qoymaqla məsələ bitmir. O dovşan şəkli də milli olmalıdır. Yəni kitablarda canlı rəsmlər olmalıdır. Ən yaxşı əsərlər uşaq kitablarına çəkilməlidir və qarşılığında da yaxşı qonorar ödənilməlidir. Uşaq hekayələri, uşaq ədəbiyyatı gələcəyə xidmət edir.

**– Elə problemlərdən biri də budur ki, uşaqlarımızın milli cizgi filmi, nağıl qəhrəmanları demək olar ki, yoxdur. Onlar əcnəbi qəhrəmanlarla böyüyürlər, onların dili ilə danışır, beyni ilə düşünürlər.**

– Bəli. Niyə bizim uşaqlar "Harry Potter"lə böyüməlidir? Bizim də yaxşı cizgi filmlərimiz var. Ancaq "Cırtdan" da dəyişməli, başqa formaya düşməlidir axı. Onu yazan adamın da dünyadan xəbəri olmalıdır. Uşaqlar "Harry Potter"ə niyə baxır? Çünki maraqlıdır. Bax bu kimi şeyləri ortaya çıxaran adamlar yetişməlidir. Gənclər, elə uşaqların özü də həvəsləndirilməlidir, onlar üçün müsabiqələr keçirilməlidir. Bəlkə, elə uşaqlar üçün nağılı uşaq yazacaq. Onun da öz düşüncəsi, ətrafı var. Nəticədə sabah küçələrdə avara uşaqlar, narkotik istifadəçiləri az olacaq. Uşaqlar cəmiyyətin özəyidir. Cəmiyyətin formalaşdırılması uşaqlardan başlayır. Bu, çox böyük hərəkatdır. O formalaşma olsa, bizim gələcəyimiz var. Olmasa, çox çətin olacaq. Uşaqlara qoyulan sərmayə batmır, artıqlamasıyla qayıdır. Dövlət bu günün sabahını fikirləşir, bu istiqamətdə böyük işlər görür, ancaq ziyalılar da yardımçı olmalıdır.

**– Arif müəllim, siz həm uşaq nağıllarına rəsmlər çəkmisiniz, həm də Sabirin "Hophopnamə"sinə və digər bu kimi kitablara illüstrasiyalar. Həm kompozisiyalar yaradırsınız, həm də portretlər çəkirsiniz, miniatür sənəti ilə məşğulsunuz. Bu janrların hamısı ilə məşğul olmaq sizin üçün nə dərəcədə mümkündür?**

– Mən sizə bir tezis deyim – yaradıcı adam ömrünün sonuna qədər uşaq kimi təəccüblənməyi bacarmalıdır. Sadəlövh uşaq kimi yox, sadəcə, uşaq kimi. O hissiyyat ölməməlidir, kor olmamalıdır. Belə olduğu halda, rəssam həmişə sağlam, axtarışa meyilli olur. Rəssamın baxışı fərqli olmalıdır. Biz gülə baxanda orda ancaq gül görməməliyik, hardan gəlir, necə bitir, necə solur, onu da görməliyik. Bu, rəssamın formalaşmasına xidmət edir. Bu forma bitəndə rəssam da bitir.

Mən Sabirin əsərlərinə illüstrasiya çəkəndə özümü ona hazırlayıram, o auraya girirəm. Ola bilər ki, mən heç rəsm çəkmirəm, nələrisə oxuyuram, yadıma salıram. Mən çəkə bilirəm, fikri izah etmək üçün təsvir lazımdır. O təsviri tapmaq üçün müxtəlif elmlər, cərəyanlar var. Mən elə çəkməliyəm ki, onu avropalı da başa düşsün, azərbaycanlı da.

**– Belə çıxır ki, rəssamlıqda əsas ideyanın yaranmasıdır, ideyanın icrası isə işin ikinci tərəfidir?**

– İkisi də olmalıdır. Rəssamların əsərləri niyə bahadır? Çünki rəsmin hazırlanmasında bütün əziyyəti rəssam özü çəkir. Emalatxanada əlavə nə qədər iş çıxırsa, hamısını rəssamın özü edir. Çərçivənin formasını belə, özün fikirləşirsən ki, əsərin qavranılmasına kömək etsin. Kinonun ərsəyə gətirilməsində əlli nəfər çalışır, bu, kollektiv işidir. Olur ki, operator işığı düz salmır, rejissorun fikri kölgədə qalır. Bu mənada mən həm rejissoram, həm ssenaristəm, həm aktyoram, həm də musiqiçiyəm. Bütün işlər hamısı bir adamın əlindən çıxır və nə qədər peşəkar olsa, insanlara bir o qədər çox təsir edir. Bu nüanslar rəssamın işini daha da qiymətli edir. Rəssam olmaq çox çətindir. Rəssam üçün bir qırmızı xətt var, ondan aşağı düşmək olmaz.

**– Arif müəllim, rəsm əsərinə baxanda rəssamın yaşını, dünyagörüşünü, xarakterini sezmək olurmu? Həmçinin rəssamın yaşı ötdükcə o, bunu əsərlərində büruzə verirmi?**

– Mən 1970-ci ildə çəkdiyim rəsm əsərini hələ də sərgilərimdə nümayiş etdirirəm. O əsərə gənclərin də marağı var, yaşlı nəslin də, elə özümün də. Çünki o əsər indi də müasirdir. Vaxtında və hiss olunaraq çəkilən əsərin yaşı olmur.

Bəzən uşaqlar soruşur ki, indi fotoaparat var, rəsm çəkməyə nə ehtiyac? Deyirəm, elə deyil, rəssamın çəkdiyi şəkil canlıdır, onun arxasında çox şey, ən əsası da mənəviyyat var. Foto bir anı göstərir, ancaq rəsm əsərinə baxanda çox şey görürsən, baxdıqca canlanır. Ona görə də rəssamlıq sənətini inkişaf etdirmək lazımdır, rəssamlara qiymət vermək lazımdır. Rəssamlıq Akademiyasını bitirən gənclərin ən yaxşılarını seçib onları işə cəlb etmək lazımdır. Gənc rəssamlar elə çox deyil ki, onları işlə təmin etmək çətin olsun. O gənclərin arasından bir yaxşı rəssam çıxsa, bu, bizim qazancımızdır. Ancaq bizim naşirlər ucuz işə qaçır ki, kitabı tez hazırlayıb satsınlar, ondan mənfəət götürsünlər. Bu gün bir manata başa gələn kitabın üstünə üç manat da qoyub, dörd manata satmaq istəyirlər. Bu, mənəvi eybəcərlikdir. Dünyanın heç bir yerində iyirmi faizdən çox gəlir götürmək söhbəti yoxdur. Əksinə, gərək başqa sahələrdən gələn gəliri kitab işinə, xüsusilə uşaq kitablarına ayıraq. Hər yaş kateqoriyasının öz kitabları olmalıdır. Ancaq bunu fikirləşən yoxdur. Mən indi düşünürəm ki, Səməd Vurğunun "Azərbaycan" şeirinə illüstrasiyalar çəkərək uşaq kitabı tərtib edim. Bu şeir bizim himnimizdir və rəssam üçün geniş panorama verir. Ancaq heç kim sifariş vermir ki, belə səviyyəli bir kitab buraxaq. Mən də oturum, bir il bu işlə məşğul olum.

**– Ümumiyyətlə, əsasən sifarişlə çəkirsiniz, yoxsa?..**

– Mən özüm xoşuma gələn əsərlərə illüstrasiyalar çəkirəm. Nağıllara da çəkirdim, sonra sifariş gəldi. Sabirin əsərlərinə çəkirdim, ona da sifariş gəldi. Hərdən çəkdiklərimlə sifariş üst-üstə düşür. Sifarişlə də çəkirəm, ancaq çox vaxt özüm seçirəm. Yaradıcılıq işi proqramla, planla olmur, içindən gəlir, çəkirsən.

**– Arif müəllim, aktyorlar tamaşaya, oynayacaqları rola hazırlaşmaq üçün özlərini hər zaman içində olduqları mühitdən təcrid etməli olurlar. Siz hər hansı rəsm əsərini çəkəndə o auraya düşmək üçün nə etməli olursunuz, ruhunuzu necə tarazlayırsınız?**

– Çox vaxt iş otağımda tək oluram. Ailəmizə də deyirəm ki, məni narahat etməyin. Ola bilsin ki, bu otaqda rəsm çəkmirəm, sadəcə, köhnə işlərə baxıram, haqqımda yazılanları oxuyuram, düşünürəm, müqayisələr aparıram, həmin prosesə uyğunlaşmaq üçün çox şey edirəm. Proses müxtəlifdir. Elə rəssam var ki, kağızın üstündə axtarır, eskizlər edir, eləsi var ki, çəkə-çəkə fikirlərini əlavə edir. Rəsm əsərinə bir cür çəkməyə başlayır, başqa cür bitirir. Bu, normaldır. Mən isə hər şeyi beynimdə fikirləşib qururam; rənglər necə olacaq, hansı detal harada olacaq? Bunları müəyyən edəndən sonra kağıza keçirəm. Kağızda çəkəndə də əlavələr, yeniliklər olur. Baxıram ki, sonda ortaya çıxan əsər fikrimdəki ilə tam üst-üstə düşmür, ancaq müsbətə doğru dəyişmiş olur. Bu, rəssamların fərdi xüsusiyyətidir. Mən bütün günü düşünürəm.

**– Elə rəssam var ki, ancaq öz emalatxanasında çəkə bilir, eləsi də var ki, ancaq təbiət qoynunda. Rəssam da var, onun üçün məkanın heç bir fərqi yoxdur, ona sadəcə kağız, boya və fırça lazımdır. Bəs sizin üçün yaradıcılıq məkanı nə dərəcədə əhəmiyyət kəsb edir?**

– Mənim iki iş yerim var. Yayda bağda işləyirəm, qışda evdə. Mənim üçün əsas olan ideyadır, əlimdə olan kağızlardır, bir də rənglər. Bunlar harada olsa, mən orada işləyə bilərəm. Ancaq bir məqam da var ki, həmişə işlədiyin otağın aurası sənə kömək olur. Çünki bu otağa gələn kimi şəhərdəki səs-küy, yorğunluğun, dilxorluğun hamısı unudulur, artıq bu otağın aurasında olursan. Mən bu otağa artıq şeylər, artıq fikirlər gətirmirəm, təmiz beyinlə gəlirəm. Yəni məkan prosesi tezləşdirir. Mən hər gün işləyirəm, o demək deyil ki, rəsm çəkirəm. Beş gün bu otağa gəlməsəm, artıq otaq yadlaşır.

**– Arif müəllim, neçə-neçə uşaq nağılına illüstrasiya çəkmisiniz, kitablara tərtibat vermisiniz. Bəs öz nağılınız, özünüzü yaratdığınız əsəriniz varmı?**

– Hər bir əsərdə rəssamın özündən nəsə olur. Öz nağılım olmasa da, çəkdiyim əsərlərdə öz hisslərim var. Mən 1968-ci ildən bu günə kimi "Cırtdan"ı çəkirəm. Deyirlər ki, qırx il "Cırtdan" çəkmək olar? Olar, niyə olmur ki... Əvvəl çəkdiyim tamam başqa cür idi, indi ortaya çıxan başqa. Mən yaşlaşıramsa, dəyişirəmsə, o da dəyişir. Elə nağıllar var ki, ora öz fikirlərimi artırıram. O nağılda o fikir, obraz yoxdur, ancaq mövzuya uyğun əlavələr edirəm. Ancaq konkret olaraq öz nağılımı çəkməmişəm. Mənim nağılım "Sovetski" küçəsində qaldı.

**– Bir tələbəniz var, o da oğlunuzdur – Orxan Hüseynov. Maraqlıdır, niyə başqa tələbə yetişdirməmisiniz?**

– O vaxt hələ Rəssamlıq Akademiyası yox idi. Məni başqa yerdən dərs deməyə çağırmışdılar. Ancaq mən də həmin vaxt tez-tez səfərlərə gedirdim, istəmirdim tələbələr "başsız" qalsın. Deyirdilər, heç olmasa, öyrət, qoy bir tələbən olsun. Dedim, mənim tələbəm var – oğlum. Mən Orxana dərs deməmişəm, çəkməyi öyrətməmişəm. O, özü mənim emalatxanamda yetişdi. Sonra mənim yolumu getməyə başladı, "Göyərçin" jurnalına çəkdi. O jurnal rəssamı fəal işlədirdi, inkişaf etdirirdi. Sonralar usta rəssamların əhatəsində daha çox təcrübə qazandı.

Orxan "Mənim nağıl şəhərim" adlı sərgi keçirmişdi. İndi o, "YARAT" cəmiyyətində çalışır.

**– Arif müəllim, sizcə, incəsənətin sərhədi varmı? İstər dinin, istər milli mentalitetin sizin yaradıcılığınıza bir təsiri ola bilərmi?**

– Mən rəsm çəkəndə söykənəcəyim bir istinad nöqtəsi olur. Elə rəssamlar var ki, geniş potensialları var, dünya cərəyanları ilə çalışırlar. Mən müəyyən sərhəd gözləməyin tərəfdarıyam, çünki bu cəmiyyətdə yaşayıram. Biz gərək hələ öz cəmiyyətimizi maarifləndirək. Hər hansı bir mürəkkəb əsəri başa düşmək üçün gərək hazırlığın olsun. Gərək məktəbdə öyrənəsən, rəsm dərnəklərinə gedəsən. Bizdə rəsm dərsləri boş keçir. Rəsmin də əlifbasını bilmək lazımdır, bizim cəmiyyətin böyük qismi hələ rəsm əsərlərini anlamağa hazır deyil. Xalqımız arasında rəsm əsərlərinə tələbat yoxdur, evdən rəsm əsəri asmağa maraqlı deyilik. Asanlar da onun dəyərini bilmir, dəb xatirinə edirlər. Mücərrəd əsərləri anlayacaq nəsil yetişməyib. Yaponlar uşaqlara bağçada rənglərin çalarlarını öyrədirlər. Bu, mədəniyyətdir, zövq formalaşdırmaqdır.

**– Sizin ruhunuza yaxın rəng çaları hansılardır?**

– Ağ və qaraya daha çox üstünlük verirəm.

**– Azərbaycanın daha çox hansı ornamentlərinin dünyaya çıxarılmasının tərəfdarısınız?**

– Çox gözəl Təbriz miniatür məktəbimiz var. Bu məktəbdən çox uzaqlaşmışıq. Mən nağıllara illüstrasiyalar çəkəndə o miniatürlərə söykənirəm, rəngləri, cizgiləri oradan götürürəm. Dünya incəsənətinə bu cür daha maraqlı olarıq. Bu torpaqla nəfəs almalıyıq, dünyaya öz torpağımızın rəngini göstərməliyik. Bizdə kök var, sadəcə, onu inkişaf etdirmək lazımdır. Xalça sənətinin özü ən gözəl mücərrəd əsərdir, onu hələ oxuyub anlayan olmayıb. Dünya üçün muğam kimi, xalça sənəti də maraqlıdır. Qədim xalça sənətinin komponentlərindən istifadə edərək dünyaya yeni əsərlər təqdim edə bilərik. Hələ açılmamış qatlar çoxdur, axtarmaq lazımdır.

**– "Bakı-2015" Avropa Oyunlarının açılış və bağlanış mərasimlərində müxtəlif kompozisiyalar, miniatürlər sərgiləndi. Sizin fikrinizcə, biz bütün bunlarla dünyaya nə deyə bildik?**

– Mən bağlanış və açılış mərasimlərini izlədim. Hər ikisində seçilən yol, üslub düzgün idi. Bu konsepsiya ilə göstərdik ki, tariximiz var, incəsənətimiz var. Dedik ki, Nizami Gəncəvi bizim şairimizdir. Qobustan qayalarının təsvirindəki elementlər, simurq quşu maraqlı idi. Kompozisiyaların vizual tərəfini çox bəyəndim. Dünya bu səhnəni hər zaman görə bilmir, Avropa Oyunları bir fürsət idi. Azərbaycan mədəniyyətinin pasportu xalça, muğam və miniatür sənətidir. Bütün bunlarla dünyaya daha geniş yelkən açmaq olar.

**Sevinc FƏDAİ**

**Qədim vaxtlardan insanlar ayrı-ayrı bitkilərin xüsusiyyətlərinə bələd olmuş, onların köməyi ilə tutulduqları azarlardan xilas olmağa çalışmışlar.**

**İllər, əsrlər ötdükcə, xalq təbabəti ilə məşğul olan mütəxəssislər yetişdi və yazı mədəniyyəti ortaya çıxdıqdan sonra təbabətin təcrübələri qələmə alındı.**

**Müxtəlif müalicə üsullarına həsr edilmiş əsərlər yüzilliklər boyunca katib və xəttatlar tərəfindən köçürülür və kitabxanalarda saxlanılırdı.**

**Təbabət sahəsində yazılmış risalələr digər xalqların dillərinə tərcümə edilir və beləliklə, təbabət barədəki biliklər zənginləşirdi.**

**Orta əsrlərdə təbabətə aid çoxsaylı dəyərli əsərlər yazılıb.**

**Onlar ayrı-ayrı xəstəliklər, onların əlamətləri və müalicə üsulları, insan bədəninin xüsusiyyətləri, dərmanlar, ədviyyələr, sürtmə məlhəmləri, otlar, meyvələr, təbiblərə verilən məsləhətlərdən ibarət idi.**

**Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda elmin müxtəlif sahələrini əhatə edən əlyazmalar arasında təbabətə həsr edilmiş çoxlu sayda abidələr qorunub saxlanılır.**

**Onların arasında Zeynəddin bin Əbu İbrahim İsmail ibn Həsən ibn Əhməd ibn Məhəmməd Əl-Hüseyni Əl-Qorqaninin "Xəfi-əlayi" ("Xəstəliklər və onların müalicəsinin müxtəsər şərhi") əsəri xüsusi yer tutur.**

**Qeyd etmək lazımdır ki, Qorqani öz vaxtının tanınmış və müdrik şəxsiyyətlərindən olub. Mənbələrin verdiyi çoxsaylı məlumatlara görə, olduqca savadlı və dərin elmi biliyə malik olan Zeynəddin Əl-Qorqani ərəb və fars dillərini mükəmməl bilib, dünyanın bir çox alim və təbiblərinin əsərləri ilə yaxından tanış olub.**

**Tibbi dərindən bilən Qorqani dərmanlar hazırlayır, xəstələri müalicə edirdi.**

**Müasir tibb elminin yüksək səviyyədə inkişaf etdiyi bir zamanda xəstəliklərin təbii bitkilərlə müalicəsinə xüsusi diqqət yetirilir.**

**Belə bir zamanda "Xəfi-əlayi" kimi əlyazmaların əsaslı öyrənilməsinə ehtiyac artır.**

**Odur ki, qədim və zəngin keçmişi olan tibb tarixini öyrənib, gələcək nəsillərə çatdırmaq bizim müqəddəs borcumuzdur.**

**Zeynəddin Əl-QORQANİ**

# Xəfi-Əlayi

## (Xəstəliklər və onların müalicəsinin müxtəsər şərhi)

*(Əvvəli ötən saylarımızda)*

İkinci bab göz xəstəlikləri haqqındadır.

Oftalmiya xəstəliyi gözün selikli qişasının iltihabıdır.

Bu xəstəlik zamanı iltihab baş verir ki, nəticədə onun əsas əlamətləri kimi ağrı, ağırlıq və sancı halları olur.

Gözün selikli qişası gözlə görünmür. O, əzələlərdən təşkil olunmuş ağ və şəffaf ətdən ibarətdir. Selikli qişa gözün hər tərəfini əhatə edir və onu qoruyur.

Bəzi hallarda selikli qişanın iltihabı göz yanğısı ilə müşahidə olunur və bu zaman göz qapağında ağırlıq əmələ gəlir və o, çətin bağlanır.

Belə iltihab əksər vaxtda uşaqlarda baş verir.

Xəstəliyin əlamətlərinə gəlincə, oftalmiya xəstəliyi zamanı meydana çıxan baş ağrısı və göz yanğısı kimi hallar bədəndə səfralı maddələrə dəlalət edir. Başda və gözdə ağırlıq kimi əlamətlər isə bu maddələrin çoxluğundan xəbər verir.

Gözdə qızartı və göz sulanması qan çoxluğunun göstəricisidir.

Göz sulanmasının çox, qızartının isə az olması bəlğəmin əlamətidir.

Xəstəliyin səbəbi qan çoxluğu olarsa, ilk öncə iltihabın baş verdiyi tərəfdən baş damarından qan almaq lazımdır.

Ardınca orqanizmi yumşaltmaq üçün meyvə şirəsi ilə bənövşə dərmanı qəbul etmək lazımdır.

Ən sonda xəstəyə əzvay dərmanı, acı iyarəc dərmanı, quqaya dərmanı (acı yovşan cövhəri, məstəki ağacının kitrəsi, yem qarpızının toxumu və skamoniyadan ibarət olan dərmanı) verirlər.

Xəstəliyin səbəbi səfra çoxluğu olarsa, xəstə sarı mirobabanlar bişmişi və hind xurması ilə sifraq etməlidir.

Bundan əlavə, gözə ana südü damızdırarlar. Yumurtanın ağından ağ dərman düzəldib gözə çəkərlər. Həmin dərmana ana südü də qatmaq olar. Ana südü və qatılmış qafur dərmanı da xeyirlidir.

Duzsuz pendir, quzu kababı, keçi əti və yumurta sarısı belə xəstələrə faydalıdır.

Xəstənin göz qapağı üzərinə qızılgül yağından düzəldilmiş təpitmə qoymaq ağrını azaldır.

Oftalmiya xəstəliyi zamanı yumurtanın sarısı, arpa unu, çobanyastığı və bənövşə qarışığından təpitmə düzəltmək olar.

Əzvay, qırmızı səndəl, buynuzlalə dərmanı, arik palmasının toxumları və kitrəsi, tiryək, akasiya ağacının qatranı, quşüzümü suyu, kaşımotu suyu, keşniş suyu, kahı suyu və xaşxaş suyunu qarışdırıb gözə çəkirlər. Bu, güclü ağrını sakitləşdirir.

Xəstəliyə səbəb bəlğəmli maddələr olarsa, acı iyarəc, aqorik göbələyi, qızılsarmaşıq, türbəd ipomeyası və yem qarpızı toxumları ilə sifraq edərlər.

Kabil mirobalanları da xeyirlidir.

Xəstəliyin səbəbi sövdalı maddələr olarsa, acı iyarəc, qızılsarmaşıq, aqorik göbələyi, neft duzu, mirra (kamforanın qurumuş şirəsi), gəvən qatranını yunan güldəfnəsinin suyu və kətan toxumunun suyu ilə gözə çəkərlər.

Yunan güldəfnəsinin bişmişini gözə damızdırarlar.

Əgər xəstəliyin müddəti uzun çəksə, sulanma və qızarma azalmasa, bilmək lazımdır ki, bu, gözün qişalarında əmələ gələn bəd xıltların əlamətidir.

Bu zaman gözə sink filizi və sink oksidi (dərman və kosmetik vasitə kimi istifadə olunan sürtkü), nişasta və qurğuşun oksidi (sürtkü) çəkmək lazımdır.

Sadalanan bütün bu müalicə vasitələri gözün qaşınması, yanması, sulanmasına və titə xəstəliyinə (göz qarasına düşən ağ ləkə) kömək edir. Bu xəstəlik zamanı gözə qora və sumaq dərmanı çəkmək də xeyirdir.



Oftalmiya xəstəliyi zamanı qanalma, həcamət, işlətmə dərmanları və qırmızı dərmanlar xüsusilə xeyirdir.

Hamamda yuyunmaq və təmiz ağ şərab içmək də bu baxımdan faydalıdır.

Gözə qansızma gözün ağında əmələ gələn qırmızı nöqtələrdir, zərbə və bu kimi səbəblər nəticəsində əmələ gəlir.

Birinci əlacı baş damarından qan almaqdır.

Ət, şərab və şirniyyatdan çəkinmək lazımdır.

Bu xəstəlik zamanı bala göyərçinin damarını çərtir və isti qanı damcı-damcı gözə çəkirlər.

Əlacı xəstədən qan almaq və bu qanı çox axıtmaq, ispanaq, kudu, kahı və xiyar kimi soyuq, tər və lətif yeməklər yeməkdir.

Nişasta və ağ dərmanı gözə çəkmək, ana südünü gözə damızdırmaq da faydalıdır.

Zoqqultu ora verməzsə, gözdəki irin tam aradan qalxanadək gözə buxur dərmanını damızdırmaq və kül qoymaq lazımdır.

Ət, şirniyyat və sarımsaq yeməkdən çəkinmək məsləhətdir.

Gözə qora və sumaq dərmanı çəkmək xeyirdir.

Bundan başqa, gözə ana südü və təzə keşniş suyuna qatılmış arseni damızdırırlar.

Titə (göz qarasına düşən ağ ləkə) xəstəliyi zamanı göz damarlarına qan yığışır, gözdə qaşınma əmələ gəlir, xəstə asqırır, günəşə baxa bilmir və onun gözündən çoxlu su axır.

Əlacı baş damarından və alın damarından qan almaq, acı iyarəc dərmanı içmək, gözə qırmızı dərman, sürmə və qurğuşun oksidi çəkməkdir.

Bundan başqa, keçi ödü, qunduz xayasını göyərçin qanı ilə qarışdırıb, dərman düzəldir və gözə çəkirlər. Dərmanı gözdə bir müddət saxladıqdan sonra yuyurlar.

Gözdə yara xəstəliyinin əlamətləri sancı və zoqqultudur ki, belə hallar həm zəif, həm də şiddətli ola bilər. Digər əlamətlər göz ağında əmələ gələn qırmızı və göz bəbəyində əmələ gələn ağ ləkələrdir.

Bundan əlavə xəstənin başının altı hündür olmalıdır, onu çox danışdırmaq və yanında səs-küy salmaq olmaz.

Gözün qaşınması. Bu xəstəlik zamanı xəstənin göz qapağı qabıq bağlayır. Göz qapağının qabıqlanması aradan qalxanadək gözdə göynəmə olur.

Həmin yerə zəfəran çəkmək xeyirdir.

Həmçinin, pambığı bənövşə yağı ilə yağlayıb, gözün üzərinə qoyur və 8 saat saxlayırlar.

Sarğını açandan sonra gözə qırmızı dərman, yaşıl dərman və ya gülabla qarışdırılmış sumaq dərmanı çəkirlər.

Göz qapağında dərin çat əmələ gələrsə, bu zaman xəstəyə acı iyarəc dərmanı, yaxud ququya dərmanı və ardınca nar dərmanı verərlər.

Gözün sulanmasının səbəbi beynin soyuq məzaclı olmasıdır.

Belə xəstəlik zamanı göz önündə tüstü və qara nöqtələr görünür. Bu hallar uzunmüddətli olur.

Əlacı acı iyarəc və quqaya dərmanının vasitəsi ilə sifraq etmək, soyuq və tər qidalardan, şərab içməkdən, həddsiz toxluqdan və cimadan çəkinməkdir.

Bundan başqa, müalicə vasitəsi kimi hərarətsalan və yarasağaldan dərmanlardan da istifadə etmək olar.

Gecə korluğu xəstəliyinin əlacı iyarəc və quqaya dərmanı vasitəsi ilə sifraq etmək, soyuq tər təamlardan, şərab içməkdən, həddsiz toxluqdan və cimadan çəkinməkdir.

Sifraqdan sonra qarqara etmək lazımdır ki, rütubət beyindən çıxsın.

Həmçinin bu xəstəlik zamanı hərarəti salan və digər dərmanlardan istifadə etmək olar.

Gözdən yaşgəlmə belə xəstəlikdir ki, bu zaman gözdən arası kəsilmədən yaş gəlir və gözün küncləri daim nəm olur.

Əlacı bənövşə dərmanı, quqaya dərmanı və acı iyarəc dərmanını kiçik ətrifel dərmanına qatıb isti hamamda xəstəni sifraq elətdirməkdir.

Xəstə tərləyəndən sonra qora dərmanını işlətmək olar.

Tərkibində xurma, sarımsaq, soğan, badımcan və xardal olan təamlardan imtina etmək lazımdır.

Göz qapağının künclərində qaşınma və yanma halları zamanı acı iyarəc dərmanı, qızılsarmaşıq, neft duzu və quqaya dərmanı vasitəsilə sifraq, acı iyarəc dərmanı ilə qarqara etmək, şirin, acı və isti təamlardan çəkinmək lazımdır.

Hər səhər pərpərəng toxumu və iskəncəbin təam etmək xeyirdir.

Bundan başqa, eyni miqdarda təmizlənmiş mərci, qızılgül və turş narı döyüb gülaba qatdıqdan sonra isidir və bu qarışığı isti halda kirpiklərə çəkirlər.

Abkame (ayran, xəmir acıtması, sirkə və üzərrik toxumundan hazırlanır) və acı iyarəc dərmanı ilə qarqaranın da faydası var.

Həmçinin, Yəmən zəyi və döyülmüş qara üzümü kipriklərə çəkir, bir müddət saxladıqdan sonra yuyurlar.

*(Ardı gələn sayımızda)*

**Farscadan tərcümə edən:**
**Zemfira MƏMMƏDOVA**

# Xəlifəlik iddiasını gerçəkləşdirən sultan

# I SƏLİM

**Osmanlı imperiyası. Bu çoxmillətli və çoxdinli türk dövləti tarixin ən böyük imperiyalarından biri və bütün dünyada yaşayan türklərin qürur mənbəyidir. Dövlətin əsası 1299-cu ildə oğuzların Qayı boyundan olan Osman bəy tərəfindən qoyulub. Banisinin Osmanoğulları Bəyliyi adlandırdığı dövlət, sonralar nəhəng imperiyaya çevrilib – dünya tarixinə, siyasətinə böyük təsir göstərib. Üç qitəyə yayıldığı illərdə ən qüdrətli dövrünü yaşayan Osmanlı imperiyası mahiyyətcə əsası Səlcuqlar tərəfindən qoyulan Türkiyə dövlətinin ikinci mərhələsi hesab olunur.**

**Osmanlı sultanlarının həyatına nəzər salmaqda məqsədimiz bir türk imperiyasının yaranışı, mövcudluğu, dünya gücünə çevrilməsi kimi tarixi məqamları bir daha göz önünə gətirməkdir.**

## Trabzondan başlanan yol

II Bəyaziddən sonra hakimiyyətə onun oğlu Səlim gəldi. O, 1470-ci ilin oktyabrında anadan olmuşdu. Anası Dulqadiroğulları bəyliyindən olan Gülbahar Xatun idi. Hündürboy, enlikürək, çox sərt xarakterli insan olan Səlim, dövrünə görə yüksək səviyyəli təhsil almış, tarix, məntiq, astronomiya elmlərinə yiyələnmişdi.

Atası taxt-taca sahib olandan sonra Səlimi Trabzona sancaqbəyi təyin etdi. Burada Səlim həm dövlət işlərini öyrənir, həm də böyük alim Mövlanə Əbdülhəlim əfəndidən dərs alırdı.

Trabzonu idarə etdiyi illərdə qonşu dövlətlərlə danışıqlar aparır, bəzi hallarda isə onlarla münaqişəyə girirdi. 1508-ci ildə – Kutaisi yürüşündə Səlim Qars, Ərzurum, Artvin və başqa torpaqları Osmanlıya tabe elədi. Bu ərazilərdə yaşayan gürcülər islamı qəbul etdilər.

## Hakimiyyət uğrunda savaş

II Bəyazidin səkkiz oğlu var idi: Abdullah, Şahənşah, Aləmşah, Əhməd, Qorqud, Səlim, Mehmet və Mahmud. Əhməd, Qorqud və Səlimdən başqa hamısı atalarının sağlığında ölmüşdü. Səlim Trabzonda vali olanda Qorqud Saruhana, Əhməd isə Amasyaya nəzarət edirdi.

Şahzadə Səlim Trabzona valilik etdiyi illərdə əvvəl türkmənlərin, hərbi yürüşlərdə qazandığı uğurlardan sonra isə yeniçərilərin dəstəyini qazanmışdı. Ancaq bu nüfuz Bəyaziddən sonra hakimiyyətə gəlmək üçün yetərli deyildi. Osmanlı xanədanının yüksək mənsəbli əyanları onun qardaşı Əhmədi sultan kimi görürdü.



*(Şahzadə Qorqudun oğlu olmadığına görə taxta çıxmaq şansı yox idi. Şahzadə Şahənşah isə atasından altı ay əvvəl vəfat etmişdi).*

Səlim atasının ölüm xəbərini alan kimi Osmanlı səltənəti uğrunda mübarizəyə başladı. O, öz əsgərlərindən başqa Krım xanının ordusunun gücündən də istifadə etməyi qərara aldı. Səlimin ordusu Rumeliyə doğru yürüşə başlayanda onun yanında Krım xanının 350 əsgəri də var idi. Əsgərlərə xanın kiçik oğlu başçılıq edirdi. Üstəlik, yeniçərilər də ona dəstək olurdular…

Bir ay sonra Səlim Bursaya hücum edib, Ələddini şəhərdən çıxmağa məcbur elədi. Bundan sonra şahzadə Əhmədin tərəfdarı olan və onunla gizli məktublaşan sədrəzəm Qoca Mustafa Paşa edam edildi.

Səlimin yanındakı dövlət adamları tez-tez Əhmədə məktublar yazır, onu Sultan Səlimin üstünə yeriməyə həvəsləndirir, əgər Əhməd Səlimlə müharibəyə başlayarsa, ona dəstək olacaqlarını deyirdilər. Qoca Mustafa Paşanın öldürülməsindən narahat olan şahzadə Əhmədin tərəfdarları növbənin onlara çatacağından qorxur, Səlimi ən qısa zamanda devirməyə tələsirdilər.

## Yeniçərilər Səlimi hakimiyyətə gətirir

Şahzadə Əhmədin hökmdarlığını tanımayan paytaxtdakı yeniçərilər əyanların evini talan edib, Osmanlıya yalnız Səlimin sultan ola biləcəyini, ondan başqa heç kimə tabe olmayacaqlarını dedilər. Baş verənlər saray xadimlərini qorxuya saldı.

Əhməd bu xəbəri eşidən kimi Anadoluya qayıtdı. Bəyazid isə yeniçəriləri sakitləşdirmək üçün Şahzadə Qorqudu paytaxta dəvət elədi. Lakin onlar Səlimi Səlimin oğluna belə güzəştə getməyəcəklərini deyəndən sonra Osmanlı sarayı Səlimin özünü İstanbula dəvət etməyə məcbur oldu.

Bəyazid əvvəlcə səltənətdən əl çəkmək fikrində deyildi. O, Səlimə Şah İsmayılın üzərinə gedəcək ordunun komandanlığını təklif etdi. Səlim bu təklifi rədd edərək dedi: "Ordunun komandanlığını sultan eləməlidir". Bəyazid oğlunun imkanlarının genişliyini, ordu arasında nüfuz sahibi olduğunu görüb hakimiyyəti güzəştə getməyə məcbur oldu.

## Bəyazidin müəmmalı ölümü

Bəyazid taxtdan çəkilib istirahət etmək üçün Dimetokaya yollandı. Lakin o, yolda – Çorlu ətrafında təsadüfən vəfat etdi.

Bəyazidin ölümü ilə bağlı müxtəlif versiyalar var. Bu versiyalardan ən çox səslənəni onun Sultan Səlim tərəfindən zəhərlənməsi ilə bağlı olanıdır. Şahzadə Əhməd də Məmlük sultanına yazdığı məktubda atasının qardaşı tərəfindən zəhərləndiyini yazır.

## Sultanlığın ilk illəri

Səlim Osmanlı taxtına çıxandan sonra xeyli manеələrlə qarşılaşmalı oldu. Osmanlı sarayının nüfuzlu xadimləri Şahzadə Əhmədin əvəzinə Səlimin sultan olmasını həzm edə bilmirdilər. Hətta Əhməd Konyada hökmdarlığını elan etmiş, 1512-ci ilin iyununda oğlu Ələddinin əliylə Bursanı zəbt elətdirmişdi. Ələddini Bursanın valisini edam elətdirib, atasının adına xütbə oxutdurdu.

Əhməd saraydakı gizli tərəfdarlarının dəstəyi ilə Bursaya hücum eləsə də, şəhər ətrafındakı döyüşdə məğlub oldu. Daha sonra Səlim qardaşını əsir aldı və artıq Osmanlıda dəhşətli bir ənənə halı almış qərarını verdi: qardaşını edam elətdirdi!

Beləliklə, Səlim öz hakimiyyətinin təhlükəsizliyini təmin etdi, bir sultan kimi mövqeyini gücləndirdi və qarşısında duran məqsədlərə çatmaq üçün tədbirlər görməyə başladı.

## Çaldıran döyüşü

Sultan Səlim taxta çıxdığı illərdə Osmanlı imperiyası çətin bir dövr yaşayırdı. Bu çalxantının əsas səbəbi isə Şərqdəki şiə Səfəvi dövləti idi. Səfəvi dövlətinin mövcudluğu Osmanlının regiondakı hegemonluğuna təhlükə idi. Çünki yaxın ərazilərin Səlimin nəzarətindən çıxması Osmanlını qərb dövlətləri qarşısında çıxılmaz vəziyyətə sala bilərdi.

I Səlimlə Şah İsmayıl hər ikisi eyni vaxtda müharibə hazırlıqlarına başladılar. Səlim 1514-cü ilin baharında oğlu Süleymanı 50000 nəfərlik orduyla Anadoluda saxlayıb, özü səfərə çıxdı.

Osmanlı və Səfəvi ordularının ikisi də türk-müsəlman ordusu idi. Onlar uzun müddət bir-birilə qarşı-qarşıya gəlməli olmadılar, əvəzində ordu daxilindəki vəziyyəti öyrənmək üçün kəşfiyyat işə salındı. Uzunmüddətli qeyri-müəyyən vəziyyət çox uzun çəkmiş, orduda bəzi narazılıqlar başlamışdı. Əsgərlər arasında geri qayıtmaqla bağlı fikirlər səslənirdi. Onlar ümidsizliyə qapanmışdılar.

Ordu daxildəki narazılıqdan xəbər tutan Səlim əsgərlərin qarşısında çox sərt bir çıxış elədi. O, qəti geri çəkilmək fikrinin olmadığını, pozuculuq fəaliyyəti aparanları cəzalandıracağını dedi. Bu çıxışdan sonra Osmanlı ordusunun daxili nizam-intizamı bərpa olundu, komandanlıqlar sultana qeydsiz-şərtsiz tabe oldular.

Osmanlı ilə Səfəvi orduları 1514-cü ilin avqustunda – Çaldıran düzündə qarşılaşdılar. Osmanlının piyada qüvvələri, səfəvilərin atlıları daha çox idi. Lakin Şah İsmayılın topu yox idi. Elə döyüşün taleyini də odlu silahlar həll elədi – Səfəvi dövləti tarixinin ən acı məğlubiyyətinə uğradı.

Çaldıran döyüşünün nəticələrini aşağıdakı kimi qruplaşdırmaq olar:

1. **Bu döyüşdən sonra Anadolu əraziləri birdəfəlik Türkiyənin tərkibinə qatıldı.**
2. **Osmanlının şərq sərhədləri müəyyənləşdi.**
3. **Daxili çəkişmələrə başı qarışmış Avropa krallıqları bir müddət Osmanlı təhlükəsindən xilas oldu.**
4. **Səfəvi dövləti paytaxtı Təbrizdən Qəzvinə, Azərbaycanın mərkəzindən kənarlaşdırmağa məcbur oldu.**
5. **Türk tarixinin qara yarası olan Səfəvi-Osmanlı müharibələrinin əsası qoyuldu.**

## Sultan Səlim necə xəlifə Səlim oldu?

1516-cı ilin avqustunda Hələbə hücum eləyən Sultan Səlim heç bir müqavimətlə qarşılaşmadan şəhəri təslim etdi. Daha sonra Livan əmirləri təslim oldular. Həmin ilin dekabrında isə Qüds fəth edildi.

1517-ci ilin yanvarında Qahirə tutuldu. 1517-ci ilin dekabrında xüsusi mərasimlə Qahirəyə girən Sultan Səlim Misir məmlüklərinə tabe olan Abbasi xəlifələrinin buradakı hakimiyyətinə son qoydu. Qahirədə heç bir üsyan qalxmasın, yerli əhali direniş göstərməsin deyə, sultan siyasi gediş elədi: o, təslim olan üsyançıların əfv olunacağına söz verdi. Bu bəyanatdan sonra müəyyən müqavimət cəhdləri olsa da, Sultan Səlimin ildırımsürətli fəthlərinin, onun xəlifəliyə gedən yolunun qarşısını almaq mümkün olmadı.

*(sonu növbəti sayımızda)*

**MÖVLUD**



**Həsən HAMİ**

**Mərakeş Krallığının Azərbaycandakı səfiri Həsən Hami siyasi elmlər doktorudur.**

**O, professor köməkçisi və beynəlxalq münasibətlər üzrə müstəqil şərhçi kimi bir neçə il fəaliyyət göstərib.**

**Cənab Haminin fransız dilində altı, ingilis dilində bir romanı, beynəlxalq münasibətlərin nəzəriyyəsi ilə bağlı üç dərsliyi və 1996-2014-cü illər arasında ərəb dilində iki şeir kitabı nəşr olunub.**

**O, ərəb, fransız, ingilis dillərində kifayət qədər yaxşı danışır və yazır. Həmçinin, ispan dili üzrə praktiki biliyə malikdir.**

**Kitabları:**

**Fransız dilində romanları: “Məkik” (1997), “ Əks istiqamətdə qaçış” (2005), “Sentyabrda odlu qar yağdı” (2004), “Şəlalələrin nəğməsi” (2006), “Kaktusun göz yaşları” (2007), “Məsafəli intihar” (2013).**

**İngilis dilində romanı: “Göy qurşağı üzərində külün işartıları”.**

**Fransız dilində beynəlxalq münasibətlərin nəzəriyyəsi ilə bağlı esseləri: “Məğribdə münaqişə və əməkdaşlığın məntiqi” (2003), “Transmilli münasibətlərin mənəvi ölçüsü: Mərakeş və Böyük Səhradan cənubdakı Afrika” (2005), “Ərəb ucqarlarında məram və güc” (2013).**

**Ərəb dilində şeirləri: “Susuzluq sayıqlamaları” (1999), “Üzümlüklərin qarabasması” (2005).**

# Gülsümün

## (hekayə)

Adi, hətta bir az darıxdırıcı hallarda belə, Ruşten adətən sakit davranır. Bu da təbiidir, çünki o, həlim, hamıyla rahat yola gedən bir insandır. Tək-tük hallarda gileylənər, narazılığını çox büruzə verən deyil. Nə olur-olsun, özünü həmişə təmkinli aparır. Oxuduğu serenadalara görə dostlarının yanında əməlli-başlı rəğbət qazanıb: “Siz də cəhd eləyin, bədəninizi duymağa çalışın, yaxınlığda eşitdiyiniz musiqi səmadan gələn rayihəyə bənzəyir!” Amma bu səhər yuxudan elə dilxor oyanmışdı ki, vanna otağına gedəndə rastına çıxan hər kəslə mübahisə etməyə hazırıydı... Əslində, tezbazar hamamlanmağı xoşlayır, tez-tez duş qəbul edir, imkan tapanda buxar hamamında dincəlirdi, amma “bədənindən xoş iy gəlsin” - deyə suyun altına girənlərdən deyildi. Xoşbəxtlikdən bu səhər qarşısına çıxan olmadı, hətta Şəmsiyyənin təzəlikcə götürüb saxladığı pişiyə də rast gəlmədi.

Öz-özünə deyinirdi: “Burada olmaqdan zəhləm gedir. İşə getməkdən də zəhləm gedir. Hər şeydən zəhləm gedir. Hər şeydən! Wikileaks, hətta facebookdan belə!”

Ruşteni belə məyus eləyən nə idi? Cavab tapmaq çətindir. O, Bakıda, Nərimanov rayonunda, varlıların saray kimi dəbdəbəli evləri ucalan ərazidə yaşayır. Mehriban qonşuları var. Ən başlıcası da Şəmsiyyə ilə – gözəl və cazibədar bir qadınla evlənib.

Duş qəbul eləyərkən gözucu bayıra baxır. Pəncərədən təmiz hava gəlirdi. Hava haqqında məlumata görə, bu gün güclü qar yağacaqdı. Artıq başlamışdı. Son iki ildə Bakı ağ örtüyə həsrət idi. Di gəl, qar yağanda da aləm bir-birinə qarışır. Buna görə heç bilmirdi qara sevinsin, yoxsa məyus olsun. Əgər möhkəm qarlasa, məcbur qalacaqdı ki, bayıra çıxmasın. Amma bütün günü evdə oturmaq istəmirdi. Onsuz da son altı ayda əsəbləri tamam gərilmişdi. Kefi heç düzəlmirdi. Bu yandan da qar!..

Taleyi haqda düşüncələrdən onu Şəmsiyyənin oxuduğu mahnı ayırdı. Səs çox məlahətliydi, üstəlik Şəmsiyyə pianonu da ustalıqla dilləndirirdi. İstəsə, gözəl müğənni olardı… Əslində, Bakıda az qala, hər kəsin musiqi bacarığının olması Ruşteni valeh etmişdi. Bakı həqiqətən də incəsənət, musiqi və ədəbiyyat şəhəridir. Elə buna görə də Bakıdan ayrıla bilmir, sanki şəhərin yenicə tikilən divarlarına sement kimi yapışıb qalmışdı.

Şəmsiyyə onu tələsdirir, səhər yeməyinə çağırırdı, bir yandan da Gülsümü hazırlayırdı. Qızları Gülsüm artıq geyinmişdi – qız bunu Sindbadın dalınca qaçmaqla bildirirdi.

Hava haqqında məlumat özünü doğrultdu: qar gücləndi. Əslində, artıq neçə saatdı aramsız yağırdı. Bu, yaxşı heç nə vəd eləmirdi. Ruştenin köməkçisi zəng edib soruşdu ki, ofisə gələcək, ya yox. Nə cavab verəcəyini bilmir, Şəmsiyyə isə bu gün işə getməyi məsləhət görmür. Onu yaxşı başa düşür, çünki qar yağanda şəhərdə həyat donur.

- Nə iş görəcəksən? - Şəmsiyyə soruşur.

- Oturub filmə baxacam, - Ruşten cavab verir.

- Təzə nəsə seçmisən?

- “Meq və Tom”-a yenidən baxaram.

- “You've got mail”[1]dən mənim də xoşum gəlir. Gəl, birlikdə baxaq.

- Yaxşı fikirdir.

- Eyni filmə təkrar baxmaqdan bezmirsən?

Gülsüm süd içə-içə onları müşahidə edir. Ruşten yerindən qalxıb geyim otağına keçir. Fikrini dəyişib: əlində kitab geri dönür.

- Yaxşısı budur, kitabı oxuyub qurtarım.

- Kitab nədən bəhs edir? - Gülsüm soruşur.

- Adı “Qızıl Buynuzdan olan qız”dır. Romandır, Qurban Səid yazıb, “Əli və Nino”nu yazan.

- Tanımıram. Əsərdə səni cəlb edən nəsə var?

- Böyüyəndə bilərsən, - Ruşten cavab verir.

- Böyüyəndə niyə? Yəni onu anlamaq belə çətindir?

- Atanı rahat burax! Niyə də gedib pişiyin Sindbadla oynamaysan? - Şəmsiyyə qızından soruşur.

- Kefim yoxdur! Bu evdə heç kimin kefi yaxşı deyil. Qardan xoşum gəlmir. Üşüyürəm. Bəlkə soyuqlamışam…

Şəmsiyyə otağın küncündəki kompüterə tərəf gedir. Bu kompüter ümumidir; mətbəxdə yemək yeyəndə, qonaq otağında oturanda ondan istifadə olunur. Bu daha rahatdır. Halbuki hamının laptopu var.

Axır vaxtlar Şəmsiyyə İnternetdən yaman çox istifadə etməyə başlayıb. Sanki yenidən dönüb olmuşdu yeniyetmə bir qız. İşinin ustası olduğundan dostları, hətta bədxahları da onu tərifləyirdi. Əslində istəməyənləri çoxuydu.

Bəziləri keçmiş əri Farizdən ayrıldığına və Ruşteni ailəyə gətirdiyinə görə Şəmsiyyəyə qənim kəsilmişdi. O isə son günlər Facebook-la tanışlığa başlamışdı, ilk dostluğu da ona ən yaxın rəfiqəsi Nigar göndərmişdi. İndi bura qoşulduğuna görə heç də təəssüflənmir. Qəribədir, yalan informasiya verəndə insanlar əsl adlarını gizlədirlər.

Ruşten də İnterneti xoşlayır, ancaq onun maraqları tamam başqadır: məqsədi hər hansı firmanın biznesinə müdaxiləni özü üçün uğur bilən hakerləri izləməkdir. Nə vaxtsa, özü də haker olmuşdu. Yaxşı iş deyil! Sadəcə uşaq ağlı, çünki görülən iş mənasızdır… Digər tərəfdən, o həm də informasiya texnologiyaları yaradıcıları tərəfindən hazırlanan oyunu oynayır. Bu, onların iki mininci ilin problemi[2] barədə danışdıqları zaman baş vermişdi. Heç nə olmadı.

Onlar eyni qayda ilə vaxtilə ulduz müharibələri və kosmosun zəbt edilməsi oyunlarını da yaratmışdılar. İndi Wikileaks-la da eynən belə edirlər. Allahım! Necə olur ki, Wikileaks bir anda dünyanı baş-ayaq çevirir? Yaxşı, deyək ki, Ruşten bu oyunu almır. İnformasiyanın sızması həmişə murdar müharibənin bir hissəsi olub, Wikileaks də həmin şeydir. Bəs qapazaltı kim olacaq: qurban, yoxsa qalib?

İndi Ruşten mütaliəyə girişib. Gözəl əsərdir! Hardasa səksən il qabaq yazılıb, amma indiki həyatla necə də səsləşir! Eyni səhvə yol verməyin bir suçumu var? Ətrafda baş verənlər intriqaya bənzəyir! Sekülarizm, müasirlik, bərabərlik, özünə hörmət, din və mədəniyyət bir-birinə zidd olan hissələrin birlikdə olduğu səbətdir. Ruşten bir az nəfəsini dərir, xəyallar onu uzaqlara aparır. Xəzər və bu regionun bütün tarixi, yaşamaq, var olmaq uğrunda aparılan mübarizədir. Bəs burada özünün nə işi var?

Telefon zəng çalır. Şəmsiyyə qalxıb dəstəyi götürür. Zəng edən anası Qənirədi. Ruşten kompüterə tərəf gedən Gülsümü qabaqlayır: “Kompüter mənə lazımdır”. Kompüter uğrunda mübarizə aparırlar. Amma Ruşten əl saxlayır, çünki ekranda Şəmsiyyənin hələ də açıq olan Facebook səhifəsi gözünə sataşıb.

- Mənim də Facebook səhifəm var.- Gülsüm deyir.

- Nə vaxtdan? - Ruşten soruşur.

- Hamı necə, mən də elə… Hamının başladığı vaxtdan.

- Ananın bundan xəbəri var?

- Onun nə işinə qalıb! Onun kimi mənim də Facebook səhifəm var. Sənin də mənim kimi Facebook səhifən var. Oxuya bilmədiyin Facebook. Bəzən mən də oxuya bilmirəm. - Gülsüm ona sataşır.

- Bax və Facelook!

- Sən “Facelook” deyirsən? Nə demək istəyirsən?

- Sadəcə bax və Facelook! Sifətə bax və oxu...!

- Çox gözəlsən!

- Necə yəni çox gözəlsən?

- O qədər gözəlsən ki, səni bir dəfəyə uda bilərəm!

- Amma nə dediyimə baxmayaraq, məni çox istəyirsən!

- Nə demək istəyirsən?

- Bilmək istəyirsənsə, bax və üzümdən oxu.

Ruştenin mübahisəyə nə vaxtı, nə həvəsi var. Təəccüb içindəydi: Şəmsiyyənin Facebook səhifəsində xeyli dostu vardı. Qəribədir, Facebook səhifəsinin olduğunu ona heç vaxt deməmişdi. Gözucu nəzər salsa da, onun yüzlərlə şəkil göndərdiyini də gördü. Şəmsiyyənin Facebook səhifəsinə gizlicə göz gəzdirdiyinə və hamısını gördüyünə görə çox narahat oldu. Bir başqa məsələdə “burda nə var axı” deyə bilərdi, amma indi özünü ələ ala bilmirdi. Gülsüm ondan göz çəkmirdi. Ruşten kitabı yenidən əlinə aldı, amma oxumağa həvəsi qalmamışdı. Həqiqəti ört-basdır eləməyin adı yoxdu; o, informasiya texnologiyaları erasında yaşayırdı. Yaxşı, indi neyləməli?..

Şəmsiyyə anasının salam göndərdiyini, gələn cümə şam yeməyinə buyuracağını bildirdi. Elə olur ki, Qənirə onlarda qalır. Onun gəlişinə Ruşten elə də sevinmir, çünki qaynanası, necə deyərlər, burnunu hər yerə soxur, aləm bir-birinə qarışır. Hələ bunlar bir yana, iki ayağını bir başmağa dirəmişdi ki, bəs qoy Şəmsiyyə “Avroviziya -2012” mahnı müsabiqəsinin ilkin seçimlərinə qoşulsun. Ruşten onun evli qadın olmasını xatırladanda isə, qaynanası ötənilki qalibin də ailəli olduğunu vurğulayırdı… Söhbət gəlib bu yerə çatanda Ruştenin susmaqdan başqa çarəsi qalmırdı, əslində isə, qaynanasının ortalıqda ora-bura fırlanmasından ürəyi bulanırdı. Qənirə rəssam olmaqla yanaşı, həm də keçmiş elmi işçiydi, vaxtilə milli özünüdərk məsələsində ciddi rol oynamış bir neçə əsəri – ərəb, fars və rus əlyazmalarını redaktə etmişdi və özünə elə gəlirdi ki, qızının həyatına müdaxilə etməyə haqqı çatır.

Yağan qar Ruşteni lap hövsələdən çıxardı. O, kitabı təzədən əlinə alıb oxumağa başladı. Əsərin qəhrəmanı eyvanda əyləşərək fikrə dalıb. Görəsən, bu qadın öz varlığından üz çevirsə, nə baş verər? Bəs keçmişindən imtina etsə, necə? Bu, günahmı sayılar? Heç vaxt haqqında eşitmədiyi rəssamlar, məktəblərin və ehkamların müxtəlifliyi onu dəlilik həddinə çatdırıb. Buna baxmayaraq, bəxti də gətirib: ötüb-keçən ömrə boylanmaq və öz marağını üzə çıxarmaq imkanı qazanıb! Bəxti gətirib ki, onun qayğısına qalan, əlindən tutub irəli aparmağa çalışan atası var. Əsərin qəhrəmanı çətin vəziyyətdən öz fantaziyası sayəsində çıxa bilir.

- Günorta yeməyinə nə istərdin? - Şəmsiyyə soruşur.

Ruşten real həyata qayıdır. Nahar? Yenə yemək!? Hər şey yeməklə bağlıdır. Hətta oxuyanda belə, kağız üzərində göz önünə yemək gəlir. Yaxşı ki, “Qızıl Buynuzdan olan qız” etiraz edir. Yemək mədənin doldurulması prosesidir, amma baş boşdursa, qarnı doldurmağın nə faydası?

- Yüngül yemək olsun. Dovğa bəsimdir, - Ruşten deyir.

- Ata, pəhriz saxlayırsan? - Gülsüm qımışır.

- Heç də yox, dahi insan!

- Dahi olmaq xoşuma gəlir.

- Oxuyanda diqqətimi toplamağa çalışıram, ayrı heç nə barədə düşünmürəm.

- Yaxşı, razılaşıram - deyir.

“Gülsüm ağıllı qızdır, yox, qızıldır” – bu dəm kitab Ruştenin əlindən düşür. O, əsəbi halda vurnuxur, özünə heç cür yer tapa bilmir. Qərara gəlir ki, bir az havaya çıxsın…

- Yaxşı görünürsən, ata! Görüşə gedirsən, yoxsa ayrı işin var?

Ruşten hazırlaşıb qapıdan çıxmaq istəyəndə Gülsümlə rastlaşır.

- Elə də demək olar. Niyə soruşursan ki?

- Atam deyilsən? Yoxsa yenə məndən imtina edəcəksən?

- Səndən heç vaxt imtina etməmişəm, etmərəm də! Səni çox istəyirəm.

Ruşten bu qıza bəslədiyi hisslərindən əmin deyil. Gülsüm çox gözəldi, amma yer üzündə Ruşten üçün onun anasından sevimli heç kim yoxdu. Bu gözəl xanımla bir neçə il qabaq rastlaşmışdı. Ağır boşanma prosesindən sonra yazıq təzə-təzə özünə gəlirdi. Ona görə də Ruştenə elə gəlirdi ki, o, bu ailənin qayğısına qalmaq üçün mələklər tərəfindən göndərilib. Amma indi öz düşüncələrinə elə də əmin deyildi. Baxmayaraq ki, Şəmsiyyə həmişə ona yaxşı dost olub.

Şəmsiyyə əslən Qəbələdəndir. Bu rayon xaricdə Rusiya tərəfindən icarəyə götürülmüş radiolokasiya stansiyası, bir də Obama adlı vətəndaşı ilə tanınır. Bu Obama haqqında çoxlu lətifələr danışılır. Deyilənə görə, Amerika prezidenti Moskvaya səfər edəndə yolüstü Qəbələdə dayanıb, istirahət edib… Əlbəttə, bu bir zarafatdır, amma radiolokasiya stansiyası Moskva ilə Vaşinqton arasında real ixtilafın olduğunu, insanlara daim xatırladır. Bütün bunlar Şəmsiyyəni əlbəttə ki, maraqlandırmır.

- Ata, mən də səninlə görüşə gedə bilərəm?

- Gedə bilərsən, niyə də yox?

- İkiniz də mənasız işlərlə məşğul olursunuz, - Şəmsiyyə etirazını bildirir. - Bax, qısqanaram ha!..

- Ana, sən hara, qısqanmaq hara? Sən hirslənə bilərsən, pul qazana bilməyəndə kefin bir az pozular, amma heç vaxt qısqanmazsan! Heç vaxt! - Gülsüm gülür.

Gülsümün dediklərinin hamısı doğru ola bilməzdi. Artıq ölkədə on il, bəlkə daha çox yaşayan Ruşten bu üçtərəfli ünsiyyətin möhkəmlənməsinə çalışırdı. O elə ilk gündən Azərbaycanda məskən salmağa can atır, həyatdan zövq almaq üçün əlindən gələni edirdi. Vaxtilə jurnalist və bacarıqlı iqtisadçı kimi o, Birləşmiş Krallıqda və Birləşmiş Ştatlarda bəzi nüfuzlu firmalarda çalışıb. İndi isə, Qafqaz və Mərkəzi Asiyanın bu hissəsində baş verən dəyişikliklərə şahid olmağa maraq göstərirdi. Gördükləri, müşahidələri onu həyəcanlandırırdı:

insanlar milli xüsusiyyətləri bərpa etməyə maraq göstərir və əsrlər boyu mövcud olan mədəni qarşıdurmaların həllinə hazır idilər. Ruştenə dünya adamı adını vermək olar. Belə bir ifadə Azərbaycan cəmiyyəti üçün heç bir məna kəsb eləmir. Ruşten Şəmsiyyəyə ilk dəfə evlənmək təklifi edəndə onun yazıq günə düşməsi barədə danışmağı çox xoşlayırdı. İnsana gülmək heç də təvazökarlıq əlaməti deyil. Əksinə, bu, onun ən çox nifrət etdiyi axsaq ördəyin oyununa bənzəyir. Mədəniyyətə və ya sivilizasiyaya inteqrasiya etməyin hər şeydən üstün olduğunu onun qədər heç kim anlaya bilməz. Bu, hər yerdə belədir, amma Ruşten assimilyasiyanın necə ikiağızlı bir xəncər olduğunu insanlara anlatmaq istəyirdi. Yaxşısı inteqrasiya etməkdir, nəinki assimilyasiyaya uğramaq…

- Nə deyim axı?.. Siz korsunuz, heç nəyi görmürsünüz.

- Kor? Necə yəni?

- Bu, tanımadığın adamla görüşə getməyə bənzəyir, - Gülsüm cavab verdi.

Belə dialoqlar Ruştenlə Gülsümü bir-birinə doğmalaşdırırdı. Şəmsiyyə Ruştendən eyni diqqət və qayğını görməsəydi, heç vaxt buna dözməzdi. Ruşten də əsla inciməzdi. O, təsərrüfatla məşğul olmaq üçün torpaq sahəsi almaq istəyini dilə gətirdiyi anı xatırlayır. Özü ala bilməzdi, çünki qanuna görə, xarici vətəndaşa torpaq almağa icazə verilmir. Torpağı ya Şəmsiyyənin, ya da Gülsümün adına sənədləşdirməli idi. Amma Fariz buna etirazını bildirdi. O, Şəmsiyyə ilə yenidən bir damın altına yığışacaqlarına hələ ümidini itirməmişdi. Bakıda dedi-qodu sürətlə yayılırdı. Fariz eşitmişdi ki, Şəmsiyyə ilə Ruştenin

- Böyüklərin mübahisə etməyə əsasları olmayanda lap uşaq kimi danışırlar. Gözləyəcəm. Nə edəcəksən ki? Şapalaqlayacaqsan? Bəlkə ac saxlayacaqsan? Əsas məsələ budur ki, görüşünüz var. Hər ikinizin!

- Niyə narahatsan ki?

- İstəmirəm sizin münasibətiniz pozulsun. Ruşten yaxşı adamdır.

- Hardan bilirsən? Axı o, sənin doğma atan deyil.

- Doğma ata, əsl ana nə deməkdir axı? Bir ətrafına bax, oyan, Şəmsiyyə!..

Ruşten Gülsümün həyatına sadəcə bir ögey ata kimi daxil olmamışdı. O, Gülsümün yaxın dostuydu, hər axşam ona nağıl danışar, qız yuxuya getməmiş yatmazdı. Ruşteni ilk dəfə Gülsümlə tanış edəndə Şəmsiyyəyə elə gəldi ki, qızı illərdir onu tanıyır. O çox yaxşı, amma utancaq adamıydı. Elə ilk gündən Ruşten Gül-

“Yəqin, indi heç kim məni narahat etməz, filmə rahat baxa bilərəm. Hər həftəsonu Ruştenlə Şəmsiyyənin bu filmi maraqla izləməyinin səbəbini tapmalıyam, gözləyə bilmərəm”, - Gülsüm öz-özünə deyir.

O, Ruştenin bir həftə əvvəl həracdan aldığı divanda oturub Şəmsiyyənin dodaq boyası ilə oynaya-oynaya videonu qoşdu. Şəmsiyyə bilsəydi, onu öldürərdi. Amma indi Gülsümün heç nə vecinə deyildi.

“Coe Ketlinə məktub yazır, onunla dilxoşluq etmək istəyir. Ketlin hisslərinə şübhə ilə yanaşır və özünü çaşdırır, çünki Coe həqiqətən də onunla görüşmək istədiyini var gücü ilə ifadə etməyə çalışır”.

- Get ələ keçir onu, Coe, - Gülsüm qışqırır.

Deyəsən, Coe ona qulaq asmır.

Təzədən ayağa qalxıb rəqsə başlayır. Rəqs bir neçə dəqiqə davam edir. Şəklin yanına qayıdır və qəfildən onu ayağı ilə vurur. Mürəkkəb dağılıb gözəl Şəki xalçasını bulaşdırır. Gülsüm Sindbadı tutur, quyruğunu yaşıl rəngə boyayır, qalan boyanı birinci ağacın üzərinə sürtür. Deyəsən, oyun Sindbadın xoşuna gəlir. Sindbad qaçmağa başlayır. Sindbadı saxlamaq artıq çox gecdir! Gülsümün heç vecinə də deyil. Bundan pis nə olacaq? Son zamanlar valideynlərinin qəribə hərəkətlərindən təngə gəlib. Onlar Gülsümün qanmaz olduğunu düşünürlər. Heç də belə deyil! Gülsüm baş verənləri çox gözəl anlayır. Arzular qalası yıxılmaq üzrədir…

Bu, Ruşten və Şəmsiyyənin Facebook sindromuna tutulduqları an başladı. Onların qonaq otağındakı böyük kompüterdən deyil, şəxsi laptopdan istifadə etməyə başladıqları ana kimi

# alatoranda rəqsi

Hə, o, Şəmsiyyəyə evlənmək təklifini bildirdi. Şəmsiyyə razı olduğunu, amma atasının da fikrini öyrənməyin vacibliyini xatırlatdı. Hər şey ona gün kimi aydın idi. Amma şirinçay ona qismət olmadı. Atanın fikrini soruşanda o da qızının fikrini öyrənəcəyini söylədi; qızı isə “yox” dedi. Ruşten rədd cavabını adi çay içəndə aldı. Bu, onun Qəbələdə ilk ümidsizliyi idi. Bu məsələdə heç kimin günahı yoxuydu: nə rusların, nə amerikalıların, nə də Qəbələdən müşahidə edilməsi düşünülən iranlıları, çinliləri qınaya bilərdi. Ruşten düşündü ki, Şəmsiyyə ilə ailə qurmaq arzusundan əl çəkməlidir. Səhv etmişdi! Bir həftə sonra Şəmsiyyə təklifi qəbul etdiyini bildirdi. Bəs niyə bir həftə əvvəl yox? O, qohum-əqrəbayla məsləhətləşməli, birinci evlilikdən olan qızı Gülsümlə yeni atasını qəbul edib-etməyəcəyi haqda danışmalı idi. Ruşten onda bildi ki, Şəmsiyyə yenicə boşanıb, əri də hələ buralardadır.

- Nə demək istəyirsən, Gülsüm?

- Heç, sadəcə fikirdir də, söyləyirəm. Bəzən həvəsləndirən, bəzən də xəbərdarlıq edən. Amma gecikirsən...

- Bu artıq adamı əsəbiləşdirir! Sözünün canı nədir?

- Özəl məsələdir!

- Kimin üçün özəldir?

- Hamı üçün özəl bir şey, özəl olan kimi!

- Anlamadım. Amma yaxşısı budur danışmayasan.

- Qoy danışsın! Uşaqlar üçün şou göstərmək vaxtdır! - Ruşten dilləndi.

- Düşünürsünüz ki, “nənəmin balasıyam”? - Gülsüm soruşdu.

- Onu demək istəmirdim. Ancaq bir az çaşqın vəziyyətdəyəm. Niyə sən hər söhbəti İnternetə gətirib çıxarırsan? Nə sözün var, açıq de…

münasibətləri, necə deyərlər, kağız üzərindədir. Ona görə də fikirləşirdi ki, Şəmsiyyə ilə barışıb onu şəhərdən uzaqlaşdırmalıdır. Amma Ruşten də inamını itirməmişdi. O əmin idi ki, Gülsümlə onun arasında yaranan doğma münasibət gec-tez Şəmsiyyənin ürəyindəki buzu əridəcək…

Ruşten evdən çıxan kimi, Şəmsiyyə də hazırlaşmağa başlayır. Yüngülvari makiyaj edir, rəfiqəsi Nigarın hədiyyəsi olan sevimli ətrindən bir-iki damcı vurur. Gözəlliyinə şübhə etməsə də, güzgü qabağında çox vaxt keçirirdi. Hətta ona “Avroviziya 2012” ərəfəsində keçirilən “Miss Azərbaycan” yarışmasına müraciət etmək tövsiyə olunmuşdu. Bəziləri onun bu yarış üçün bir az yaşlı olmasını söyləyirdi. Əlbəttə ki, cəfəngiyyat idi, çünki cəmi otuz yaşı vardı. İnsanlar qızların əyalətlərdə erkən yaşda ərə getdiyini unudurlar. Bir də axı, niyə də iştirak etməsin? Şəmsiyyə yarışa qoşularsa, qısa bir zamanda tanınar, bu da onun işinə müsbət təsir göstərər.

- Sənin də görüşün var, Şəmsiyyə? - Gülsüm soruşur.

- Sən mənə Şəmsiyyə deyirsən? Bu nə cəsarətdir belə? Mən sənin ananam! - Şəmsiyyə bozarır.

- Qadınları fərqləndirməyə nə ehtiyac var! - Gülsüm odun üstünə yağ tökür.

- Özünü necə aparmaq lazım olduğunu sənə öyrədərəm. Səni belə eləyən Ruştendir. Amma bu heç onun da günahı deyil…

- Onda kimin günahıdır, Şəmsiyyə?

- Məni lap hövsələdən çıxardın! Qoy qalsın, səninlə qayıdanda danışarıq…

sümlə dostlaşdı, azərbaycanca bir neçə kəlmə öyrəndi. Öyrəndiyi sözləri məzəli şəkildə durmadan təkrar edirdi…Gülsüm gözəl anlayırdı ki, Ruşten də sakit bir sığınacaq axtarır. Şəmsiyyə sanki onu sevmirdi, sadəcə, əcnəbini evinə gətirməklə qohumları qıcıqlandırmaq istəyirdi… Çoxlu yaxşı cəhətləri olan, amma Gülsümün babasının fikrincə, o qədər də dərin təsir bağışlamayan birini seçmişdi Şəmsiyyə. Gülsüm məktəbin tənbəl uşaqlarından idi. Atasına – Farizə çox hirsli idi; atası çox içir, hələ bu halıyla məscidə də gedirdi… Odur ki, dedi-qodu bütün məhəlləni bürümüşdü. Hə, atası yaxşı adamdı, amma başı qarışmışdı itirilmiş arzusunun dalınca qaçmağa… O, əsl bakılıdır, burada yaşadıqlarından, tanış-bilişlə həyatın ləzzətini çıxardığı gözəl günlərindən danışmağı xoşlayır. Sonra da xatırladır: indi başınız dərddədir, çünki qohum kimi görünən xarici vətəndaşla qəfildən üz-üzə gələ bilərsiz və sizi aldatmayınca, o heç yerə çıxıb gedən deyil. Fariz, əlbəttə, məsələni şişirdir.

Bəzən kişilər axmaq, ya da nikbin olmadıqları ilə razılaşırlar. Ketlin Coeya olan marağını mağazada işləyən üç köməkçisi (Stiv, Cin və Hiter) ilə bölüşür, onlar da Ketlinə təskinlik vermək üçün əllərindən gələni edirlər. Amma Ketlin inanmır. O bir şeyi bilir: özəl kitab mağazasını bağlamalıdı, çünki bir qapı o yanda təzəlikcə böyük kitab mağazası – Fox Books açılıb.

- Necə də uğursuz adamsan, Coe! Get ələ keçir onu! - Gülsüm artıq dözə bilmir, özünü elə göstərir ki, guya Coe onun heç vecinə deyil. Ya da ola bilsin, qorxur. Gülsüm onun köməkçilərinə də hirslənib. Ona ürək-dirək verib addım atmağa həvəsləndirmək və bu virtual əlaqənin gerçəkləşməsinə kömək etmək əvəzinə, məyus olurlar, ümidsizliyə qapılırlar. Dostluq bağlarını insanların bu şəkildə məhv etmək gücündə olmasını sübut etmələrini Gülsüm anlamır.

Gülsüm videonu söndürür. Ağ bir vərəq götürüb şəkil çəkməyə başlayır. Əvvəlcə mürəkkəblə kağızın üzərinə sarı, sonra qara, daha sonra mavi damcılar salır. Siluet, sonra da ona doğru boylanan tülkü sürüsünün şəklini çəkir. Vərəqin yuxarısında yerə baxan bir cüt göyərçin çəkib, ayağa qalxır və rəqs etməyə başlayır. Sonra silueti silib, yerində ağac şəkli çəkir. Tülküləri ağacın yanından bir az uzaqlaşdırır, onlar göyərçini görə bilmirlər.

işlər yaxşı gedirdi. Əvvəllər hamısı birlikdə oturub söhbətləşər, ötüb-keçənləri yada salar, hətta xarici mətbəx kitablarından müxtəlif yeməklərin hazırlanma qaydalarını qeyd edib, əlüstü onu bişirməyə girişərdilər… İndi hətta evdə səslənən musiqi də dəyişmişdi. Muğamın pərəstişkarı olan Şəmsiyyə “fusion” və caz musiqisinə qulaq asırdı. Ruşten caz və Mərkəzi Asiya ölkələri musiqisini, məsələn, tacik, özbək, türkmən və qırğız musiqisini dinləməyə üstünlük verirdi. Arada Sindbad da öz payını alırdı. Yazıq heyvanı gündə bir neçə dəfə bayıra qovurdular, çünki onların, ayaqlarına sürtünür, bir növ özünü xatırladır, daha artıq diqqət tələb edirdi. Gülsüm çıxış yolu tapmalıydı. O, valideynlərini izləməyə başladı.

Bir neçə həftə sonra qızcığaz dilemmanı çözdü. Hər ikisinin həyatına yeni insanlar daxil olmuşdu. O, artıq valideynlərinin elektron ünvanlarına girmək üçün gizli şifrələri ələ keçirmişdi. Əlbəttə, bu, düzgün hərəkət deyildi. Amma valideynlərinin də ona ağrı-acı yaşatması yaxşı hərəkət sayıla bilməzdi. Şəmsiyyə onların arasında uzun bir məsafənin olduğunu görürdü. Şəmsiyyənin virtual dostu peyda olmuşdu. O, şəxsi həyatında baş verənləri onunla bölüşürdü. Ruşten də bir xanımla ünsiyyət qurmuşdu; deyəsən, qadın qonşuluqda yaşayırdı. Hər ikisi nikahdan sonra aralarında olan söz-söhbəti, küsüşməni ətraflı təsvir edirdi. Onlar kiçik qızlarının olduğunu, onu çox sevdiklərini, bu səbəbdən də evliliklərini qorumaq üçün əllərindən gələni etdiklərini yazırdılar.

*Davamı 18-ci səhifədə*



# Gülsümün alatoranda rəqsi

*Əvvəli 17-ci səhifədə*

Onların Facebook-da "Gülsüm" adlı heç vaxt görmədiyi ailə foto-albomuna rast gəldi. Şəmsiyyənin elə şəkilləri vardı ki!.. İnanılmaz idi: onun başqa arzuları, xəyalları olub? Gülsüm üçün bunu qəbul etmək çox çətin idi. Bəs Ruşten? Onun da başqa həyat tərzindən zövq aldığı görünürdü. Şəkillərdə tennis və qolf oynayırdı, amma bu barədə heç vaxt danışmamışdı. Gülsüm onların facebook səhifələrinə rəylər göndərdiklərini gördü. Şəmsiyyə xeyli adamın rəğbətlə qarşıladığı belə bir fikir yazmışdı: "Həyatınızı unudub, yeniyetmə kimi həyata başladığınız gündən sonra saxta bal ayı başlayır. Heç kim sizin bakirəliyinizi itirməyinizlə maraqlanmayacaq, əgər maraqlanan olsa belə, ağrılı olduğunu təsdiqləməklə kifayətlənəcəksiz". Yaxud başqa bir fikir: "Dünən Qız qalasının ətrafında gəzişirdim, sanki qulağıma pıçıltı səsi dəydi... Onda bir anlıq başgicəllənmə hiss etdim. Özümə gələndə insanların mənə qəribə tərzdə baxdıqlarını gördüm. Mənə elə gəldi ki, onlar mənim artıq bakirə olmadığımı bilirlər".

Sindbad özünü Gülsümə sürtmək üçün yaxına gəldi.

"Balaca dost, sən burada baş verənləri dərk etməkdən çox uzaqsan, - qız ona deyir. - Mən böyük bir qarmaqarışığın içindəyəm. İnan mənə! Nə yaxşı ki, başa düşmürsən. Bəlkə də anlayırsan. Qulaq as, mənim balaca Sindbadım. O cihazı görürsən? Adı kompüterdir. Onun qarşısında çox oturmaq gözə ziyandır, eyni zamanda ağlı da korlayıb, adamı cəhənnəmə yollayar. Bəzilərinin dahi adlandırdığı kəs günlərin birində İnternet adlı kəşflə ortaya çıxdı. Bu, fantastika idi! Həyatı daha da asanlaşdıran proqramlar ortaya qoydu... Bu qayda ilə silsilə davam etdi, sonra bəzi proqramların inanılmaz dərəcədə asan variantları işləndi, bir sözlə, onlar artıq hamı üçün əlçatan oldu. Həyatımız gündən-günə asanlaşdı – bu, məsələnin yaxşı tərəfi idi. Pis tərəfi isə, bu vasitələrə nəzarət edilmirdi və çox keçmədən zərərləri üzə çıxdı. Onlar həyatları, arzuları dağıtdı… Arzular mina kimidir... Amma sən bunu anlamırsan. Kim bilir, bəlkə də anlayırsan?"

Çox keçmədən yuxuya gedir. Bir az gec oyanır. Gözlərini açanda böyründə üz-gözündən narahatlıq yağan Şəmsiyyəni görür. Nəsə olub? Sindbad da təşviş içindədir.

- Neyləmisən? - Şəmsiyyə soruşur.
- Neyləmişəm?
- Kompüteri xarab eləmisən, buna necə cəsarətin çatdı?
- Mən heç nə eləməmişəm.
- Bəs yaxşı, onda bunları kim eləyib? Ruşten? Axı o, evdə deyil...
- Bilmirəm. Mən yatmışdım. Sindbaddan soruşa bilərsən.
- Ələ salırsan məni?
- And içirəm, mən heç nə eləməmişəm, ana!

Şəmsiyyə mübahisəni dayandırır. Gülsüm anasına səslənir:

- And içirəm. Mənə inanmalısan!
- Onda kompüteri kim xarab edib?
- Facebook! Wikileaks! Çox güman ki, onlar...
- Haradan bilirsən?
- Ruşten elə fikirləşir.
- Ruşten? Nə boş-boş danışırsan?..

Axşamüstü Ruşten yorğun-arğın görünür. Kompüterin xarab olduğunu biləndə o da bir az həyəcanlanır. Amma heç nə demir. Hətta Gülsümə şokolad təklif edir. Şam yeməyi zamanı Şəmsiyyə ilə Ruşten dilucu danışırlar. Şəmsiyyə Gülsümdən onlar evdə olmayanda nə işlə məşğul olduğunu soruşur. O, "Alınmış məktublar"[1] nəzərdən keçirdiyini, amma Coe və Ketlinin çox uğursuz gün olması səbəbindən sona çatdıra bilmədiyini deyir. Anası qonaq otağındakı xalçanın hara yox olduğunu soruşanda, Gülsüm yenə heç nə bilmədiyini söyləyir. Qəribədir! Xalça da yoxa çıxıb! Sindbad hələ də qorxu içindədir.

- Sindbada nə olub? - Ruşten soruşur.
- Bilmirəm, - Şəmsiyyə cavab verir. - Bəlkə Gülsümün bizə sözü var? Bizi Coe ilə Ketlinin əhvalatı maraqlandırmır. Çox romantik və həddən artıq şişirdilmiş əhvalatdır. Buyur, səni eşidirik!
- Mənim deməyə sözüm yoxdur.
- Bir cəhd elə!
- Həqiqətən bilmək istəyirsiniz?
- Səmimi deyirik!
- Mən kiminsə facebook səhifəsində oxumuşdum: "Nə qədər gözəl şəkillər, necə möhtəşəm mənzərələr olsa da, onlar virtualdır…"
- Maraqlı fikirdir!- Ruşten deyir.
- Məncə, bunu hardasa oxumuşam.
- Başqa bir facebook səhifəsində isə belə yazılıb: "Sevgi güc bəxş edir. Bu güc insanın ürəyində sevgiylə, sədaqətlə yaranıb, boy atır…" Bir də bu fikir xoşuma gəlir: "Güzgü yalnız əks etdirir, ona baxanda sən yalnız əksi görürsən, əsl surət isə tamam başqadır". Hə, bu da var: "Maska insanın simasını gizlədə bilər, hisslərini, duyğularını yox…"
- Əlbəttə, çox gözəl səslənir, - Şəmsiyyə fikrini bildirir.
- Yaxşısı budur, "Qızıl Buynuzdan olan qız"ı oxuyub qurtarım. Anlamağa həqiqətən ehtiyacım var.
- Bir az facebook-da olmaq istəmirsən, ata? - Gülsüm qımışır.
- İndiki vəziyyətdə elə də yaxşı fikir deyil! Kitab oxumaq da virtualdır, amma kitab sənə düşünmək və dəyərləndirmək imkanı yaradır.
- Sən nə düşünürsən, ana? - Gülsüm Şəmsiyyəyə tərəf dönüb soruşur.
- Sən mənə yenə "ana" dedin?
- Hə. Sən mənim anamsan. Bəlkə belə deyil? Həmişə də anam olmusan. Facebook-a girmək istəmirsən?
- Artıq yox! O, öldürücü, virtual bir oyundur. Daha xoşum gəlmir ondan.
- Sonra qızını qucaqlayıb deyir: - Yadımdan çıxmışdı deyim ki, gələn yaz Fariz səni gəzməyə aparmaq istəyir. Bu barədə nə düşünürsən?
- Əvvəlcə Ruşten atamdan soruşaram.
- Mən razıyam.
- Bu haqda düşünərəm.

Bir neçə dəqiqədən sonra Ruşten qayıdır. O yenə bir az hirsli görünür.

- İnternetdən istifadə edə bilməyəndə, onu görmək belə istəmirəm. Aylıq haqqı ödəməyi unutmuşuq? Yenə yoxdur İnternet...
- Bəs sən "Qızıl Buynuzdan olan qız"ınla söhbət etməyəcəkdin? Planlar dəyişdi, yoxsa adicə vərdiş idi? - Şəmsiyyə soruşur.
- Zarafat eləmirəm.
- Ödənişi vaxtında etmişik. Texniki məsələ ola bilər, qara görə. Sabah yoxlayaram, - Şəmsiyyə deyir.
- Hə, bir də inana bilmirəm, Muzey Mərkəzinə gedəcəyini niyə mənə deməmisən? Birlikdə gedərdik.
- Sən axı soruşmadın. Bir də nə vaxtdan bəri gündəlik iş cədvəlimi sənə bildirməliyəm?
- Səninlə ilk dəfə görüşdüyümüz məkanda oturub nəsə içmək çox yaxşı olardı.
- Xatırlayırsan?
- Əlbəttə. Sən niyə həmin ətirdən vurmusan?
- Bilmirəm. Elə belə. İntuisiya! Bəs sən niyə belə bəzənib- düzənmisən? Eynən birinci görüşümüzdə olduğu kimi?
- Elə belə! İntuisiya, sən deyən kimi.

Gülsüm təbəssümünü güclə gizləyir. Valideynləri heç nə duymadılar. O əmindir ki, gec-tez fikrini daha yaxşı anladacaq, hələliksə Sindbadın da olduğu məkanı tərk edir.

- Sindbad, məgər sən ayrı-ayrı heyvanların iki kateqoriyasının olduğunu bilmirsən? Birinci kateqoriyaya aid olanlar özlərini insan, yerdə qalanları heyvan hesab edənlərdir. İkinci kateqoriyaya aid olanlar birinci kateqoriyaya daxil olanların onlar barəsində nə düşündüklərini dəqiq bilirlər, amma özlərinin həqiqətən insan olduqlarını və insanların mənşəyə, təbiətə və iqlimə görə təsnif edildiyini sübuta yetirməyə gücləri çatmır. Onlar da heyvandır. Biz, səncə biz ikimiz hansı kateqoriyaya aidik?

Gülsüm dişlərini fırçalayıb yatmağa hazırlaşır. Yatağına uzananda, xəyalında əvvəllər canlandıra bilmədiyi şəkli təsəvvür edir. Qəfildən "Qızıl Buynuzdan olan qız" peyda olur.

- Niyə hadisələrin öz istədiyin məcrada getdiyini görməmək belə xoşuna gəlir? Zamana etibar edin! Tələsməyə lüzum yoxdur. Eyni səhvə yol verməyin. Duyğularınıza inanın! Onlar sizi yönəldəcək. Bu, inam və ümid məsələsidir. Öhdənizə düşən işləri görün, irəli gedin, amma səhv eləməyin, virtuallıq özünü aydın səma və sığınacaq kimi göstərə bilər!

Qız yox olur. Gülsüm gülümsəyir. Sonra Sindbadı qucaqlayıb yuxuya gedir.

[1] *"Sənə məktub gəlib" filmi*

[2] *kompüterləşdirmə sisteminin kodlaşdırılması zamanı meydana çıxan problem*

*Bakı, dekabr, 2011-ci il.*

**İngilscədən çevirən: Nəzakət MƏMMƏDOVA**

# Zənglərin tarixi və tarixçəsi



**Zəng səsləri bəşəriyyətə uzaq keçmişdən məlum olub. Muzeylərdə bizim eradan əvvəl VI əsrə məxsus kiçik Asuriya zənglərinə rast gəlmək mümkündür. İlk dəfə bizim eradan əvvəl birinci əsrdə hazırlanmış Roma zəngi İtaliyada saxlanmaqdadır. Avropada böyük zənglər IV-VI əsrlərdə yaranmağa başlayıb.**

Zəngsiz şəhər, qəsəbə və kənd ikincidərəcəli yaşayış yeri hesab olunurdu. Oralarda həyat tutqun, darıxdırıcı və yeksənək keçirdi. Zəng səsləri şəhərə lazımi ritm verirdi. İşləmək və ya istirahət etmək, şənlənmək və yaxud ələ silah götürməyin gərək olduğunu adamlara zəng səsi xəbər verirdi.

İtaliyanın Turin şəhərində "Çörək zəngi" adlanan zəngin səsindən sonra evdar qadınlar çörək bişirmək üçün xəmir yoğurar, "Təmizlik zəngi"nin çağırışıylasa, Boni şəhərinin sakinləri səliqə-sahman işlərinə başlardılar. Zəngləri də canlı bilib cəzalandırarmışlar. Zənglərin öz-özünə səslənməsi pis əlamət hesab olunurmuş, gecə vaxtı belə zəng səsi eşidildisə, guya insanları böyük bir bədbəxtlik gözləyirmiş.

Düşmən tərəfdən məğlub edilmiş şəhərlərin sakinlərinin öz zənglərindən məhrum edilməsi, şəhərin əhalisi üçün ən ağır cəza, ən böyük təhqir hesab olunurdu.

Şəhərləri bəzəyən zənglər, bu zənglərin melodik musiqisi ta uzaq keçmişdən Rusiyaya doğma olub. 1342-ci ilin Novqorod salnamələrinin birində deyilir ki, şəhər üçün böyük zəng tökdürməkdən ötrü Moskvadan Boris adında hörmətli bir şəxs çağırıldı. Salnamələrə görə sonralar Rusiyanın bir çox şəhərləri üçün zənglər hazırlatmağın bünövrəsini də məhz həmin Boris qoymuşdu. İllər keçdikcə şəhərlər üçün zənglər tökdürmək xalq sənətinin ən hörmətli, şərəfli və eyni zamanda böyük sənətkarlıq və məsuliyyət tələb edən bir qolu kimi daha da inkişaf edib təkmilləşməyə başladı.

Rusiyanın şəhərləri öz əzəmətli zəngləriylə fəxr edib öyünürdü. Zəng tökən ustalar ən hörmətli, ən nəcib, ləyaqətli, şöhrətli şəxslər sayılırdı. Məşhur "Çar zəngləri"ni yaratmış Andrey Çexovun adı bu günümüzəcən gəlib çıxıb. Zəng hazırlamaq işinin sirri çox gizli qorunub saxlanarmış və hətta İngiltərə krallarından birinin əmri ilə bu sirri açan, ölüm cəzasına məhkum olunurdu. Zəng üçün lazım olan metalı öz ölkəsindən aparanlar da beləcə ağır cəzalanarmışlar.

Böyük, nəhəng zənglərin yaranması toy-bayrama, xüsusi bir hadisəyə çevrilir, salnamələrdə qeyd olunurdu. Belə zəngləri tökdürməyə başlamazdan əvvəl, adətən böyük bir yalan, ağlagəlməz bir şayiə uydurub yayar, belə hesab edərmişlər ki, bu şayiə, bu yalan nə qədər uzaqlara yayılsa, zənglərin səsi də bir o qədər uzağa gedər.

Moskva ilə Yaroslavl arasında, Nero gölünün sahilində qədim Rostov şəhəri var. Şəhər qədim qala divarları və kilsələriylə məşhurdur. Bu şəhərin zəngləri də qədim zamanlardan adamların diqqətini cəlb edir. Maraqlıdır ki, bu zənglərdən birinin səsi üfüqi istiqamətdə yayılır. Bir neçə il bundan əvvəl rostovlular və şəhərin qonaqları zənglərin qeyri-adi xorunun dinləyicisi oldular.

Kremlin Spasski qülləsindəki əzəmətli zəngin melodik musiqisi hələ sovet dönəmindən hamıya tanış və doğmadır. 135 pudluq bu zəng 1769-cu ildə Semyon Mojjyxan tərəfindən yaradılıb.

**Aydın TAĞIYEV,**
**Şabran**

Aydın YOL
N 27(36) 17.07.2015



# Rəşad Məcidin italyanca şeirlər kitabı Milanda təqdim olunub

## Davide Qualtieri: "Azərbaycan incəsənətini və ədəbiyyatını İtaliyada daha dərindən hiss etdirməyə çalışırıq"

**İyulun 11-də Cüzeppe Verdi adına Milan Konservatoriyasında İtaliyada fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Assosiasiyası (AMA) və adıçəkilən konservatoriya tərəfindən "Poeziya dünyası və Azərbaycanın muğam mədəniyyəti" mövzusunda konsert proqramı təşkil olunub. AzərTAc-ın məlumatına görə, Azərbaycan Mədəniyyət və Turizm Nazirliyinin (AMTN), Azərbaycan Yazıçılar Birliyinin (AYB) və Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) dəstəyi ilə təşkil olunmuş tədbirdə xalq yazıçısı Anar, akademik İsa Həbibbəyli, şair-publisist Rəşad Məcid, Mədəniyyət və Turizm Nazirliyinin şöbə müdiri, şair Vaqif Bəhmənli, gənc yazıçılar Günel Anarqızı, Pərvin, xalq artisti Fikrət Verdiyevin rəhbərlik etdiyi sənətçilər qrupu, eləcə də İtaliyanın ədəbi dairələrinin nümayəndələri, incəsənət xadimləri, mədəniyyətşünas alimlər, ölkəmizin ədəbiyyatına maraq göstərən kitabsevərlər iştirak ediblər.**




Tədbiri açan Azərbaycanın dostu, italiyalı şair, bəstəkar, Milan Konservatoriyasının professoru, o cümlədən AYB-nin üzvü Davide Qualtieri İtaliyada Azərbaycanın mədəniyyətinə, incəsənətinə və ədəbiyyatına marağın getdikcə artdığını bildirib. Vurğulayıb ki, xüsusilə UNESCO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilmiş Azərbaycanın milli musiqi janrlarından biri olan muğam çox böyük mədəniyyətdir.

O deyib: "Biz tarixi köklərimizə aid özəlliklərin çoxunu unutmuşuq, lakin Azərbaycan bu dəyərləri qoruyub saxlayıb. Bu, böyük nailiyyətdir".

D.Qualtieri ölkələrimiz arasında tarixən sıx mədəni bağların mövcud olmasından və bir sıra xüsusiyyətlərinə görə musiqilərimizin birbirinə bənzəməsindən də bəhs edib.

Sonra Azərbaycanın incəsənət ustaları Elşən Mansurovun, Fikrət Verdiyevin, Sevinc Sarıyevanın ifalarında muğamımız səsləndirilib.

Tədbir boyu həm İtaliya, həm də Azərbaycan musiqisinin sintez şəkildə müşayiəti ilə səslənən italyanca şeirlər tamaşaçılarda böyük maraq oyadıb. Həmçinin Azərbaycan milli geyimində olan italyan rəqs ustaları və musiqiçilər də improvizə olunmuş rəqs və balet kompozisiyaları ilə tədbir iştirakçılarının zövqünü oxşayıblar. Azərbaycan və italyan musiqiləri səslənərkən səhnədə italiyalı rəssam xanım Alessandra Vahid tablolar işləyib.

Daha sonra Rəşad Məcidin italyan dilində çapdan çıxmış "O" (La Donna) adlı şeirlər kitabının təqdimatı olub. D.Qualtieri öz bəstələrinin fonunda Rəşad Məcidin şeirlərini italyanca oxuyub.

Tədbirdə bu kitabın ölkələrimiz və xalqlarımız arasında mədəni əməkdaşlığın inkişafına töhfə verəcəyi və maraqla qarşılanacağı xüsusi vurğulanıb. Bildirilib ki, nəşr vasitəsilə italiyalı oxucular Azərbaycan ədəbiyyatı ilə daha yaxından tanışlıq imkanı əldə edəcəklər.





AMA-nın sədri, xoreoqraf Mais Nuriyevin sətri tərcüməsi əsasında D.Qualtieri tərəfindən çevrilmiş kitabda şeirlərin mövzusuna uyğun olaraq tanınmış Azərbaycan rəssamlarının əsərləri də yer alıb. Nəşr D.Qualtierinin Rəşad Məcidə həsr etdiyi "Körpü salırıq" şeiri ilə açılır, daha sonra müəllif haqda geniş məlumat və D.Qualtierinin şeirlər haqda essesi verilib.

Sonra AYB tərəfindən təşəkkürnamə, Azərbaycan Mədəniyyət Nazirliyi və AMEA adından isə D.Qualtieriyə xatirə hədiyyələri təqdim olunub.

İyulun 12-də isə Milan şəhər bələdiyyəsinin binasında Cüzeppe Verdi adına Milan Konservatoriyasının, İtaliyada fəaliyyət göstərən Azərbaycan Mədəniyyəti Assosiasiyasının (AMA) və adıçəkilən şəhər bələdiyyəsinin birgə təşkilatçılığı ilə şair-publisist Rəşad Məcidin italyan dilində çapdan çıxmış "O" adlı şeirlər kitabının və şairin şeirlərinə italyan dilində bəstələnmiş musiqilərdən ibarət diskin təqdimatı keçirilib.

Tədbiri açıq elan edən Milan şəhər bələdiyyəsinin milli şurasının sədri Bazilio Rossi və qurumun mədəniyyət məsələləri üzrə şöbəsinin müdiri Cüzeppe Landonio nəşrlə bağlı təəssüratlarını bölüşüblər. Bildiriblər ki, belə bir kitabın italyandilli oxuculara təqdim olunması Azərbaycan ədəbiyyatının tanıdılması baxımından önəmli addımdır.

Vurğulanıb ki, Azərbaycanın qədim tarixə və zəngin mədəni irsə malik bir ölkə olması artıq italiyalılara məlumdur. Xüsusilə "Milan Expo 2015" beynəlxalq sərgisindəki bu ölkənin pavilyonu vasitəsilə Azərbaycanı daha yaxından tanımaq, onun inkişafını izləmək imkanı yaranıb.

İtalyan şair, bəstəkar, Milan Konservatoriyasının professoru Davide Qualtieri çıxış edərək Azərbaycanın mədəniyyətindən və incəsənətindən, kitabın mədəni əlaqələrimizə mühüm töhfə verəcəyindən danışıb. Bildirib ki, italiyalı ədəbiyyatsevərlər Rəşad Məcid kimi istedadlı və mahir bir ədibin yaradıcılığı vasitəsilə Azərbaycan ədəbiyyatına səyahət etmək imkanı əldə ediblər.

O, qeyd edib ki, Azərbaycanın sevilən şairi Rəşad Məcidin şeirlər kitabının İtaliyada işıq üzü görməsi ölkələrimizin ədəbi əlaqələrinə müsbət təsir göstərəcək. Ümid edirik ki, ölkəmizin mədəni xüsusiyyətlərini tanıdan belə tədbirlər tez-tez keçiriləcək.

Tədbirdə çıxış edən İsa Həbibbəyli diqqətə çatdırıb ki, dünyanın incəsənət ölkəsi olan İtaliyada Rəşad Məcidin şeirlər toplusunun təqdimatı təkcə şairin deyil, bütövlükdə Azərbaycan ədəbiyyatının böyük uğurudur. Bu kitab xalqlarımızın möhkəm və etibarlı dostluğunun nümunəsi kimi əlvan poeziya çələngidir.

Əminəm ki, bu şeirləri italyan oxucular da bəyənəcəklər. Bildirilib ki, Rəşad Məcid bir ədəbi şəxsiyyət olaraq hər cəhətdən yaradıcı, orijinallığı və genişliyi ilə fərqli görünən professional bir Azərbaycan ziyalısıdır. Azərbaycan ziyalılığının fəal vətəndaşlıq mövqeyi, milli düşüncəsi, açıq yaradıcı təfəkkürü Rəşad Məcidin simasında ümumiləşir. Şeirlə bədii yaradıcılığa başlayan və izlər salan, jurnalistika və publisistika ilə cəmiyyətin inkişafına xidmət edən Rəşad Məcid nəsrdə də öz möhürünü vurub.

Sonra Azərbaycanın incəsənət ustaları Elşən Mansurovun, Fikrət Verdiyevin, Sevinc Sarıyevanın ifalarında muğam səslənib. Tədbir boyu Azərbaycan və İtaliya musiqilərinin sintez şəkildə müşayiəti ilə Rəşad Məcidin həm Azərbaycan, həm də italyanca səslənən şeirləri tamaşaçılarda böyük maraq oyadıb.

Həmçinin Azərbaycan milli geyimində olan italyan rəqs ustaları və musiqiçilər də improvizə olunmuş rəqs və balet kompozisiyaları ilə tədbir iştirakçılarının zövqünü oxşayıblar.

Azərbaycan Yazıçılar Birliyinin sədri, xalq yazıçısı Anar tədbirin əhəmiyyətini vurğulayaraq təşkilatçılara minnətdarlığını bildirib.

O deyib: "Fikrimcə bu görüş və təqdimatına yığışdığımız kitab İtaliya-Azərbaycan ədəbi əlaqələrinin inkişaf tarixində ayrıca yer tutacaq. Arzu edirəm ki, bu hadisə ənənə halını alsın və ədəbi-mədəni əlaqələrimiz genişlənsin".

Sonda tədbirin keçirilməsində yaxından iştirak edənlərə AYB tərəfindən təşəkkürnamə, Azərbaycan Mədəniyyət və Turizm Nazirliyi adından isə xatirə hədiyyələri təqdim olunub.

Şair, bəstəkar, Milan Konservatoriyasının professoru Davide Qualtieri şeirlər toplusunun təqdimatı barədə fikirlərini AzərTAc-ın xüsusi müxbiri ilə bölüşüb.

Davide Qualtieri bildirib: "Rəşad Məcid böyük şairdir və bu nəşrin tərcümə edilməsində əsas məqsəd italiyalı oxuculara onun zəngin yaradıcılığını tanıtdırmaqdır. Həm poetik, həm də ədəbi tərcümədən istifadə olunan bu kitab Rəşad Məcidin əsərlərinin mahiyyətini dərk etməyə imkan yaradır".

Azərbaycan ədiblərinin əsərlərinin İtaliyada daha geniş kütləyə çatdırılmasının əhəmiyyətini vurğulayan Davide Qualtieri qeyd edib ki, ölkələrimizin ədəbi dairələri arasında körpünün qurulması istiqamətində mühüm işlər görülməkdədir. Bu əlaqələri genişləndirmək üçün biz şeir, rəqs, musiqi kimi anlayışları vəhdətdə təqdim etməklə Azərbaycan incəsənətini və ədəbiyyatını İtaliyada daha dərindən hiss etdirməyə çalışırıq.

O deyib: "Hesab edirəm ki, Azərbaycan ədəbiyyatında hiss etdiyimiz əsas element milli adət-ənənələrin ön planda olmasıdır. Məhz bu ənənələrin kökündən gələn əsərlər Azərbaycan ədəbiyyatını özünəməxsus edir.

Azərbaycanlı şairlər bu ənənələrin təbliğatçıları olmaqdan qürur duyurlar. Ədəbiyyatınızı, incəsənətinizi yanan bir alova bənzədirəm. Azərbaycan şairləri isə bu alovun qığılcımlarıdır".



**Bu səhifəni uşaqlar, yeniyetmələr üçün hazırlamışıq. Amma bu heç də o anlama gəlməsin ki, səhifəmizi oxuyarkən böyüklər zövq almayacaq. Mütləq alacaqlar, çünki elm öyrənmək, savad almaq insanın əbədi, həmişəcavan arzularındandır. Bəşəriyyət zaman-zaman adamları iki yerə bölüb: savadlılara və bisavadlara. Bütün sivilizasiyalar ona görə sivilizasiya olub ki, içindəki savadlı kəsim, düşünən insanlar artıb, fərqli bir mədəniyyət yarada bilib.**

**Müasir dövrdə elmə, biliyə can atmaq daha vacibdir, çünki dünənə kimi qarşımızda bir sirr olaraq qalan çox mətləblər artıq çözülə-çözülə gedir, bildiklərimiz artır, bilmədiklərimiz azalır. Amma nə qədər öyrənsək də, bilmədiklərimiz bildiyimizdən qat-qat çox olaraq qalacaq.**

**Səhifəmizi müntəzəm izləsəniz, minlərlə mürəkkəb sualın sadə cavabını tapacaqsınız. Bu mətləblərin əksəriyyəti ilə orta məktəbdə rastlaşmışıq, amma təəssüf ki, dərsliklərimizin, nədənsə həmişə qəliz olan elmi dili ucbatından çox şey əxz edə bilməmişik.**

**Biz heç də o iddiada deyilik ki, "Hər suala bir cavab" rubrikamızı izləyə-izləyə savadlanacaq, alim olacaqsınız. Məqsəd uşaqlarımızın dünyagörüşünü genişləndirmək, onları həmişə diqqət mərkəzində olan maraqlı həmsöhbətə çevirməkdir.**

**İlqar ƏLFİ**

# Hər suala

## Mikroblar nədir?

İnsan mövcud olduğu uzun minilliklər boyu nədən xəstələndiyini heç cür anlaya bilmirdi. İbtidai insanlar xəstəliyə öz "izahlarını" verirdilər – onlar elə fikirləşirdi ki, azar-bezarı öz qurbanlarının içində yaşayan bəd ruhlar gətirir.

Və yalnız 1885-ci ildə elm isbat etdi ki, xəstəliklərin çoxunu mikroblar törədir. Mikrobların xəstəlik yaratdığı haqda fərziyyəni ilk olaraq, Lui Paster irəli sürdü. Və biz bu gün artıq dəqiq bilirik ki, mikrob insanın ən qəddar düşmənidir. Onlar təkhüceyrəli mikroorqanizmlərdir. Mikrobu yalnız mikroskop altında görmək olar. Onların bəziləri o qədər xırdadır ki, əslində heç görünmür!

Mikroblar, yaxud mikroorqanizmlər həm heyvan, həm bitki mənşəli ola bilər. Heyvan mənşəli mikroblara "irotoza", bitki mənşəlilərinə "bakteriya" deyilir. Mikrobların üçüncü qrupu isə "filtrə olunan viruslar" adlanır. Bu nə deməkdir? Həmin mikroblar o qədər xırda olur ki, bir çox mikrobların qarşısını alan ən narın filtrlərdən belə asanlıqla keçir.

Mikrobun bir tipi yalnız bir xəstəlik törədir. Məsələn, skarlatin yaradan mikrob malyariya və başqa xəstəliklər yarada bilməz. Lakin həmin o xəstəlik törədən mikroblarla eyni növdən olan çoxlu sayda başqaları da var ki, insanlara xeyir gətirir.

Mikrobların törətdiyi xəstəlikdən insan əgər ölmürsə, onun orqanizmi gec-tez həmin mikrobları özü məhv edir. Bəzi xəstəliklər, məsələn, skarlatin, göy öskürək, yaxud xanazır keçirən insan eyni xəstəliyə təkrar yoluxmur. Orqanizmin xəstəliyə təkrar yoluxmasının qarşısını alan mexanizmə "təbii immunitet" deyilir. Bəzi heyvanlar "təbii immunitetə" malikdirlər. Bu o deməkdir ki, onlar başqa heyvanların xəstəliyinə yoluxmurlar. Maraqlıdır ki, peyvəndlər və antitoksinlər insanda bəzi mikroblara qarşı immunitet yarada bilir.

Filtrə olunan viruslar isə daha çox göy öskürək, quduzluq, suçiçəyi, uşaq iflici, adi qrip, zökəm kimi xəstəliklər yaradır. Alimlər mikrob deyilən bu gözəgörünməz, amma güclü orqanizmləri hələ çox öyrənməlidirlər.

## Bakteriyalar necə yaranıb?

Bakteriyalar o qədər xırda canlı orqanizmlərdir ki, onları yalnız yüz dəfələrlə böyüdən mikroskop altında görmək mümkündür. Ona görə də bakteriyalara "mikroorqanizmlər" deyilir.

İnsan bakteriyaları görənədək onların fəaliyyətinin nəticələriylə artıq tanış idi. Məsələn, çaxır qıcqıranda, süd çürüyəndə, heyvanlar iylənəndə... Lakin bu hadisələr barədə cəhalətdən doğan, inanclara əsaslanan qəribə izahları vardı. Bu gün isə biz bilirik ki, bakteriyalar hər yerdə var – havada, suda, qidada, dərimizdə və hətta içimizdə. Bakteriyalar bölünmə yoluyla çoxalır. Onların dişi-erkəyi olmur. Əgər münbit şərait və kifayət qədər qida olsaydı, onlar durmadan çoxalardı.

Bakteriya heyvanınkından çox, bitkininkinə bənzəyən bir hüceyrədən ibarətdir. Ətrafında suyu buraxmayan "membran", yaxud qılaf olur. Bakteriyanın içində "protoplazma" deyilən maddə var, lakin onun mərkəzi, nüvəsi olmur.

Xarici qılaf çox mühüm rol oynayır, çünki onu məhv etmək üçün nəzərdə tutulan istənilən kimyəvi maddə mütləq membrandan keçməlidir. Bakteriya onun formasını dəyişərək "flagella" deyilən lifli zoğlar yaradan selikli qişa ilə örtülüdür. Bakteriyalar hərəkət edə bilir, baxmayaraq ki, ətrafları yoxdur. Onların bəzisi flagellaları vasitəsiylə hərəkət edir, digərləri soxulcanlar kimi, hüceyrənin özünün yığılmasıyla irəliləyir.

Artıq bildiyimiz kimi, bakteriyalar yoluxucu xəstəliklərin törədiciləridir. Lakin onların bəzi növlərinin insanlara xeyri də var.

## Protozoa nədir?

Əgər göl suyunun bir damcısını mikroskop altına yerləşdirsək, içində üzən milyonlarla orqanizmi görərik! Bu, "protozoa"lardır – heyvan mənşəli, təkhüceyrəli orqanizmlər.

Protozoaların hamısı suda, yaxud rütubətli yerlərdə yaşayır. Alimlər onları maraqla araşdırır, çünki bu təkhüceyrəlilər canlı həyatın varlığını təmin edən funksiya yerinə yetirir. Onlar ova çıxır, yemlənir, yemi həzm edir və mənimsəyirlər. Onlar nəfəs alır, qidanı yandırır və tullantılardan azad olurlar. Onların həm də çoxalmaq bacarığı var.

Protozoa sadə bölünmə yoluyla, həm də səthində əmələ gələn "çıxıntılar" vasitəsiylə çoxalır. Bu "çıxıntılar" partlayaraq yeni bir məxluq əmələ gətirir.

Protozoanın 15 000 müxtəlif tipi var. Alimlər bu səbəbdən onları siniflərə, təbəqələrə bölüblər. Onların iki əsas sinfi "rizopod" və "infuzoriya" adlanır.

Rizopodların sistemsiz yerləşən, istəyəndə çəkilib içəridə gizlənən "yalançı ətrafları" olur. Bu sinfə "foraminifor" deyilənlər də aiddir. Onların üzərində xırda deşikləri olan çox nazik qabıqları var. Əsasən, isti, sakit dənizlərdə yaşayır. Onlar öləndən sonra qabıqları dənizin dibinə çökür və yüzlərlə ildən sonra həmin yerdə təbaşir yataqları əmələ gəlir.

İnfuzoriya protozoanın daha mürəkkəb növüdür. Onlar üzərlərində olan xırda tükcüklərdən su ilə hərəkət edərkən avar kimi istifadə edirlər. Protozoanın belə tükcüklərə malik daha mükəmməl formaları "tsiliya" adlanır.

Protozoanın bəzi növləri parazitlik edərək insan və heyvan orqanizmlərində yaşayır. İnkişafların həyat dövründə onlar spor əmələ gətirir. Onların müəyyən növləri malyariya kimi xəstəliklər yarada bilər.

## Xlor nədir?

Təmiz xlor qazdır. O, ən zəhərli qazlardandır, amma eyni zamanda, xlorun faydası da çox böyükdür! Təbiətdə xlor müxtəlif birləşmələrin tərkibində olur, məsələn, adi yemək duzunun - natrium xloridin.

Təmiz xlor ilk dəfə 1774-cü ildə İsveç kimyaçısı Karl Şeele tərəfindən alınıb. Hal-hazırda xlor almaq üçün ən ucuz yoldan istifadə olunur - xörək duzu məhlulundan elektrik cərəyanı buraxırlar.

İlk dəfə Birinci Dünya müharibəsi dövründə istifadə olunan zəhərli qaz demək olar ki, yüz faiz təmiz xlordan ibarət idi. Alman qoşunları ondan 1915-ci il, 22 apreldə istifadə etdilər. Hər iki tərəf döyüşlərdə xlorun müxtəlif birləşmələrindən əmələ gələn qazlara üstünlük verirdi. İkinci Dünya müharibəsində hər iki tərəfin əlində olan zəhərli qaz ehtiyatına baxmayaraq, törədə biləcəyi fəlakətin miqyasına görə, döyüş əməliyyatları zamanı kiminsə ondan geniş istifadə etməyə cəsarəti çatmadı.

Bununla yanaşı, xlorun zəhərli və çox təhlükəli olmasına rəğmən, insan sağlamlığı uğrunda mübarizənin ən etibarlı vasitələrindəndir. Bir çox herbisidlərin və dezinfeksiya vasitələrinin tərkibinə daxil olan xlor, mikrobları məhv edir. İri şəhərlərdə su kəmərlərində bakteriyaları yox etmək üçün xlordan istifadə olunur. Bu zaman suyun bir milyon hissəsinə dörd-beş hissə xlor qatılır. Xlorun belə zəif məhlulu insan üçün tam ziyansızdır, hərçənd ki, borulardan gələn su hərdən bir az xlor dadı verir.

Xloru soyutmaq və yüksək təzyiq altında sıxmaqla mayeyə çevirmək olar. Maye xlordan parçaları ağartmaq üçün və xüsusi ağardıcı tozların istehsalında istifadə olunur. Maye xloru məxsusi bu məqsədlə düzəlmiş metal çənlərdə daşıyırlar. Xlor xüsusilə kağızı ağartmaq üçün yaxşıdır. O həm də boya sənayesində istifadə olunur. Xlorun oksigen və kaliumla qarışığı isə atəşfəşanlıqlarda, kibrit istehsalında işə yarayır.

Partlayıcı özəlliyə malik təmizləyici maddə olan karbon tetraxlorid də xlorun bir birləşməsidir. Ondan həm də bəzi yanğınsöndürmə avadanlıqlarında istifadə olunur. Bütün bunlardan başqa, xlor müasir antiseptik vasitələrin də tərkibində var.

## Turşu nədir?

Tez-tez qəzetlər kiminsə turşudan yandığı haqda məlumatlar dərc edirlər. Və həqiqətən də hamımız elə düşünürük ki, turşular çox təhlükəli, insanın dərisini tamam yandıra bilən mayelərdir.

Lakin bu xüsusiyyət turşuların yalnız az bir hissəsində var. Ərzaq məhsullarında olan turşular bizim sağlamlığımız üçün çox lazımdır. Başqa turşulardan isə dərman, rəng, kosmetika və sənaye məhsullarının istehsalı zamanı istifadə olunur.

Turşuların xeyli növü var, amma onların hamısını iki sinfə ayırmaq olar – üzvi və qeyri-üzvi turşular. Gəlin, hər sinfin ən əhəmiyyətli nümayəndələriylə tanış olaq.

Kükürd turşusundan sənaye istehsalında geniş istifadə olunur. O, gözlərə ziyan vurur, dəridə yanıq əmələ gətirir. Başqa güclü turşu xlorid turşusudur. Onu kükürd turşusu və xörək duzunun birləşməsindən alırlar. Ondan müxtəlif kimyəvi birləşmələrin istehsalında, metal səthlərin təmizlənməsində istifadə olunur. İnsan bədənində də həzm zamanı istifadə olunan az miqdarda zəif xlorid turşusu əmələ gəlir.

Azot turşusu da güclü turşudur və o da insan dərisinə, gözlərinə ziyandır. Bor turşusu isə zəif turşulardandır. Təbiətdə o, İtaliya ərazisində tapılıb. Ondan kaşı, sement, kosmetika istehsalında istifadə edirlər. Bəzən bor turşusu mikroblar, ziyanvericilər, həşəratlarla mübarizədə kara gəlir.

Yunan dilindən tərcümədə "asbest" sözü "yox olmayan", yaxud "yanmayan" deməkdir. İndi isə bu ad altında oda müqaviməti olan lifli materiallar qrupunu birləşdirirlər. Tərkibində asbest olan minerallar möhkəmliyi, elastikliyi və tətbiq olunduğu yerə görə fərqlənir. Asbestin tərkibində əhəng silikatı, maqnezium və hərdən dəmir də olur.

Asbest özünün lifli quruluşuna görə pambığı və yunu xatırladır, lakin onun pambıqdan üstünlüyü odadavamlılığındadır. Elə buna görə də abestdən sənayedə geniş istifadə edirlər və alimlər hələ onu əvəz etmək üçün heç nə tapa bilməyiblər.

Bu yeganə mineraldır ki, ondan lif almaq və parça toxumaq da mümkündür. Yanğın təhlükəsi olan müəssisələrdə fəhlələrin geyimi, o cümlədən, papaq, əlcək, ayaqqabı belə, başdan-ayağa asbestdən hazırlanır. Asbest 1090 dərəcədən 1650 dərəcəyədək; onun bəzi növləri isə lap 2760 dərəcəyədək istiliyə davam gətirir!

Dünyada istehsal olunan bütün asbestin tən yarısı Birləşmiş Ştatların payına düşür, lakin bu ölkənin özü asbest ehtiyatının cəmi 5 faizinə malikdir. Dünya asbest ehtiyatlarının 75 faizi Kanadada, Kvebek əyalətindədir.

Amma bu növ dağkeçilərinə təbiətdə nadir hallarda rast gəlmək mümkün olduğundan, Birləşmiş Ştatlarda satılan zamşaların hamısı bir qayda olaraq, qoyun dərisindəndir.

Qədim zamanlarda "serna" deyilən bu dağkeçiləri Avropa düzlərində də yaşayırdı. Amma tədricən, onları dadlı ətinə və yumşaq dərilərinə görə qırıb qurtardılar. Bu heyvanların az bir qismi dağlara köçməklə qurtuldu. İndi onları əsasən, Pireneylərdə, Alp dağlarında, buzlaqların aşağı nöqtəsində görmək olar.

Amerikada Qayalıq dağların dağkeçisi kimi, serna da antiloplar ailəsinə aiddir. Serna görmə və iybilmə qabiliyyəti çox güclü olan ən ehtiyatlı heyvanlardan biridir. Məhz bu cəhətləri onları təhlükədən qoruyur. Serna qayalıqlardan, uçurumlardan qaçanda antilopdan zirək, dağkeçilərindən daha inamlı tərpənir!

Dağlarda otlayan sernaya kim fikir veribsə, yəqin görüb ki, bütün sürü otlayanda heyvanlardan biri onların sakitliyini qoruyur. Təhlükə hiss edən kimi o kəskin bir fit verir və bütün sürü bir göz qırpımında yox olur. Qaçarkən onlar dərin yarğanların, uçurumların üstündən sıçrayır, insanın qalxa bilməyəcəyi yerlərə çox asanlıqla qalxırlar.

# bir cavab

Kömür turşusu isə karbon qazından alınır, onu cüzi miqdarda meyvə şirələrinə qatırlar. Mışyak turşusundan dezinfeksiya vasitələrinin istehsalında istifadə olunur.

Üzvi turşular qeyri-üzvilər qədər güclü deyil. Sirkə turşusu sirkənin tərkibində olur və onu alma sidrinin qıcqırmasından almaq mümkündür. Şəkər əmələ gələrkən, süddə süd turşusu yaranır. O, südü qıcqırdır, həm də pendir istehsalında kara gəlir.

Amin turşularının tətbiqi möhkəm sağlamlığa zəmanət verir və onu biz zülal əsaslı qida ilə alırıq. Portağal, limon və qreypfrutda askorbin turşusu var – bu, C vitamininin kimyəvi adıdır. Nikotin turşusu qara ciyərdə, ev quşlarının ətində olur. Bu turşu dəri xəstəliklərinin qarşısını alır.

Gördüyünüz kimi, turşular barədə bu mürəkkəb hekayətimizi yenə davam etdirmək olar. Onların bəziləri insan üçün təhlükəlidir, amma sənayedə əvəzləri yoxdur. Digərləri insan həyatını təmin etmək üçün çox vacibdir və bir çox qida məhsullarında var. Elə turşular da var ki, bizim orqanizmimizdə istehsal olunur və yaşamağımız üçün çox vacibdir.

## Asbest nədir?

Bizim əksəriyyətimiz elə bilir ki, asbesti insan yəqin son zamanlar kəşf edib, amma elə deyil. Asbest adamlara artıq neçə min illərdir ki, tanışdır! Qədim məbədlərdə ondan məşəllər düzəldəndə, mehrabı oddan qoruyanda istifadə edirdilər. Hələ 2000 il qabaq qədim romalılar ondan meyitləri yandırarkən istifadə edirdilər. Belə bir əfsanə var ki, guya Şarremanyanın asbestdən olan bir süfrəsi varmış – üstündəki ləkələri təmizləmək üçün onu tonqala atırmış...

Asbest bəzi dağ süxurlarının arasında lay şəklində olur. Hərdən onu çıxarmaq üçün şaxtalara ehtiyac yaranır. Bir ton asbest əldə etmək üçün 45 ton dağ suxurunu emal etmək lazım gəlir!

## Zamşa nədir?

Təsərrüfat malları mağazasında satışda "zamşa" deyilən parça görmək olar. Onu yumşaqlığına və cilalama zamanı səthləri cızmadığına görə alırlar. Bir çoxları ondan avtomobilləri və mebelləri pardaqlamaq üçün istifadə edir.

Əslində, zamşa xüsusi üsulla işlənmiş dağkeçisi dərisidir.

Ev keçisi boyda olan sernanın çəkisi 30 kiloqrama yaxındır. Boz, yaxud qəhvəyi xəzləri mövsümdən asılı olaraq rəngini dəyişir, amma başqa heyvanlardan fərqli olaraq, yayda onların rəngi açıq, qışda isə tünd, az qala lap qara olur. Hərdən albinos sernalara rast gəlmək olur. Alp dağlarında yaşayan insanların belə bir inancı var ki, sernanı öldürən adam bir ildən sonra özü də mütləq öləcək – bu həmin şəxsə qnomlar və cadugərlər tərəfindən verilən bir cəzadır.

Sürünün başında adətən, ən yaşlı dişi durur. Yayda serna sürüsü cavan dişilərdən və erkəklərdən ibarət olur. Uca dağlarda yetkinlik yaşına çatmış erkək sernalar tək-tək otlayır. Sernanın buynuzları hamar, qaradır; ucları arxaya və aşağıya doğru burulur.



## Ammonyak nədir?

Ammonyak çox kəskin qoxulu şəffaf qazdır. Ammonyakla davamlı nəfəs almaq ölümə səbəb ola bilər. "Ammonyak" termini öz adını "ammonium xlorid" adlı kimyəvi birləşmədən götürür. Bu birləşmənin özü ilk dəfə Misirdə, qədim Ammon-Yupiter məbədinin yaxınlığında tapılıb.

Təmiz ammonyakı almağa ilk dəfə ingilis kimyaçısı Cozef Pristli 1774-cü ildə müvəffəq olub və onun adını "qələvi qazı" qoyub.

Heyvan və bitki qalıqlarının çürüməsi zamanı əmələ gələn az miqdarda ammonium qazı havada da olur. Ona çox az miqdarda yağış suyunun tərkibində də rast gəlmək mümkündür. Lakin sənayedə istifadə üçün ammoniumu süni yolla alırlar.

Ammonium qazının tərkibinə azot və hidrogen daxildir. Onların birləşməsindən ammonium qazı yaranır. Azotu havadan, hidrogeni sudan alırlar. Sonra hər iki komponenti qurudur, 530 dərəcəyədək qızdırır və sıxırlar, qarışığı müxtəlif duzlardan keçirir və ammonium əldə edirlər.

Ammonium qazı havadan yarıbayarı yüngüldür. Sıxılandan və soyudulandan sonra qaz suyu xatırladan, amma 34 dərəcədə qaynayan bir mayeyə dönür. Sıxılma prosesinin sonunda ammonyak buxarlanır. Bu zaman qaz xeyli istilik udur. Bax, elə bu xassəsinə görə də ondan soyuducularda istifadə olunur.

Evdə rast gəldiyimiz ammonium yalnız onun su məhlulu ola bilər. Həmin məhlulu paltar yuyarkən suya əlavə edirlər.

Turşularla birləşəndə ammoniumdan ammonium duzları əmələ gəlir. Onların çoxu kifayət qədər faydalıdır. Ammonium xlorid qaynaq zamanı, tibbdə, quru qida məhsullarının hazırlanmasında tətbiq olunur. Ammonium sulfat əla gübrə sayılır. Ammonium nitrat da həm gübrə, həm də partlayıcı maddədir. Naşatır spirtinin tərkibində isə ammonium karbonat var.

Bütün bu maddələr ammoniumun müxtəlif turşularla birləşməsindən alınır. Amma bəzi ammonium duzları təbii şəraitdə də əmələ gəlir.

## Tapioka nədir?

Amerika hindularının ənənəvi qidası olan tapioka pudinqindən Sizin xoşunuz gəlir? Çox güman ki, onun dadına heç baxmamısınız. Amma sizə desələr ki, onu nədən hazırlayırlar və pudinq şəklinə düşüb masamızın üstünə gələnədək başına nə oyunlar açılır, qəti inanmazsınız!

Tapiokanı isti ölkələrdə bitən iri bir kolun köklərindən alırlar. Həmin kolun adı "manioka", "yukka", "mandioka", yaxud ingilislərin dediyi kimi, "kassava"dır.

Manioka kökləri təxminən 33 faiz nişastadan və 57 faiz sudan ibarətdir. Bu köklərdən qida hazırlamaq üçün adama xeyli vaxt lazım olur. Əvvəlcə, onu yuyub təmizləyirlər, sonra iki-üç günlüyə qazanda suya yatırırlar, ya da elə axar suyun içinə sallayırlar. Amma qabaqcadan, suya yatırmamış da sürtkəcdən keçirib pastayabənzər bir kütlə almaq olar. Həmin pastanı qovurub yeyir, yaxud qurudaraq, ondan un düzəldirlər.

Tapioka bişirmək üçün sürtkəcdən keçmiş kütləni çox təmiz su ilə qarışdırıb bir kənara qoyurlar. Təmiz nişasta dənələri tədricən dibə çökür, bütün kirli məhlul isə atılır.

Sonra nişastanı çıxarıb bir də su ilə qarışdırırlar – bu proses dörd-beş dəfəyədək davam edə bilər. Nişasta kifayət qədər təmizləndikdən sonra, onu ocağın üstünə qoyulmuş metal təştə səpirlər. Bu nişasta bişərkən ara vermədən qarışdırılmalıdır. Bir azdan nişasta suyun içində balaca düyünlər əmələ gətirir.

Bu prosesdən sonra alınan təmiz nişastaya "tapioka" deyilir. İndi artıq siz bilirsiniz ki, bir kolun kökləri yemək şəklində süfrə üstünə gələnədək hansı əməliyyatlardan keçir. Amerikalılar tapiokanın böyük bir hissəsini Braziliyadan, Madaqaskardan və Yavadan alırlar.

Ocaqda qovrulmamış təmiz manioka nişastası Birləşmiş Ştatlarda "tapioka unu" adı ilə məşhurdur. Ondan pambıqdan hazırlanan məmulatın emalında, poçt markaları üçün yapışqan istehsalında və sairədə istifadə edirlər.

## Antibiotiklər nədir?

Antibiotiklər yoluxucu xəstəliklərin profilaktikası və müalicəsində istifadə olunan dərmanlardır. "Anti" sözünün mənası "əks" deməkdir, "biotik" isə "həyat"dır. Antibiotiklər canlı aləmin yalnız müəyyən formalarına – xəstəlik yaradan bakteriyalara təsir edir. Lakin antibiotiklərin özləri də canlı orqanizmlərdən – bakteriyalardan, müxtəlif birləşmələrdən, bitkilərdən alınır.

Antibiotiklərin istehsalı 1928-ci ildə, ser Aleksandr Flemminq penisillini kəşf edəndə başlandı. Onun kəşfi başqa alimlərin də tədqiqat obyektinə çevrildi və bu da tamam başqa antibiotiklərin yaranmasıyla nəticələndi. Tibbin bu sahəsinə maraq o qədər güclü idi ki, bütün dünyada yoluxucu xəstəliklər törədən bakteriyalarla mübarizə edə bilən xüsusi maddələri yaradan mikroorqanizmlərin axtarışına başlandı. Nəticədə, bu gün bizim ixtiyarımızda nə qədər antibiotik var – penisillin, streptomisin, aeromisin, terramisin və sairə. Bəzi antibiotiklər xəstəlik törədən bakteriyalarla yanaşı, insan orqanizmi üçün də zəhərli ola bilər.

Bəs antibiotiklər bakteriyaların inkişafını necə dayandırır? Bu proses sona kimi hələ də tam bəlli deyil. Elə hesab edirlər antibiotiklər bakteriyalara mane olur ki, inkişaf üçün lazım olan qida maddələrini ala bilsin.

Hər bir yoluxucu xəstəlik üçün öz antibiotiki hazırlanır. Bəzi xəstələrdə müəyyən antibiotiklərə qarşı xüsusi həssaslıq (allergiya) olur. Antibiotiklər onlarda örə, astma və daha ciddi xəstəliklər yarada bilər.

Bəzən antibiotiklər vasitəsiylə aparılan müalicə çox uzun çəkir, bəzən isə onlardan profilaktika məqsədiylə istifadə olunur. Antibiotiklər yaranandan sonra, yoluxucu xəstəliklərin ölümlə nəticələnməsi həddindən ziyadə azalıb. Artıq infeksion xəstəliklər insan həyatı üçün elə bir təhlükə kəsb etmir.

**"Naməlum kino" layihəsində ilk milli rejissorlardan olan Mikayıl Mikayılovun 1930-cu ildə ekranlaşdırdığı "Lətif" bədii filmini təqdim edirik. Yazıya M.Mikayılov haqda qısa məlumatla başlayaq. 1903-cü ildə İçərişəhərdə doğulan Mikayılovun ailəsini "həkimlər ailəsi" adlandırırdılar. Valideynləri onun da həkim olmasını istəyirdi. Onların istəyini yerə salmayan Mikayıl Bakı Universitetinin tibb fakültəsinə daxil olur. Ailənin daimi qonaqlarından olan aktyor Rza Darablanın söhbətləri onun incəsənətə meyilini artırır. Tibbi təhsilini davam etdirməklə yanaşı, o, "Kommunist" qəzetinin incəsənət şöbəsində işə düzəlir. Şöbənin müdiri Cəfər Cabbarlı, qəzetin rəssamı isə Əzim Əzimzadə idi. Mikayılov burada yeni tamaşalar, filmlərlə bağlı resenziyalar yazır.**

Onun kino sahəsinə gəlməyində Cəfər Cabbarlı mühüm rol oynayır. 1924-cü ildə Bakı Kinofabriki nəzdində kinoaktyor və kinorejissor studiyaları açılır. Cabbarlının məsləhəti ilə Mikayıl kinoaktyor studiyasına qəbul olunur. Və tibb fakültəsindən çıxaraq kinofabrikdə işə düzəlir, bir müddət burda kinooperator köməkçisi işləyir.

Bakıda "Əvəz əvəzə", "Müxtəlif sahillərdə" və s. bədii filmlər çəkmiş, sonralar Moskvada fəaliyyətini davam etdirmiş Aleksandr Litvinov Mikayıla kinofabrikdə rejissor sənətinə ehtiyacın olduğunu deyir və ona rejissor kimi çalışmağı təklif edir.

Beləliklə, Mikayılov rejissorluq fəaliyyətinə başlayır. "Oktyabrın on illiyi", "Tütünçülük" sənədli filmlərini çəkir və bir neçə bədii filmdə rejissor assistenti olur.

1930-cu ildə isə ilk bədii filmi olan "Lətif"i lentə alır.

"Lətif" 1920-30 cu illərdə Azərbaycan kəndlərində gedən kolxoz quruculuğuna həsr olunub. Azərbaycan tarixinin çox mürəkkəb dövrlərindən birini - kolxozlaşma, kollektivləşmə ilə özəl sahibkarlığın, mülkədarlığın sərt toqquşduğu dövrü əks etdirən filmin mərkəzində Lətif (Lətif Səfərov) adlı yeddi yaşlı uşaq dayanır.

Filmin natura çəkilişləri Azərbaycanın bir çox bölgələrində lentə alınıb. Bu film mənim üçün hər şeydən əvvəl sənədlilik baxımından dövrünün gerçək yaşayışını - evləri, məişəti, insanların qiyafətlərini, təbiət mənzərələrini əks etdirdiyinə görə maraqlıdır. Fərqli ictimai-siyasi formasiyaya, yeni iqtisadi münasibətlərə keçən Azərbaycan kəndlisini və bu çətin keçid prosesinin onun şüuruna necə təsir etdiyini göstərən filmdə real insan portretləri, bol natura çəkilişləri qiymətli vizual informasiyadır.

Film maraqlı, koloritli əhvalat üzərində qurulub. Kəndlilər min bir əziyyətlə, ibtidai şəkildə torpaq şumlayır, əkib-becərir. Günlərin birində kəndə onların əməyini yüngülləşdirən traktor gətirilir.

Kəndlilərin traktorun gəlişini qarşılaması səhnəsinə ənənəvi toy estetikasında quruluş verilib. Sakinlər traktoru gəlin kimi bəzəyir, onun gəlişini toy-bayram kimi qeyd edir, çalıb-çağırır. Kəndin sabit həyatını pozan, hamının müzakirə etdiyi, böyük gözləntiləri olan bu dəmir parçası əhvalatın, Lətifin həyatının dəyişmək haqda qərarının hərəkətverici qüvvəsinə çevrilir.

Daha sonra traktorun tarladakı hərəkəti, məhsuldar fəaliyyəti ilə arabadan istifadə edən kəndlinin əziyyətli əməyi paralel, iti montajla görüntülənir. Müqayisəli kadrlarda yeniliklə köhnəlik qarşı-qarşıya gətirilir.

Mülkədarlar gizli toplantı keçirib, traktoru sıradan çıxarmaq planı qurur. Məsləhət-məşvərət məclisi zamanı naməlum adamın ayaq səsləri eşidilir.

Bu səhnədə rejissor, triller janrına xas elementlərdən yararlanır. Naməlum adamın ayaqlarının, ayaq səslərindən təşvişə düşən bəylərin qorxudan böyüyən gözlərinin, bağlı qapı və ona yaxınlaşan kölgənin əks olunduğu planların intensiv növbələnməsi emosiyaları gərildir, qeyri-müəyyənliyi artırır, tamaşaçını intizarda saxlayır.

Və sonda həmin naməlum adamın Hacı Səməddən əmək haqqını almağa gələn Lətif olduğunu göstərməklə səhnənin gərginliyi qəfildən yüngülləşdirilir.

Rejissorun tamaşaçıya belə bir aldadıcı oyun qurması bu gün artıq dünya kinosunda, xüsusən, triller, detektiv janrlarında çox işlənən üsuldur.

Filmdə kütləvi səhnələr çoxdur və bu epizodların hər biri çoxplanlı işlənilib.

Bundan başqa şəhərin gündəlik həyatının təsvirini əks etdirən müxtəlif qısa planlarda, dinamik montaj ardıcıllığında, ümumi ritmdə Dziqa Vertovun "Kinokameralı adam" sənədli filminin təsiri duyulur. Xatırladım ki, zamanını qabaqlayan, sənədli kinonun metod və üslubuna təsir edən, manifest sayılan "Kinokameralı adam" filmində rejissor müxtəlif şəhərlərin həyatlarından fraqmentləri bir araya gətirərək süjetsiz, eksperimental poetik film yaradıb.

M.Mikayılov film haqda deyir: "Bu mövzuda ssenari üzərində xeyli işlədim. Ciddi ifşaedici süjetə malik ssenaridə yeni həyat uğrunda mübarizəni, kəndlərimizin yenidən qurulmasını göstərməyə çalışdım. Filmin adı başqa idi: "Köhnə və Yeni". O, öz adını iş prosesində tapdı. Azyaşlı Lətif sınaq çəkilişini qurtaran kimi filmin adını dəyişib "Lətif" qoyduq. Yaşca kiçik olmasına baxmayaraq, əsərin qəhrəmanı Lətifi qolçomaq Hacı Səmədin ifşasında böyüklərə kömək edən, çətin şəraitdə qorxaraq geri çəkilməyən bir obraz kimi düşünüb yaratmışdım."

# Lətif - milli kinomuzun ilk uşaq qəhrəmanı



Traktorun gəlişindən rahatsız olan qolçomaq Hacı Səməd (A.Bəzirganov) onu "bədbəxtlik" adlandırır, kolxozlaşmanı seçən kəndlilərə "Allah sizi cəzalandıracaq" deyir. Yaxın planlar qəzəbli, məkrli Hacı Səmədin şüuraltına enir, psixoloji portretini cızır. Kəndliləri istismar edən, onları alçaltmaqdan zövq qalan qolçomaq, yalnız kolxozlaşma ilə mülkünü itirəcəyindən qorxmur, həm də ondan bir neçə pillə aşağı dayanan insanları alçaltmaq həzzindən məhrum olmaq istəmir.

Bəy, haqqını istəyən Lətifi vurur. Lətifin yıxıldığı an seyrçiyə qəhrəmanın gözü, yəni "subyektiv kamera" ilə təqdim olunur. "Subyektiv kamera" baxışını yenidən, Lətif traktorçuluq sənətini öyrənmək arzusu ilə şəhərə gələndə görürük. Şəhərin mərkəzindəki uca binaya heyrətlə baxan Lətifin başı gicəllənir, əzəmətli bina ona əyilmiş görünür. Lətifin gözü ilə verilən əyri bina görüntüsü eyni zamanda sürreal təsir bağışlayır.

Filmin ən təsirli, kinematoqrafik səhnələrindən biri Lətifin birdən-birə məlumatsız olduğu nəhəng urbanist mədəniyyətlə üz-üzə gəlməsi, bu tanışlığın doğurduğu tənhalıqdır. Nəhəng bina fonunda çəlimsiz Lətifin təsviri, ona heyrətlə baxması klassik əhvalatı - əyalətdən gəlmiş kiçik adamın şəhəri fəth eləmək, burda uğur qazanmaq istəyini xatırladır.

Qatar stansiyasında Lətifin tək oturması, insan axınında kimsəsizliyi, heç kəsin diqqətini çəkməməsi, onun tənhalığının hüznlü, mükəmməl təsviridir.

Lətifin dünyaya baxışı, xarakteri konkret, dolğun təsvirlərlə verilir. O, ac olsa da, son tikəsini pişiyi, xoruzu ilə bölüşür, ögey anasının (Həqiqət Rzayeva) onunla pis rəftarına rəğmən, ögey qardaşının qayğısına qalır. Lətifə verilən əziyyətlər, həm evdə, həm işdə istisması onun mərhəmətini, uşaq saflığını özündən ala bilmir.

Lətifin keçmişini bir neçə dəfə xatırlaması ilə nəqlin ardıcıllığı pozulur. Maraqlısı odur ki, Lətifin keçmişini xatırlaması, yəni fleşbek epizodunun içində onun daha bir vizual xatırlaması əks olunur.

Sonda Lətif kəndə qayıdır, traktoru sıradan çıxaran qolçomaqları ifşa etməkdə kəndlilərə yardım edir.

Yuxarıda qeyd etdiyimiz kimi filmin çəkilişləri bir sıra bölgələrdə aparılıb. Göyçayın Quşunça kəndində çəkilişlərin aparılması dağlarda gizlənən qolçomaqlara da çatmışdı. Hətta onlar yaradıcı qrupa qəsd etmək planı qursalar da, istəklərinə nail ola bilməyiblər.

"Lətif" ekranlara çıxandan sonra mətbuatda tənqid olunub. Yazılan məqalələrdən birində deyilir: "Filmdəki sinfi mübarizə konflikt kəskinliyi ilə seçilmir. Sinfi düşmənlərin münasibətləri dəqiq təyin edilmədiyindən kənddəki təbəqələşmə hiss olunmur. Sosial səbəblər açılmamışdır. Ümumiyyətlə, qolçomaqlığın kökləri müşahidə olunmur. Onlarla mübarizə çox sadə görünür və kolxoz asanlıqla yaradılır. Filmin fabulasının da seçimi uğurla aparılmamışdır".

Bu əsassız tənqidə cavab kimi teatrşünas Aydın Talıbzadənin fikirləri yerinə düşər: "Lətif" həqiqətlə mif, karnavalla faciə arasında girinc qalmış insanların bədii-tarixi portretidir, heyranam...

Dövrün ideoloji sifarişinə tam əməl olundu: təbliğ misilsizdir. Di gəl ki, film bu sifarişdən qat-qat yüksək canlı, ilgili və informativ. Balaca Lətif Səfərov isə möcüzə..."

Filmin quruluşçu operatoru İvan Tartakovski Gəncədə doğulub. O, Azərbaycan kinosunda 20-ə yaxın filmin operatoru olub.

2001-ci ildə filmə bəstəkar Salman Qəmbərov musiqi bəstələyib.

"Lətif" Azərbaycan kinosu tarixində baş qəhrəmanı azyaşlı uşaq olan ilk filmdir.

**P.S.** ***Yazının hazırlanmasında göstərdiyi köməkliyə görə Azərbaycan Dövlət Film Fondunun rəhbərliyinə təşəkkür edirik. Yazıda, həmçinin kinoşünas Aydın Kazımzadənin "Azərbaycan kinematoqrafçıları" kitabından istifadə olunub.***

**Sevda SULTANOVA**

Aydın Yol
N 27(36) 17.07.2015



# Dinini və adını dəyişən aktyor - Ömər Şərif

**Ötən həftə 83 yaşında dünyasını dəyişən misirli Ömər Şərif dünyamiqyaslı aktyor idi. O, ərəbləri qəbul etməyən, aşağılayan Qərbə yeni nəfəs gətirmişdi. Londonda böyüyən gənc Ömər ərəblər haqda mövcud streotipləri dağıda bilmişdi. Şərif nə neft kralı, nə çoxarvadlı ərəb şeyxi, nə İslam fanatiki, nə də terroçu idi, o, aktyor idi, dünyanın heyranlıqla izlədiyi aktyor... Beş dildə sərbəst, ancaq şivə ilə danışan Şərif rollarının öhdəsindən məharətlə gəlirdi. "Mən nə ispanam, nə italyan, nə də fransız. Mən hər yerdə yadam, buna görə də alman zabitini, rus şairini, Nyu-York yəhudisini belə asanlıqla yarada bilirəm", deyə aktyor etiraf edirdi. Şərif dövrünün ən bahalı aktyorlarından hesab olunurdu, qazandığı milyonları bahalı şəraba, gözəl qadınlara, dünya səyahətinə və qumar oyunlarına xərcləyirdi.**

### Ərəbistanlı Mişel

Ömər Şərifin əsl adı Mişel Dmitriy Şalxub idi. O, 1932-ci ilin aprelində İsgəndəriyyədə, Livandan olan katolik ailəsində anadan olub. Atası, livanlı mühacir Yusef Şalxub ağac emalı ilə məşğul olub. Bric oyunun qızğın həvəskarlarından olan anası Mişel Şalxub kral Faruqla bir masa arxasında əyləşib.

Gənc Ömər əvvəlcə İsgəndəriyyədəki "Viktoriya" ingilis kollecini biritib. Daha sonra Qahirə Universitetinə daxil olub, riyaziyyat və fizika fakültəsini fərqlənmə ilə başa vurub. Universiteti bitirən kimi o, geriləyən ailə biznesini dirçəltməyə çalışıb. Elə bu illərdə teatra maraq göstərən Ömər ilk dəfə epizodik rollarla səhnəyə çıxıb. Beş il sonra aktyor sənətini öyrənmək istəyən gənc Şərif London Kral Akademiyasına qəbul olunub.

Şərifin kinodakı ilk işi 1952-ci ildə çəkildiyi "Vadidəki mübarizə" filmi olub. Bir neçə yerli filmdə rol alan aktyor Misirdə kifayət qədər populyarlıq qazanıb.

Ömər Şərif arzuladığı şöhrəti məhz Qərb ekranında tapıb. Aktyorun 1956-cı ildə çəkildiyi "Livan qəsrinin sahibi" filmi o qədər də uğurlu olmayıb. Şərifin rejissor Rişar Portye ilə işbirliyi də gözlənilən nəticəni verməyib. 1962-ci ildə ekranlara çıxan "Ərəbistanlı Lourens" filmi isə onu dünyaya tanıdıb.

### İdeal şeyx

1962-ci ildə Hollivud rejissoru Devid Lin yeni filminin çəkilişləri üçün Misirə gəlib. Lin şeyx rolu üçün ingilisdilli ərəb aktyorunun axtarışına çıxıb. Rejissorun bütün tələblərinə cavab verən Ömər Şərif Lourens roluna təsdiq olunub. Bu rol əvvəlcə o zamanlar kifayət qədər məşhur Alen Delona təklif olunsa da, aktyor qızmar günəş altında aparılan çəkilişlərdən qorxub və imtina edib. Qumlu səhrada yuxusuz gecələr keçirən Şərifin zəhməti öz bəhrəsini verib. "Ərəbistanlı Lourens" filmi ekranlara çıxan kimi Ömər Şərif dünya şöhrəti qazanıb. Film 11 nominasiyada "Oskar"a namizəd göstərilib, Şərif də ən yaxşı ikinci plan aktyoru kimi nüfuzlu mükafata iddialı olub. "Oskar"ı qazanmasa da aktyor Amerika Kino Akademiyasının digər nüfuzlu mükafatına - "Qızıl qlobus"a layiq görülüb.

"Ərəbistanlı Lourens"in uğurundan sonra aktyor Misirdən köçüb, Hollivudda və Avropada çəkilməyə başlayıb.

1965-ci ildə Şərif və Devid Linin növbəti işbirliyi baş tutub. Bu dəfə "ərəb şeyxi" Boris Pasternakın Qərbdə böyük populyarlıq qazanan romanı "Doktor Jivaqo" əsasında çəkilən eyniadlı ekran əsərində baş rolu ifa edib. Aktyor bu təklifi tərəddüdlə qəbul etsə də, həkim-şair Jivaqo obrazının öhdəsindən məharətlə gəlib. Film beş "Oskar" qazanıb, Şərif bu dəfə də "Qlobus"la kifayətlənməli olub.

Uilyam Uaydlerin "Məzəli qız" myuzıklında Ömər Şərifin tərəf müqabili Barbara Streyzand olub. Film ekranlara çıxan kimi Misir hökuməti aktyorun bütün filmlərinə qadağa qoyub. "Məzəli qız" altıgünlük Misir-İsrail müharibəsi zamanı çəkildiyi, Şərif yəhudi Streyzandla öpüşdüyü üçün təzyiqlərə məruz qalıb. Mövcud vəziyyəti görən Ömər Şərif ailəsini Misirdən çıxarıb, özü yalnız 1977-ci ildə vətənə qayıda bilib.

Aktyor 70-dən çox filmdə rol alıb, Şərif Hollivud tərəfindən qəbul olunan və Hollivudu qəbul edən yeganə misirli olub.

### Sevgi dini

Yusif Şahinin "Vadidə mübarizə" filminin çəkilişləri zamanı aktyorun tərəf müqabili dövrünün tanınan aktrisası Faten Hamama olub. Çəkilişlərdən öncə Hamama onunla birgə oynayacaq aktyoru bəyənməyib və Mişel Şalxub adlı xristian gənci seçib. Ömər elə ilk baxışdan Fatenə aşiq olub. Filmdə "öpüşmək" qadağasını ilk dəfə Mişelə görə pozan aktrisa onun sevgisini qarşılıqsız qoymayıb. Sevdiyi qadına qovuşmaq üçün İslamı qəbul edən Mişel adını dəyişib və Ömər Şərif olub. Ərindən boşanan Hamama və Ömər Şərif adını alan Şalxub 1955-ci ildə ailə həyatı qurub.

Yüzdən çox filmdə oynayan Faten Hamama ilk rolunu hələ 10 yaşında ifa edib. Aktrisa Misir Kinotənqidçilər Assosiasiyası tərəfindən əsrin ulduzu adına layiq görülüb. Üç dəfə ailə həyatı quran aktrisanın Ömər Şəriflə münasibətləri dünyanın diqqət mərkəzində olub. 20 il bir yerdə xoşbəxt ailə həyatı yaşayan cütlüyün bu nikahdan Tariq adlı oğlu dünyaya gəlib. Onların çəkiliş meydançasındakı işbirliyi də davam edib. 1961-ci ildə ekranlara çıxan, Tolstoyun "Anna Karenina" romanının motivləri əsasında çəkilən "Sevgi çayları" filmi maraqla qarşılanıb. Uzun illər onlar ölkənin ən məşhur və sevilən "kino cütlüyü" hesab olunub.

Özünü rejissor kimi sınamaq qərarına gələn Ömər Şərif Qahirədə kiçik kinostudiya açıb. İyirmidən çox yerli filmdə rol alan aktyor, ölkəsində daha çox Faten Hamamanın əri kimi tanınıb. Hollivuddan gələn çoxsaylı film təklifləri Ömər Şərifi çətin seçim qarşısında qoyub. Çəkilişlər üçün tez-tez Amerikaya yollanan aktyorun həyat yoldaşı ilə münasibətləri əməlli-başlı pisləşib.

### 1000 evlilik təklifi

Şərifin təkidlərinə baxmayaraq, Faten Hollivuda köçməkdən imtina edib. Ailəsinə və həyat yoldaşına kifayət qədər zaman ayıra bilmədiyini görən, sevdiyi qadına xəyanət etməkdən qorxan Şərif boşanmaq qərarına gəlib. 1974-cü ildə Faten və Ömərin sevgi əfsanəsi bitib. "Mən heç vaxt həyat yoldaşıma xəyanət etməmişəm. Mən onu sevmişəm. Mən ona hörmət etmişəm. Ancaq ətrafımda o qədər gözəl qadınlar var idi ki... Mən – gənc və təcrübəsiz misirli bu qadınlardan birinə aşiq olmaqdan, ailəmə xəyanət etməkdən qorxurdum". İslam qaydalarına əsasən, Şərif oğlu Tariqin təlim-tərbiyəsi ilə özü məşğul olub, Faten isə üçüncü dəfə ailə qurub.

Şərifə gəlincə o, bir də heç vaxt evlənməyib. İllər sonra da Şərif yaşadığı çoxsaylı sevgi macəralarına rəğmən, yalnız Faten Hamamanı sevdiyini etiraf edib.

Ömər Şərifin qadınları yoldan çıxaran qaynar ərəb olması haqda xeyli əfsanələr gəzib. Aktyorun həftə ərzində 1000 evlilik təklifi aldığı, sevdiyi qadınlar arasında Katrin Denyov və Barbara Streizand kimi dünya ulduzlarının olduğu yazılıb. Şərif hər vəchlə yazılanları şişirtmə adlandırıb, həmkarları kimi gözəl qadın vurğunu olduğunu gizlətməyib. Nikahdan kənar uşaq məsələsində də aktyor özünəməxsus davranıb. Atalıq, hiss məsələsidir deyən Şərif yalnız sevdiyi qadınlardan olan uşaqlarına soyadını verə biləcəyini deyib. Bütün ömrü boyu Ömər Şərif yalnız bir qadını – Faten Hamamanı sevib.

### Qumarbaz

70-ci illərdə Şərifin kinokaryerası o qədər də uğurlu alınmayıb. Aktyor uzun müddət ekranlardan uzaq qalıb. "Pis filmə çəkilməkdənsə, bric oynayaram" deyən aktyorun qumara, stolüstü oyunlara marağı ona baha başa gəlib.

Təklikdən bezən aktyor darıxmamaq üçün qumar oynadığını etiraf edib: "Heç kimi tanımadığın böyük şəhərlərdə boş otel otağına getmək istəməyəndə kazinoya üz tuturam". Çəkiliş meydançasında təsadüfən bric haqda kitab tapan aktyor bu oyunun əsl həvəskarına çevrilib. Peşəkar bric oyunçusu anasının təcrübəsi də ona yardımçı olub. Tezliklə, Ömər Şərif dünya kazinolarında tanınıb, qızğın qumar oyunçusu və birc eksperti adını qazanıb. Aktyor bric oyunu haqda bir neçə kitab yazıb, onun şərəfinə "Omar Sharif Bridge" adlı kompüter oyunu yaradılıb. Şərif gündəlik qəzetlərdə nəşr olunan bric haqda məqalələrin redaktoru kimi də çıxış edib.

Ancaq peşəkar oyunçuların da bəxti hər vaxt gətirmir. Bir gecə Şərif qumar masasında Parisdəki mənzilini uduzub, dəfələrlə oyun zamanı qonorarını göyə sovurub. Bunun nəticəsidir ki, aktyor pul xətrinə zəif filmlərdə oynamaqdan da imtina etməyib. 2003-cü ildə oyun zamanı 30 min avro uduzan aktyor polislə mübahisə edib və bir aylıq həbs cəzası alıb. Uzun illər Ömər Şərif Parisdəki "Royal Monso" otelində yaşayıb, şəxsi mənzilinə köçməkdən imtina edib.

### Yaddaşsızlıq xəstəliyi

90-cı illərdə Ömər Şərifin həyatı tamamilə dəyişib. Ürəyindən ağır əməliyyat keçirən aktyor zəif filmlərdə çəkilməkdən imtina edib və birdəfəlik Qahirəyə köçüb. Gündə yüz siqaret çəkən aktyor bu zərərli vərdişindən də xilas olub, bütün boş vaxtını oğlu Tariq və nəvəsinə həsr edib.

Ağır əməliyyatdan sonra Şərif xeyriyyəçilik barədə düşünməyə başlayıb. Kardioloji xəstəliklərdən əziyyət çəkən uşaqlar üçün yaradılan "Ümid zənciri" xeyriyyə cəmiyyətinə maliyyə yardımı göstərib. Ömər Şərifin sayəsində fond külli miqdarda vəsait toplayıb.

70 yaşında aktyor "Müsyö İbrahim və Quran çiçəkləri" filmindəki roluna görə Fransız Kinoakademiyasının nüfuzlu "Sezar" mükafatını qazanıb. 2003-cü ildə Ömər Şərif Venesiya kinofestivalında kinematoqrafiyanın inkişafındakı xidmətlərinə görə "Qızıl şir"ə layiq görülüb.

"Əbədi mərdlik" adlı xatirə kitabı yazan aktyor son bir ildə Alsqeymer xəstəliyindən əziyyət çəkib. Bu barədə məlumat verən oğlu Tariq Şərif deyib ki, son vaxtlar atası heç kimi tanımır, yada sala bilmirdi.

**Leyla ƏLİYEVA**



Aydın Yol
N 27(36) 17.07.2015

# İstanbulda ən qədim "Qurani-Kərim"in nüsxələri nümayiş olunub

**İstanbul İslam Tarix, Sənət və Mədəniyyət Mərkəzi (IRCICA) dünyanın dörd bir yanında yerləşən zəngin kitabxanalar və muzeylərdə yer alan, ilk Hicri tarixə aid ən qədim "Qurani-Kərim" kitabının nüsxələrini nümayiş etdirib.**

Anadolu agentliyi xəbər verir ki, mərkəzin direktoru Halit Eren müqəddəs kitabın nüsxələrinin toplanılmasına 2005-ci ildən başlanıldığını bildirib: "Araşdırmalara sabiq diyanət işləri başkanı Təyyar Atıkulaç və mərkəzimizin bir qrup heyətinin birgə fəaliyyəti ilə başladıq. Küfi və hicazi xətlərlə yazılan nüsxələri yeni nüsxələrlə bir-bir tutuşdurmuşuq".

Qeyd edək ki, qurum müqəddəs qədim nüsxələrini sistemə salıb dünyanın ən zəngin kitabxanalarına yayımı ilə məşğul olacaq.



# Aktyorun oğlu qayalıqlardan düşərək öldü



**Avstraliyalı aktyor və musiqiçi Nik Keyvin 15 yaşlı oğlu Artur uçurumdan düşərək dünyasını dəyişib. Rokçunun oğlunun meyiti tapılıb. İngiltərənin Brayton şəhərində qayalıqlardan düşərək öldüyü ehtimal edilən Artur haqda ailəsi yaxın günlərdə açıqlama verəcək.**

A.Keyv Nikin Suzi Bikdən olan iki oğlundan biri idi. O, atasının çəkdiyi "Dünyanı 20 min günü" sənədli filmində rol alıb.



# Sezen Aksuya 61 yaş sürprizi

**Müğənni Sezen Aksunun 61 yaşı tamam olub.**

"Hürriyət" xəbər verir ki, ifaçı karyerasının 40-cı ili münasibətilə təşkil edilən "Sezenli illər" konsertinin hazırlıqları zamanı sürprizlə qarşılaşıb. Yaxın dostları Aksu üçün ad günü partisi təşkil ediblər.

Sərtab Erenerin də yer aldığı gecədə Sezenin şlyapası diqqət çəkib.

***

**Sloveniyanın "Laibach" musiqi qrupunun avqustun 19-20-də Pxenyanda iki konsert verəcəyi planlaşdırılıb. Konsertlər Koreya yarımadasının Yaponiya müstəmləkəsindən azad edilməsinin 70 illiyinə həsr olunub və 2000 nəfərlik zalda keçiriləcək.**

Konsert proqramı 35 il fəaliyyət göstərmiş qrupun ən məşhur mahnılarından və Şimali Koreya milli musiqilərindən ibarət olacaq.

Qrupun tənqidçiləri iddia edirlər ki, "Laibach" siyasi və milliyyətçi rəmzlərdən həddindən çox istifadə edir. Pərəstişkarlar isə qrup üzvlərinin səhnəyə hərbi geyimlərdə çıxmasını totalitarizm ideologiyasına qarşı etiraz kimi dəyərləndirirlər.

# Rembo İŞİD-lə mübarizə aparacaq



**Rembo yeni filmində İŞİD-lə mübarizə aparacaq. Bu barədə "Deyli Meyl" məlumat yayıb.**

Silvestr Stallone buna görə çəkiliş qrupunun İraq və Suriyanın bəzi bölgələrində məlumat toplamaq üçün çalışdığını söyləyib: "Yerlilərlə birlikdə bu günə qədərki ən həqiqi Rembo yaratmaq üçün çalışırıq".

Rembonun son filminin adı "Son qan" ("Last Blood") olacaq.



# Şimali Koreyada ilk konserti bu əcnəbi qrup verəcək

# Oxucuların nəzərinə



**Tərcümə Mərkəzinin nəşr etdiyi (Xuan Rulfo – "Pedro Paramo", Matilda Urrutia – "Pablo Nerudayla yaşanan ömür", "Latın Amerikası romanı", "Xilas yolunun yolçuları", "Bəşəri poeziya", Ernest Heminquey – "Qadınsız kişilər", Akutaqava Rünoske – "Tanrıların istehzası", Jasmina Mixayloviç – "Xəzər dənizinin sahillərində", "Serbcə-Azərbaycanca lüğət", "Sözün Aydını", Oljas Süleymenov – "Az-Ya", "Candles (101 verses)" şeir antologiyası) kitabları şəhərin aşağıdakı kitab mağazalarından əldə edə bilərsiniz.**

- Akadem. Kitab mağazası
- Kitab klubu mağazası
- Akademiya Kitab Mərkəzi
- Kitab.Az mağazası
- (28 may metrosu ətrafındakı kitab mağazaları)